Xalqın qəzeti!

# Xalq qəzeti

№ 86 (30490) 28 aprel 2024-cü il, bazar

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | xalqqazeti.az

# Prezident İlham Əliyevin gələcək quruculuğu düşüncələri



**Dövlət başçısı mikrofon önündədirsə, kamera qarşısındadırsa, o, sözünü yalnız həmin anda onu görən, eşidən auditoriyaya demir, həmişə daha çox ünvanlara üz tutur. Bəzənsə onun sözü hətta indi qarşısında dayananlardan daha artıq xeyli uzaqlarda olan və bu dövlət başçısının hansısa hadisələrə necə münasibət bəsləməsi haqda nəsə eşitməyə müntəzir olanlara yönəlib.**

Dövlətin birinci adamı hər bir halda mahiyyətcə tarixə çevrilən şəxsiyyətdir, odur ki, ölkə rəhbərinin kütlələrə hər müraciətində də tarixilik var. Həmin tarixin necəliyini, bu söylənənlərin həyatda yerini nə təhər tapmasını isə Vaxt göstərir, uyğun qiymətini də verir.

Prezident İlham Əliyev nitqindəki hər cümlə, hər bir cümləsindəki hər söz ölçülü-biçili, dəqiq yerində olan siyasətçidir. Həm də nitqdən-nitqə fərq var. Biri var öncədən hazırlaşırsan, mətni irəlicədən fikrində qurursan və asudəliklə də çatdırırsan. Biri də var o nitq ekstremal şəraitdə yaranır, taleyüklü hədəflər daşısa da, yöndəmsiz, bəzənsə heç də xoş olmayan, ədalətsizliyi ilə əsəb qıcıqlandıran, haqsızlığı ilə hövsələ daraldan suallarla müşayiət edilir, sən də hamının sınayıcı baxışları qarşısında o sualları tövrünü pozmadan, soyuqanlılıqla cavablandırmalısan. Üstəlik, bəzən o sual-cavablar elə son dərəcə məsul tarixi məqamlarda baş verir ki, bu gərgin anlarda hissə qapılmaq, fikir müvazinətini itirərək hansısa ifadəni yerində işlətməmək sonra dərin peşmanlıq da yaradır ki, niyə o anda filan sözü demək, filan fikri dilə gətirmək ağlıma gəlmədi?

Prezident İlham Əliyevin İkinci Qarabağ müharibəsi dönəmində dünya telekanalları və informasiya agentliklərinə verdiyi müsahibələr, ya bundan öncə Ermənistan rəhbəri ilə mühüm panellərdəki hərəsi bir duelə oxşar qarşılaşmaları, ya ondan da xeyli qabaq Strasburqda, avropalı parlamentarilərin bir-birindən qəliz suallarını cavablandırarkən etdiyi parlaq çıxışlar sadəcə dialoqlar, fikir mübadilələri, ənənəvi sual verib, cavab almalar kimi dəyərləndirilməməlidir. Bunların hər biri sərt fikir və mövqe çəkişmələrində müdrik dövlət başçısının, mahir diplomatın, uzaqları görə bilən kamil strateji düşüncə sahibinin misilsiz qələbələri idi. Elə qələbələr ki, onlar əslində möhtəşəm Qarabağ Zəfərimizin nəzəri əsasları, başlıca dayaq sütunları sayılmalıdır. Prezident İlham Əliyevin 2024-cü ilin 23 aprelində ADA Universitetində baş tutan "COP29 və Azərbaycan üçün Yaşıl Baxış" devizli forumda söylədikləri həmin xəttin daha bir uğurlu davamına, yeni zaman kəsiyində Azərbaycanın boyunu bütün ucalığı, hədəflərini aydınlığı ilə göstərən diqqətəlayiq açıqlamalar silsiləsinə çevrildi.

*(ardı 5-ci səhifədə)*

## Fəzilət şəxsiyyətin nurudur



Səhifə ⇨ 6

## Yaşıl velosiped yolları küçələrimizi "yaşıl" gələcəyə aparır



Səhifə ⇨ 8

## Hidayət Heydərov 4-cü Avropa qızılını qazandı



Səhifə ⇨ 11

## Sülh hərb məramlı Ermənistanın qapısını döyür



### İndi İrəvanın dirçəlmək üçün ona xeyirxahlıqla uzanmış əldən yapışmaqdan başqa çarəsi qalmayıb

**Sülh Ermənistanın qapısını döyür. Əgər rəsmi İrəvan bu fürsəti düzgün dəyərləndirə bilməsə ona verilmiş tarixi şansı bu dəfə birdəfəlik əlindən qaçıracaq. Bu isə Ermənistanın bütün müstəvilərdə uduzması ilə nəticələnəcək. Yerli ekspertlərin gəldiyi yekdil qənaət belədir. Onlar öz qənaətlərində heç də haqsız deyillər.**

Zamanın təkərinin İrəvanın ziyanına fırlandığını indi baş nazir Nikol Paşinyan da yaxşı anlayır. Fəqət anlamaq azdır. O, daxildən və xaricdən edilən bütün təzyiqləri neytrallaşdırmağı, yaranmış tarixi reallıqdan yararlanmağı və qapısını döydüyü sülhə tərəf addım atmağı bacarmalıdır. Yəqin Paşinyan alternativ seçimin özü və ölkəsi üçün hansı fəsadlara səbəb ola biləcəyinin fərqindədir.

"Ermənistan konstitusiyasında qondarma "Dağlıq Qarabağ"ın Ermənistanın bir hissəsi olması barədə qeyd qaldıqca İrəvanla sülh sazişi imzalana bilməz". Azərbaycan Prezidenti İlham Əliyevin "COP 29 və Azərbaycan üçün Yaşıl Baxış" mövzusunda keçirilən beynəlxalq forumda çıxışında dediyi bu sözlər Bakının ikitərəfli münasibətlərin normallaşması yolunda dəyişməz mövqeyidir. "Mən onların konstitusiyasının dəyişməli olduğunu deyəndə, bu, heç də təkəbbür və ya kobudluq deyil. Xeyr! Bu, ilkin şərtdir. Eynilə hesab edirəm ki, onlar Ağrı dağının təsviri olan milli gerblərini də dəyişdirməlidirlər. Onların Ermənistanda çoxlu dağları var, qoy başqasını seçsinlər", – deyə, dövlətimizin başçısı çıxışında vurğulayıb.

Baş nazir Nikol Paşinyanın özü də bir müddət əvvəl Ermənistanın konstitusiyasında və gerbindəki həmin siyasi yanlışlıqların aradan qaldırılmasının vacibliyi barədə fikirlərini açıq şəkildə ifadə etmişdir. Qonşularına qarşı ərazi iddialarından birdəfəlik əl çəkərək, düşdüyü hərbi-siyasi labirintdən qurtuluş yolunun məhz Türkiyə və Azərbaycanla münasibətləri normallaşdırmaqdan keçdiyini rəsmi İrəvan qəbul etməli, özünü bunun "keçilməz dağ" olmadığına inandırmalıdır.

**(ardı 4-cü səhifədə)**

# Eçmiədzin öz xalqını uçuruma sürükləyir



**Ermənistanla Azərbaycan arasında sülhün əldə olunması istiqamətində irəliləyişlərin qeydə alınması, o cümlədən, iki ölkənin delimitasiya və demarkasiya məsələsində müəyyən razılığa gəlməsi Hayastan daxilində baş nazir Nikol Paşinyana qarşı olan qüvvələrin də aktivləşməsinə səbəb olub. Ermənistanı 20 il ərzində çapıb-talayan Koçaryan-Sarkisyan cütlüyü tərəfdarlarından, Paşinyanın işdən çıxardığı keçmiş məmurlardan və digər müxalif qüvvələrdən ibarət olan bu dəstədə cəmləşənlər proseslərdən öz mənafeləri üçün istifadə etməyə çalışırlar. Onlar nəyin bahasına olursa-olsun ölkədə vəziyyəti gərginləşdirmək, xaos yaratmaq və nəticədə hakimiyyətə yiyələnmək istəyirlər.**

Hayların, necə deyərlər, beyinlərinin yuyulmasında müstəsna rola malik olan, onları "dənizdən dənizə böyük Ermənistan" mifi ilə zəhərləyən, iki xalq arasında ədavəti hər zaman qızışdıran erməni apostol kilsəsi də xislətinə sadiq qalaraq, revanşistlərə dəstək verənlərin önündə qərar tutub. Kilsə ilə Ermənistan hakimiyyəti arasında münasibətlər, yumşaq desək, soyuqdur.

**(ardı 3-cü səhifədə)**

# İnvestisiya Şirkəti qeyri-neft sektorunu davamlı və əhatəli himayə edir

### *Qurum 1,6 milyard dollar investisiya ilə 2 minə yaxın iş yeri yaradacaq*

**Fəaliyyətə başlamasından ötən 18 il ərzində Azərbaycan İnvestisiya Şirkəti (AİŞ) xarici investorların ölkəmizə cəlbi və bu sahədə respublikamızın etibarlı tərəfdaş kimi tanıdılması, yeni iş yerlərinin yaradılması istiqamətində mühüm tədbirlər həyata keçirib. AİŞ idxaldan asılılığın azaldılması, yerli istehsala dəstək, eləcə də istehsal olunacaq məhsulların istehlak bazarında sərfəli şərtlərlə əldə edilməsi məqsədilə yerli və xarici tərəfdaşlarla birgə əczaçılıq, qida emalı, logistika, alternativ enerji, dağ-mədənçilik və s. sahələr üzrə bir sıra layihələr gerçəkləşdirib. Şirkət, eyni zamanda, biznes və investisiya mühitinin yaxşılaşdırılması, iqtisadiyyatın şaxələndirilməsi, resurslardan səmərəli istifadə yolu ilə iqtisadiyyatda müsbət dinamikanın davamlılığına əlverişli zəmin yaradıb.**

**(ardı 7-ci səhifədə)**



# Ermənilərin Zəngəzur cinayətləri

### Andranik və Njdenin silahlı dəstələri soyqırımı cəlladları idilər



**Azərbaycanın Qərb rayonlarının Naxçıvanla maneəsiz əlaqəsinin təmin olunması ilə bağlı 19 noyabr 2020-ci il üçtərəfli Bəyanatın imzalanmasından 4 ilə yaxın vaxt keçib. Ermənistan bu öhdəliyi yerinə yetirmək istəmir, bununla bağlı müxtəlif manipulyasiyalarını davam etdirir. "Zəngəzur dəhlizi" adlandırılan bu ərazinin vaxtilə Azərbaycanın ayrılmaz hissəsi olduğu unudulmamalıdır.**

**(ardı 4-cü səhifədə)**

# Türk İnvestisiya Fondunun Rəhbərlər Şurasında Azərbaycan Respublikasının təmsil edilməsi ilə bağlı bəzi məsələlər haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Türk İnvestisiya Fondunun yaradılması haqqında" Sazişin təsdiq edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 30 may tarixli 874-VIQ nömrəli Qanununa uyğun olaraq **qərara alıram:**

**1.** Türk İnvestisiya Fondunun Rəhbərlər Şurasında Azərbaycan Respublikasından Rəhbər Azərbaycan Respublikasının iqtisadiyyat naziri, alternativ Rəhbər isə Azərbaycan Respublikasının maliyyə naziri təyin edilsin və onlara həmin Fondda Azərbaycan Respublikasını təmsil etmək səlahiyyəti verilsin.

**2.** Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 27 aprel 2024-cü il**

# Sahibkarlıq fəaliyyəti sahəsində fərqlənən şəxslərin "Tərəqqi" medalı ilə təltif edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının iqtisadi inkişafına verdikləri töhfəyə və sahibkarlıq sahəsində səmərəli fəaliyyətlərinə görə aşağıdakı şəxslər "Tərəqqi" medalı ilə təltif edilsinlər:

Abdullayeva İlhamə Xanlar qızı
Abuşov İlkin Əlimövsüm oğlu
Ağazadə İlqar Bəhruz oğlu
Bədəlov Mustafa Soltan oğlu
Cavanşir Elman Bəşir oğlu
Əhmədova Afət Adil qızı
Hacıyev Sultanhəmid Hacı oğlu
Hüseynov Yaşar Mirzəxan oğlu
İsmixanlı Ramin Sultan oğlu
Məmmədov Emin Ruslan oğlu
Məmmədov Fuad Nadir oğlu
Məmmədov Seymur Mikayıl oğlu
Rzayev Emin Əjdər oğlu
Tabasaranskiy Kənan Fikrət oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 27 aprel 2024-cü il**

# Milli Məclis Sədrinin Monteneqro Prezidenti ilə görüşü



**Milli Məclisin Sədri Sahibə Qafarova Monteneqro Respublikasına rəsmi səfəri çərçivəsində bu ölkənin Prezidenti Yakov Milatoviç ilə görüşüb. Azərbaycan Prezidenti İlham Əliyevin salamlarını Monteneqronun dövlət başçısına çatdıran Spiker ölkəmizdə keçiriləcək COP29-da iştirak etmək üçün dəvət məktubunu ona təqdim edib.**

Prezident Yakov Milatoviç Azərbaycanın Monteneqro üçün dost ölkə olduğunu vurğulayaraq, ölkələrimiz arasında münasibətlərin inkişaf etdiyini söyləyib. O, Azərbaycanın Monteneqronun əsas investorlarından biri olduğunu, xüsusilə turizm sahəsində əməkdaşlığın yüksək səviyyəsindən razılığını bildirib.

Azərbaycanın COP29-a evsahibliyi etməsi münasibətilə təbriklərini çatdıran Y.Milatoviç Dubayda keçirilən COP28 çərçivəsində Prezidenti İlham Əliyevlə görüşünü məmnunluqla xatırlayıb. O, bu il Azərbaycanda keçirilmiş növbədənkənar prezident seçkilərində dövlət başçısı İlham Əliyevin qələbəsi münasibətilə təbriklərini çatdırıb və Monteneqro parlamentinin üzvlərinin də bu seçkiləri müşahidə etdiklərini xatırladıb. Monteneqronun Azərbaycan üçün dost və tərəfdaş ölkə olduğunu qeyd edən Prezident bildirib ki, ötən il iki ölkə arasında diplomatik əlaqələrin yaradılmasının 15-ci ildönümü tamam olub. Ötən dövrdə ölkələrimiz arasında bir sıra sahələrdə uğurlu əməkdaşlıq əlaqələri qurulub.

Görüşdə ölkələrimiz arasında müqavilə - hüquq bazasının daha da genişləndirilməsi, yeni sazişlərin imzalanmasının əhəmiyyəti vurğulanıb. Söhbət zamanı humanitar sahədə də əlaqələrin, o cümlədən ölkələrimiz arasında münasibətlərin inkişafında parlamentlərarası əməkdaşlığın əhəmiyyəti qeyd olunub.

S.Qafarova bu ilin yanvar ayında Azərbaycan Milli Məclisinin Avropa Şurası Parlament Assambleyasında nümayəndə heyətinin etimadnaməsinin təsdiqlənməməsinə toxunaraq, Monteneqronun bu səsvermədə iştirak etməməsini qeyd edib. Spiker Avropa Parlamentinin ölkəmizə qarşı qəbul etdiyi qərəzli qətnamələri də tənqid edib. Söhbət zamanı bəzi beynəlxalq təşkilatlarda Azərbaycana qarşı müşahidə olunan qərəzli kampaniyaları və təzyiqləri tənqid edən S.Qafarova deyib ki, Azərbaycan öz yolu ilə gedir. O, sülh sazişinin tezliklə imzalanacağına ümidvar olduğunu bildirərək, iki ölkə arasında delimitasiya prosesi barədə də məlumat verib. Bildirilib ki, aparılan danışıqlar nəticəsində Ermənistan işğal etdiyi 4 kəndin Azərbaycana qaytarılmasına razılıq verib. Fransanın regionumuzda gərginliyi artırmaq məqsədi daşıyan addımları barədə də məlumat verən spiker deyib ki, bu ölkə sülhə xidmət etməyən, yeni münaqişənin alovlanmasına hesablanmış yanaşma ortaya qoyur.

Milli Məclisin Sədri regionda nəqliyyat xətlərinin açılması perspektivləri ilə bağlı fikirlərini açıqlayıb və hazırda Qarabağ və Şərqi Zəngəzurda genişmiqyaslı bərpa və yenidənqurma işlərinin həyata keçirildiyini diqqətə çatdırıb.

Prezident Yakov Milatoviç Azərbaycan və Ermənistan arasında sülh sazişinin imzalanacağına ümid etdiyini bildirib və bunun regionun inkişafına töhfə verəcəyinə inamını ifadə edib.

Görüşün sonunda Milli Məclisin Sədri "Qarabağ işğaldan əvvəl və sonra" kitabını Monteneqro Prezidentinə təqdim edib.

***

Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılıq etdiyi parlament nümayəndə heyətinin Monteneqro Respublikasına rəsmi səfəri davam edir.

Azərbaycan nümayəndə heyəti səfər çərçivəsində paytaxt Podqoriça şəhərində "Partizan döyüşçüsü" abidəsini ziyarət edib. Milli Məclisin Sədri adından abidənin önünə əklil qoyulub.

***Ə.BƏDƏLOV***
***XQ***

# Naxçıvan muxtariyyətinin 100 illiyi Gürcüstan qəzetində

**Gürcüstanda fəaliyyət göstərən "Alyans" Gənclər Mərkəzi həyata keçirdiyi "Maddi-mənəvi irsimizin təbliği" layihəsi çərçivəsində Gürcüstanın nüfuzlu "Sakartvelos Respublika" ("Gürcüstan Respublikası") qəzetində Naxçıvan Muxtar Respublikasının 100 illiyinə həsr olunmuş "Dost, qonşu və strateji tərəfdaş" sərlövhəli geniş məqalə dərc etdirib.**

Məqalədə Azərbaycan Prezidenti İlham Əliyevin "Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin qeyd edilməsi haqqında" Sərəncamı əsasında bu xüsusda keçirilən tədbirlərin həm Azərbaycanın ərazi bütövlüyünün tam təmin olunduğu, həm də respublikamızın yeni inkişaf mərhələsinə qədəm qoyduğu bir dövrə təsadüf etdiyi bildirilib. Yazıda Prezident İlham Əliyevin Naxçıvanla bağlı fikirlərindən sitat gətirilir: "Naxçıvan diyarı Azərbaycanın çoxəsrlik zəngin keçmişində layiqli yer tutmuş, ictimai-siyasi və elmi-mədəni həyatında özünəməxsus rol oynamışdır. Naxçıvan şəhəri Azərbaycan Atabəyləri – Eldəgizlər dövlətinin paytaxtı olmuş, İslam sivilizasiyasının mühüm elm, mədəniyyət və sənətkarlıq mərkəzlərindən biri kimi geniş şöhrət tapmışdır. Bünövrəsi Əcəmi Naxçıvani tərəfindən qoyulmuş memarlıq məktəbinin günümüzədək gəlib çatan yadigarları indi də Naxçıvanın görünüşünə xüsusi rəng qatır. Naxçıvan əsrlər boyu yetirdiyi görkəmli şəxsiyyətləri ilə Azərbaycan dövlətçiliyinin, mədəniyyətinin və elminin tərəqqisinə töhfələr vermişdir".

Eyni zamanda, xatırladılıb ki, Naxçıvan Azərbaycan xalqına Hüseyn Cavid, Məmməd Səid Ordubadi, Cəlil Məmmədquluzadə, Məmməd Araz, Yusif Məmmədəliyev və Azərbaycan dövlətinin memarı, qurucusu, xalqımızın ümummilli lideri Heydər Əliyev kimi dahi şəxsiyyətlər bəxş edib. Ulu öndər Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası qarşısındakı tarixi xidmətləri sadalanıb, muxtar respublikanın sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılması üçün məhdud daxili imkanlardan maksimum və səmərəli istifadə etdiyi, o cümlədən, qonşu dövlətlərlə iqtisadi əlaqələrin inkişafı üçün zəruri tədbirlər həyata keçirdiyi vurğulanıb.


ნახიჩევანი 100 წლისაა
მეგობარი, მეზობელი, სტრატეგიული პარტნიორი

Qəzet onu da oxucularının diqqətinə çatdırıb ki, Prezident İlham Əliyev də Naxçıvana hər zaman böyük diqqət və qayğı göstərib. Habelə ötən 20 ildə Prezident İlham Əliyevin birbaşa diqqəti sayəsində muxtar respublikanın enerji probleminin tamamilə aradan qaldırıldığı bildirilib. Bundan başqa, məqalədə Birinci vitse-prezident Mehriban xanım Əliyevanın müxtəlif vaxtlarda Prezident İlham Əliyevlə birlikdə Naxçıvana səfərləri, "Əshabi-Kəhf" ziyarətgahını ziyarət etməsi də yer alıb.

***XQ***

# "Azərbaycan Respublikasının Hökuməti və "ACWA Power Azerbaijan Renewable Energy" Məhdud Məsuliyyətli Cəmiyyəti arasında "Dəyişikliklər edilmiş və yenidən tərtib olunmuş İnvestisiya müqaviləsi"nin təsdiq edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Qoyuluş gücü 240 MVt olan külək elektrik stansiyasının tikintisi ilə bağlı pilot layihənin həyata keçirilməsinə dair əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 20 fevral tarixli 12 nömrəli Sərəncamının icrası ilə əlaqədar **qərara alıram:**

**1.** 2024-cü il 29 fevral tarixində imzalanmış "Azərbaycan Respublikası Hökuməti və "ACWA Power Azerbaijan Renewable Energy" Məhdud Məsuliyyətli Cəmiyyəti arasında "Dəyişikliklər edilmiş və yenidən tərtib olunmuş İnvestisiya müqaviləsi" təsdiq edilsin.

**2.** Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 27 aprel 2024-cü il**

# Hikmət Hacıyev: Mülki əhali hər gün Ermənistanın yerləşdirdiyi milyonlarla mina ilə üzləşir

**Azərbaycanın mülki əhalisi, demək olar ki, hər gün Ermənistan tərəfindən yerləşdirilmiş milyonlarla mina ilə üzləşir.**



Bu barədə Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev "X" hesabında yazıb.

H.Hacıyev xatırladıb ki, bu gün daha bir mina partlayışı baş verib və ANAMA-nın minatəmizləmə əməliyyatçısı ağır yaralanıb.

2020-ci ilin 10 noyabr tarixindən 2024-cü ilin 24 aprel tarixinə kimi 356 Azərbaycan vətəndaşı minadan zərərçəkən kimi qeydə alınıb.

Bildirilib ki, minaya düşənlərin 65-i həlak olub, 291-i isə xəsarət alıb. Qeyd olunub ki, həlak olanların 50-si mülki vətəndaş, 15-i isə hərbçilərdir. Yaralıların isə 126-sı mülki şəxs, 165-i hərbi qulluqçudur.

Qeyd olunub ki, ümumilikdə, 1991-ci ildən bu günə kimi 3 min 435 nəfər minadan zərərçəkən kimi qeydə alınıb. Onlardan 358 nəfəri uşaqlar, 38 nəfəri qadındır.

***XQ***

# ANAMA-nın əməkdaşı Şuşada minaya düşüb

**ANAMA-nın əməkdaşı, 1981-ci il təvəllüdlü Elçin Aydın oğlu Quliyev aprelin 27-də azad edilmiş Şuşa rayonunun Qaybalı kəndi ərazisində xidməti vəzifəsini yerinə yetirərkən piyada əleyhinə mina partlayışı nəticəsində xəsarət alıb.**

Bu barədə Daxili İşlər Nazirliyi, Baş Prokurorluq və Minatəmizləmə Agentliyinin (ANAMA) Mətbuat xidmətləri birgə məlumat yayıb.

Bildirilib ki, xəsarət alan əməkdaşa "Sağ ayağın amputasiyası" diaqnozu qoyularaq, Agentliyin paramediki tərəfindən yerində ilkin tibbi yardım göstərilib və rayon xəstəxanasına təxliyə olunub, hazırda vəziyyəti stabildir.

Faktla bağlı Şuşa Rayon Prokurorluğunda araşdırma aparılır.

***XQ***

# Prokurorluq əməkdaşlarının "yaşıl" aksiyası



**Azərbaycan Respublikasında 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi ilə əlaqədar aprelin 27-də Baş Prokurorluq, Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi, Hərbi Prokurorluq, Bakı şəhər və paytaxtın tabe rayon prokurorluqlarının əməkdaşları, həmçinin prokurorluğun veteranları Ekologiya və Təbii Sərvətlər Nazirliyinin yaxından dəstəyi ilə növbəti ağacəkmə kampaniyası keçirib.**

Tədbir çərçivəsində, ümumilikdə, 2 hektar ərazidə 1500-dən çox ağac əkilib.

Kampaniyadan sonra Baş prokuror Kamran Əliyev prokurorluğun veteranları ilə görüşərək onlarla səmimi söhbət edib.

***XQ***

# Hərbi qulluqçularımız Türkiyədə beynəlxalq təlimdə

**Türkiyə Respublikasının İstanbul və İzmir şəhərlərində 49 ölkədən, ümumilikdə, 1 567 nəfərdən ibarət şəxsi heyətin iştirakı ilə "EFES – 2024" çoxmillətli təlim keçirilir.**




Kompüter dəstəkli komanda-qərargah və döyüş atışlı mərhələdən ibarət olan təlimə Azərbaycan Ordusunun bir qrup hərbi qulluqçusu cəlb olunub.

"EFES – 2024" çoxmillətli beynəlxalq təlimi mayın 30-dək davam edəcək.

***XQ***

# Amerikalı diplomatın Ulu öndərə hədiyyəsi və fransız senatorun dedikləri

**Uzun illər əvvəl nümayəndə heyətinin tərkibində Fransada səfərdə idim. Həmkar dostlarla birgə paytaxt Parisdə hər gün müxtəlif tədbirlərə, görüşlərə qatılırdıq. Səfər proqramımız zənginliyi və sıxlığı ilə seçilirdi. Görüşlərimizdən biri axşamüstü Azərbaycanpərəst qocaman senatorla nəzərdə tutulmuşdu. Nümayəndə heyətinin üzvləri görüşün günün sonunda planlaşdırılmasından məmnun deyildilər. Hamı dincəlmək, kafe və ya restorana, yaxud alış-verişə getmək istəyirdi. Fikirləşirdik ki, bu görüşün nə faydası var. Amma yanılmışdıq.**



Senatorun evinə getdik. Xəstəhal idi. Bəlkə də, qocalıq öz sözünü deyirdi. Görünür, ziyarətin evdə keçirilməsi bayıra çıxmağa çətinlik çəkməsi ilə bağlı idi. Əlqərəz, senator bizi avropalılara xas olmayan istiqanlılıqla qarşıladıqdan sonra dərin sükuta daldı, hamımızı son dərəcə ağır nəzərlərlə süzərək dilləndi: "Bilirəm ki, dərdiniz böyükdür".

Həmin an qeyri-ixtiyari bir-birimizin üzünə baxdıq. Əvvəlcə qocanın nə dediyini anlaya bilmədik. Görəsən, nə dərd, yaxud nəyin dərdi imiş? Ancaq tezliklə hər şey məlum oldu. Yəni, dediyi ilk sözdən sonra yenidən ətrafa sükut çökdürərək, sanki, bütün diqqətləri özünə cəmləyən senatorun fikrini əsaslandırması çox da uzun çəkmədi: "Torpaq ya var, ya da yoxdur. İtirdinsə, yenisini yarada bilməyəcəksən", – dedi və asta-asta davam etdi: "Siz torpağını itirmiş insanlarsınız".

Qoca senatorun işlətdiyi söz bizi, sanki, bıçaq kimi kəsdi. Axı heç kəs bu acı həqiqətin üzə çırpılmasını gözləmirdi. Bu məyusluğumuza baxmayaraq, görüş zəngin təəssüratla başa çatdı. Sonradan bir-birimizə dedik: "Bu da kosmopolit kimi təsəvvürə gətirdiyimiz avropalılar. Onlar üçün torpaq necə də müqəddəs anlam daşıyırmış. Biz isə..."

Bəli, həmin gün nümayəndə heyətindəki hər kəs torpaq itirən ölkənin təmsilçisi olduğundan dərin məyusluq hissi keçirdi. Əlbəttə, qocaman senatorun məqsədi bizdə heç də bu hissi yaşatmaq olmamışdı. O, sadəcə olaraq, Azərbaycan xalqının üzləşdiyi erməni işğalının gətirdiyi məhrumiyyətləri başa düşdüyünü, bəlkə də, dərdimizə şərik çıxdığını göstərmək istəmişdi. İstəyinə də artıqlaması ilə nail oldu.

Həmin an ağlımdan min bir şey keçdi. Qarabağ münaqişəsi, üzləşdiyimiz ədalətsizliklər, düşmənin bizimlə təkbətək döyüşərək, torpaqlarımıza sahiblənməyə cəsarətinin çatmaması, onlara bu işdə kömək göstərilməsi, xülasə, olub-bitən hər bir şey gözümün önündən lent yazısı kimi keçdi. Amma bunları təskinlik üçün xatırlamadım. Ona görə ki, təsəvvürə gətirdiklərimin heç biri yekun nəticəni dəyişmirdi. Qocaman senator çox acı həqiqəti dilə gətirmişdi. O an biz, doğrudan da, torpaq itirən xalq idik. Yalnız taleyin qismətinə etiraz etmək qalırdı. İçimdəki etiraz bu kimi suallara köklənmişdi: Biz nə üçün, hansı səbəbdən torpaq itirən xalq olduq? Nədə və harada səhv etdik?




Söhbətimizin ikinci hissəsinə keçid alaq. Yəqin, çoxunuz izləmisiniz. Bu günlərdə ölkəmizin sosial şəbəkə seqmentində bir video-görüntü yayıldı. 2000-ci il, ATƏT-in Qarabağ münaqişəsinin həlli üzrə keçmiş Minsk qrupunun ABŞ-dan olan həmsədri Keri Kavano Bakıdakı görüşdə ulu öndər Heydər Əliyevə yaxınlaşır və ona Ağdam məscidindən qopardığı kiçik bir daş parçasını təqdim edir. Bu, cənab Kavanonun Ulu öndərə doğum günü hədiyyəsi idi. Diplomat hədiyyəni dahi şəxsiyyətə verərkən bunları deyir: "Bu, Ağdam məscidinin kiçik bir parçasıdır... Kiçik bir hissə... Kiçik olsa da, bərpa etməyi arzuladığınız torpağın bir hissəsidir".

Video-görüntüdə Kavanonun bu sözündən sonra araya dərin sükutun çökdüyü nəzərlərdən yayınmır. Sükutu, belə demək mümkünsə, idarə edən yalnız amerikalı həmsədr deyil, eyni zamanda, Prezident Heydər Əliyevdir. Ulu öndərin doğum günü hədiyyəsindən kövrəldiyini görürük. Nəhayət, o böyük şəxsiyyət özündə qüvvə toplayaraq, Kavanoya "Çox sağ olun!"– deyir və onun hər iki üzündən öpür. Görüntünün ən dramatik anı isə Ulu öndərin Ağdam məscidindən olan həmin kiçik daş parçasını görüş boyu əlində saxlaması, yerə qoymamasıdır.

Bəli, böyük düha sahibi Heydər Əliyev Qarabağ davasına da Ağdam məscidinin kiçik bir hissəsini əlində bərk-bərk sıxıb sahibləndiyi kimi hakim kəsilmişdi. Bu davaya müqəddəslik libası biçmişdi. Elə bir beynəlxalq tribuna, elə bir mötəbər toplantı qalmamışdı ki, orada Qarabağ həqiqətlərini, üzləşdiyimiz işğalı, işğalın gətirdiyi acı məhrumiyyətləri və sarsıntıları anlatmasın. Dünya məhz Heydər Əliyevin sayəsində Azərbaycan xalqının haqq uğrunda mübarizə apardığına inanmışdı. Əslində, Kavanonun hədiyyəsi də məhz bu inamın parlaq təzahürü idi. O, Ulu öndərin şəxsində Azərbaycan xalqı üçün Vətən torpağı amilinin müqəddəs anlam daşıdığını dərindən hiss etmişdi.

Haşiyə çıxım ki, K.Kavano 1999–2001-ci illərdə ATƏT-in hazırda canını tapşırmış Minsk qrupunun həmsədri olub. 2001-ci ildə Prezident Heydər Əliyevlə ovaxtkı Ermənistan prezidenti Robert Koçaryan arasında Ki-Vestdə keçirilmiş görüşdə də iştirak etmiş diplomat 2021-ci ildə bildirmişdi ki, həmin dönəmdə tərəflər Qarabağ münaqişəsi üzrə razılaşmaya çox yaxın idilər, lakin son məqamda, bu, mümkün olmadı. Diplomat o zaman ictimai etimadı pozan faktorlardan biri kimi 1999-cu il oktyabrın 27-də Ermənistan parlamentində yaşanmış terroru göstərmişdi.

Yeri gəlmişkən, sözügedən terrorda Ermənistanın baş naziri Vazgen Sarkisyan və parlamentin spikeri Karen Demirçyan qətlə yetirilmişdilər ki, bu iki şəxs Azərbaycanla normallaşma xəttinin tərəfdarı olaraq işğalın səmərə verməyəcəyini dərk edirdilər. Bu dərketmə isə Heydər Əliyev şəxsiyyətinin diplomatik ustalığının nəticəsi idi. Nəzərə alaq ki, adlarını çəkdiyim şəxslər Ermənistanda həm böyük nüfuz sahibi idilər, həm də Qarabağ klanının təmsilçisi R.Koçaryanın prezident postunu tutmasına rəğmən, hakimiyyətdə, kifayət qədər, ciddi təsir rıçaqlarının mövcudluğu ilə fərqlənirdilər. Belə vəzifə və səlahiyyət sahiblərinin sıradan çıxmaları Qarabağ danışıqlarındakı müsbət dinamikanı aradan qaldırmalı idi və qaldırdı da.

K.Kavanonun ulu öndər Heydər Əliyevə anlamlı hədiyyəni təqdim edərkən, dilə gətirdiyi "Ümid edirəm, gün gələcək, o böyük məscid geri qaytarılacaq" fikri də çox təsirlidir. Fransalı qocaman senatorun söylədikləri qədər təsirli. Senator da görüşün sonunda Azərbaycanın ona məxsus olanı geri qaytaracağına əminliyini ifadə etmişdi. Bəli, Heydər Əliyevin böyük siyasət meydanındakı məğlubedilməzliyinin ən böyük ifadəsi olan Prezident İlham Əliyevin rəhbərliyi ilə bu gün Azərbaycan işğala son qoyub, torpaq bütövlüyünə nail olub. İstər Kavanonun anlamlı hədiyyəsi, istərsə də fransız senatorun dedikləri ortaya bir reallığı çıxarır – haqlı tərəf kimi qəbul etməsinə baxmayaraq, dünya bizə qarşı çıxır, erməni işğalını leqallaşdırmağa çalışırdı. Bunları düşünəndə ölkəmizin ərazi bütövlüyünün bərpasının, suverenliyinə qovuşmasının necə böyük hadisə olduğu bir daha sübuta yetir. Onu da dərk edək ki, haqqı bilə-bilə onu danan, ona cəbhə açan qüvvələr güclüdür. Onların gücü həm də son dərəcə tədbirli davranmalarındadır.

Deməli, Qarabağ Zəfərimiz həm gücümüzün, həm də Prezident, Ali Baş Komandan İlham Əliyevin həyata keçirdiyi dərin siyasi xəttin tədbirli davranma təmayülünün mükafatıdır. Qarabağ Zəfərimiz, həmçinin, İlahi ədalətin dünyanın böyük ədalətsizliyi qarşısındakı qələbəsi, yenilməzlik ruhumuzun təntənəsidir. Uca Tanrı xalqımızı torpaq itkisindən qorusun, məhrumiyyət acısı çəkməyək, kimsənin və ya kimsələrin bizə dərdli xalq kimi yanaşması aqibətindən uzaq olaq! Müqəddəs yurd yerlərimizin daşına, qayasına, havasına həsrət qalıb bu həsrətin niskilini içimizdə daşımayaq! Amin!

***Əflatun AMAŞOV,***
***baş redaktor***

# Eçmiədzin öz xalqını uçuruma sürükləyir

**(əvvəli 1-ci səhifədə)**



Aprelin 24-də qeyd edilən qondarma erməni soyqırımının ildönümü ilə bağlı bütün ermənilərin katolikosu II Qareginin müraciətində də bu soyuqluğun izlərini görmək mümkün idi. Müraciətdə erməni xalqının yeni ekzistensial (ekzistensializm – mövcudluq, varlıq deməkdir–S.H.) təhdidlərlə və ciddi təhlükəsizlik problemləri ilə üz-üzə olduğu bildirilirdi. Qeyd edilirdi ki, Ermənistanın sərhədyanı ərazilərində çətin vəziyyət yaranıb. Katolikos müraciətində "buna baxmayaraq, erməni xalqı öz qəhrəmanlıq keçmişi və mübarizə əzmi ilə güclüdür" – deməklə açıq-aşkar revanşist əməllərə haqq qazandırmışdı. O, Paşinyan iqtidarını nəzərdə tutaraq, erməni xalqını "milli mənafelərə zidd olan dağıdıcı təzahürləri aradan qaldırmağa, eləcə də mövcud çətin vəziyyətdən çıxış yolu tapmaq və qalibiyyətli gələcək yaratmaq üçün" birgə səylər göstərməyə çağırmışdı.

Kilsə sərhədyanı ərazilərdə əhalinin qızışdırılmasında da xüsusi rol oynayır. Aydın görünür ki, Tavuş vilayətindəki lokal, xaotik aksiyalar kilsənin iqamətgahından – Eçmiədzindən körüklənir. Aksiyaların əsas təşkilatçısı da kilsənin Tavuş vilayəti üzrə yeparxiyasının rəhbəri Baqrat Qalstanyandır. O, mitinqlərdə hakimiyyətin ünvanına kəskin tənqidlər səsləndirir, Nikol Paşinyanı "erməni xalqının bəlalarının baiskarı" adlandırır. Ancaq Paşinyanın tərəfdarları da tənqidlər qarşısında susub dayanmırlar. Onlar da öz növbələrində yeparxiya rəhbərini qarşıdurma yaratmaqda, ölkədə sabitliyi pozmaqda ittiham edirlər. Paşinyan özü isə bir neçə gün öncə parlamentdə çıxışı zamanı Qalstanyanı nəzərdə tutaraq deyib ki, hansısa keşiş "Voskepar"da (haylar Yuxarı Əskiparanı belə adlandırırlar–S.H.) şou düzənləyib.

Ermənistanda populyar olan "Baqramyan 26" teleqram kanalında yerləşdirilmiş "Kilsəni dağıtmaq və katolikos olmaq" sərlövhəli yazıda bildirilir ki, katolikos olmaq ambisiyalarına malik yepiskop Baqrat ölkədə qeyri-sabitlik toxumu səpmək cəhdlərini davam etdirir. Tez-tez görüşlər keçirməsi isə onun sakitləşmədiyini açıq şəkildə göstərir. Kilsə dairələrində narsist (özünə vurğun) kimi tanınan Baqrat yüksək rütbəli bir polis zabitinin ona "yerini göstərməsindən" və yolu bağlamaq kimi qanunsuz hərəkətlərə yol verməməsinə dair xəbərdarlıq alandan sonra özünü yığışdırmağa çalışır. Bildirilir ki, Tavuşun dörd kəndinin (?) sakinlərinin problemləri yepiskop üçün maraqlı deyil və o, "öz oyununu" oynayır: "Tavuş yeparxiyasının rəhbəri yaxın ətrafına bildirib ki, hərəkat uğursuzluğa düçar olsa belə, bu avantürada iştirak etməklə gələcək katolikos seçkilərində iştirak etmək üçün "bal" qazanacaq. Baqratın ambisiyaları çoxlarına məlumdur. O, 2018-ci ildə II Qareginlə bağlı aparılan nüfuzdan salma kampaniyasının "kölgə lideri" idi. Həmin kampaniya mövcud hakimiyyətin dəstəyinin olmaması və kilsə işlərinin kilsə daxilində həll edilməli olduğu mesajı səbəbindən uğursuz oldu. 2021-ci ildə isə Koçaryanın adamları Baqratı əmin etdilər ki, əgər o, qalib gəlməkdə onlara kömək etsə, katolikos olacaq. Ancaq bu da fayda vermədi. İndi isə o, xaos yaymaq üçün üçüncü cəhdini edir, amma bu dəfə Tavuşda. Kilsə ətrafında sosial şəbəkələrdə mövcud olan mənfi əhval-ruhiyyəni də nəzərə alaraq deməliyik ki, yepiskoplar arasında yaşanan bu qeyri-sağlam, dağıdıcı proses dayandırılmalı və Baqrat yeparxiyanın rəhbəri vəzifəsindən uzaqlaşdırılmalıdır. Əks-təqdirdə onun əməllərindən həm dövlətə, həm də kilsəyə ciddi ziyan dəyəcək".

Yazıda qeyd olunur ki, katolikos II Qaregin vaxt itirmədən yepiskopla görüşməli, ya onun erməni xalqını məhv etməyə yönəlmiş destruktiv kursunu dayandırmalı, ya da taxtını könüllü olaraq Baqrata təhvil verməlidir. Hərçənd ki, yepiskoplar ikinci varianta qarşıdırlar. Bildirilir ki, Baqratın erməni apostol kilsəsinin Kanadadakı yeparxiyasını necə xaraba qoyması hər kəsin yadındadır. Belə ki, o, ayrılan külli miqdarda ianələri mənimsəmiş, onun ABŞ-də yaşayan qardaşı isə həmin pullarla taksi xidməti yaratmışdı. Qeyd edilir ki, bu səbəbdən fırıldaqçı Baqratın heç bir şansı yoxdur. Onun postundan uzaqlaşdırılması, sadəcə, zaman məsələsidir.

Bu arada hayların "Şirak" adlandırdığı Şörəyel vilayətindəki yeparxiyanın rəhbəri Mikael Acapaxyan Qazax rayonunun Xeyrımlı kəndinin yaxınlığında yerləşən Kirants kəndinə gəlib. O, "Nyus.am"ın müxbirinə müsahibəsində deyib ki, etiraz dalğasının bütün Ermənistana yayılaraq geniş vüsət alması üçün ilkin şərtlər var. "İtaətsizlik aksiyaları hər yerdə baş verməli, dalğa böyüməlidir. Nəticənin istədiyimiz kimi olacağına ümid var. İnsanlar qərarlıdır" – deyən yepiskop faktiki olaraq, əhalini hakimiyyət nümayəndələri ilə açıq qarşıdurmaya çağırıb.

Buna paralel olaraq, tarixin arxivinə gömülmüş qondarma "dqr"in keçmiş "dövlət naziri" Ruben Vardanyanla bağlı da Ermənistanda müəyyən proseslər cərəyan edir. Bir neçə gün öncə "CNN" telekanalında aparıcı Kristian Amanpurun suallarını cavablandıran separatçının böyük oğlu Davidə bu dəfə "France 24" telekanalı, necə deyərlər, qucaq açıb. Müsahibə zamanı Vardanyanın, guya, aprelin 5-dən 25-dək Bakıdakı istintaq təcridxanasında aclıq aksiyası keçirdiyi, yalnız ailəsinin xahişindən sonra aksiyanı dayandırmağa həvəssiz razılaşdığı bildirilib. Veriliş boyu Azərbaycanın ünvanına böhtanlar səsləndirən D.Vardanyan Avropa ölkələrindən dəstək istəyib. Deyib ki, Avropanın səsi çox önəmlidir və digərləri bu məsələdə Fransaya qoşulmalıdır. O, eyni zamanda, separatçı rejimin məhkəməsini gözləyən digər "qlavarları" ilə bağlı məsələni də gündəmə gətirib.

Göründüyü kimi, Ermənistan daxilində kilsə, revanşistlər Bakı–İrəvan münasibətlərinin normallaşmasına əngəl törədir, xaricdən isə erməni lobbisi saxlanılmış şəxslərlə bağlı ölkəmizə beynəlxalq təzyiq formalaşdırmağa çalışır. **Bütün bunlara dair fikirlərini öyrəndiyimiz Dövlət İdarəçilik Akademiyasının müşaviri, politoloq Zaur Məmmədov bildirdi ki,** Ermənistan tərəfi son



zamanlar Azərbaycanla münasibətlərə dair pozitiv addımlar atmaqdadır. Onun sözlərinə görə, 4 kəndin könüllü şəkildə ölkəmizə təhvil verilməsinə razılaşma bunun göstəricisi hesab oluna bilər. Politoloq hesab edir ki, bütün bunlar özbaşına baş verməyib: "Ermənistan hakimiyyəti razılaşmaya getməyəcəyi təqdirdə onu nə gözlədiyini başa düşürdü. Paşinyan özü martın 18-də sərhəd bölgəsinə səfəri zamanı bildirmişdi ki, razılıq olmasa, hərbi əməliyyatlar başlaya bilər. Əgər İrəvan Bakı ilə sülh müqaviləsi imzalanmasını istəyirsə, təbii ki, qarşıya çıxan bütün çağırışları, o cümlədən delimitasiya məsələsini də həll etməlidir".

Z.Məmmədov qeyd etdi ki, görünür, etiraza çıxanlar Azərbaycana onun öz kəndlərinin qaytarıldığını nəzərə almırlar: "Buna öz narazılıqlarını bildirənlər başa düşməlidirlər ki, onlar Ermənistan dövlətçiliyinin gələcəyinə zərbə vururlar, onu sual altına alırlar. Yəni, bu gün Ermənistanın ərazisi 29,7 min kvadratkilometrdirsə, revanşistlərin "səyləri" nəticəsində sabah həmin ərazinin nə qədər olacağı müzakirə mövzusuna çevrilə bilər. Odur ki, erməni cəmiyyəti də, diaspor və kilsə də ölkələri üçün faydalı işlərlə məşğul olsalar, daha yaxşıdır. Onlar vaxtilə başladıqları separatçı hərəkatın nə ilə yekunlaşdığını yaddan çıxarmamalıdırlar. Həmin keşişlər vaxtilə Azərbaycan ərazisinə necə daxil olduqlarını, bizdən torpaq istədiklərini də unutmamalıdırlar. Onların bu gün müqəddəs saydıqları və dini ayinlər yerinə yetirdikləri kilsələr, əslində, alban kilsəsinə məxsusdur".

Politoloq bildirdi ki, bu iğtişaşlardan istifadə edənlərin məqsədləri məlumdur: "Onların siyasi məqsədi hakimiyyətə gəlməkdir. Amma erməni cəmiyyəti onlara "yox!" deyir. Onlar da başa düşürlər ki, Azərbaycanla danışıqlarda üzərlərinə götürdükləri bütün öhdəlikləri yerinə yetirməlidirlər. Bunun məsuliyyətindən qaçmaq üçün hələlik Paşinyana qarşı real addımlar atmırlar. Lakin qeyd etməliyik ki, hazırda erməni cəmiyyəti müxalifəti dəstəkləmir. Cəmiyyət seçkidə yeni Ermənistanın qurulmasına səs verir. Paşinyanın konstitusiyaya dəyişikliklər, dövlət rəmzləri ilə bağlı dedikləri, dörd kəndlə bağlı bəyanatı fonunda İrəvanda və böyük şəhərlərdə sakitliyin hökm sürməsi də bunu deməyə əsas verir".

Müsahibimiz onu da bildirdi ki, vaxtilə Qarabağda separatçılıqla məşğul olanlar indi öz əməllərinə görə cavab verməlidirlər. Onun sözlərinə görə, hazırda R.Vardanyanın pulu hesabına xarici piar şirkətləri, media qurumları onun təbliğatını aparır, "əzabkeş" obrazını yaradırlar. Bu, ölkəmizə qarşı aparılan informasiya savaşının tərkib hissəsidir. Görünür, Vardanyan düşünürdü ki, ona heç nə edə bilməyəcəklər. Hesab edirdi ki, var-dövləti, pulları onun imdadına çatacaq. Ancaq Azərbaycan göstərdi ki, o, heç kimdir. Bu günədək heç bir görüşdə Vardanyanla bağlı məsələnin qaldırılmaması, dünyanın ayrı-ayrı ölkələri tərəfindən bu məsələnin gündəmə gətirilməməsi göstərir ki, Azərbaycan bu məsələdə qanun çərçivəsində hərəkət edib və edəcəkdir. Eyni zamanda, getdikcə daha çox insan dərk edir ki, onunla bağlı məsələdə siyasi çalarlar yoxdur. Bu məsələdə Azərbaycanı hədəfə almağın, informasiya təbliğatı aparmağın faydası olmayacaq.

***Səxavət HƏMİD***
***XQ***

# Sülh hərb məramlı Ermənistanın qapısını döyür

(əvvəli 1-ci səhifədə)

### Türkiyə – Azərbaycan monolit birliyi

Artıq Cənubi Qafqaz suların durulduğu mərhələyə yetişib. Mövcud reallıq ondan ibarətdir ki, bu mərhələdə Ermənistan hakimiyyəti həm Azərbaycanla sülh müqaviləsini imzalamağa, bununla yanaşı, Türkiyə ilə münasibətləri normallaşdırmağa tələsməlidir. Hesab edirik ki, inqilabla hakimiyyətə gəlmiş Paşinyana ləngimeyin nəyə bərabər olduğunu xatırlatmağa ehtiyac yoxdur. Doğrudur, bölgədə yaranmış geosiyasi vəziyyətdə İrəvanı küncə sıxışdırmaq da siyasi məntiq baxımından bəyənilməyə bilər. İntəhası, onun son üç il yarım ərzində sərgilədiyi sülhdənqaçma oyunları, Bakıya fərqli davranış variantı buraxmadı. Amma, buna baxmayaraq Bakı və Ankara yenə də İrəvana imkan pəncərələri açmağa hazır olduqlarını bəyan etdilər. Prezident İlham Əliyev bildirib ki, həm Azərbaycan, həm də Türkiyə belə bir oturuşmuş mövqeyə sadiqdirlər ki, hər iki proses – Türkiyə–Ermənistan yaxınlaşması və Azərbaycan–Ermənistan münasibətlərinin normallaşması paralel şəkildə aparılmalıdır: "Bu, bizim də, Türkiyə Prezidentinin də mövqeyidir. İdeal vəziyyət o olardı ki, gözəl bir gündə iki müqavilə imzalanaydı. İndi nə gözləyirik? Biz Ermənistan hökumətinin sözdən əmələ keçməsini gözləyirik. Biz onları əməllərinə görə mühakimə edəcəyik. Onlar başa düşməlidirlər ki, Türkiyə – Azərbaycan ittifaqı qaya kimi möhkəmdir. Onlar bunu indi də, gələcəkdə də nəzərə almalıdırlar".

Bu, ortaya qoyulan, bəyan edilən aydın və konkret mövqedir. Bölgədə və kənarda hamıya məlumdur ki, bu və bir çox başqa məsələlərdə də Bakı ilə Ankara arasında koordinasiya mövcuddur. Axı, bizi yalnız müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi deyil, həm də uzaq tarixə söykənən olduqca mental dəyərlər birləşdirir. Bu tandemin regional təhlükəsizliyin və sabitliyin mühüm amili olduğunu bədxahlarımız belə qəbul edirlər.




### Sülhə nail olmaq fürsəti

İndi top Ermənistan tərəfə ötürülüb. Bakı sülh sazişinin doqquzuncu mətninə düzəlişlərini İrəvana göndərib. Bu barədə Ermənistan XİN rəsmi açıqlama yayıb. Sazişlə bağlı açıq qalan əsas sual, yuxarıda qeyd etdiyimiz kimi, Hayastan konstitusiyasından qonşularına qarşı ərazi iddiasının və gerbindən Ağrı dağının əksinin aradan qaldırılmasıdır. Yəni, əgər Paşinyan sülh müqaviləsinin bu il imzalanmasını istəyirsə, onda mütləq referenduma getməlidir.

Prezident İlham Əliyev iki gün əvvəl Berlin şəhərində keçirilən "15-ci Petersberq İqlim Dialoqu" tədbirindən sonra mətbuata verdiyi açıqlamasında Kansler Olaf Şoltsa onun dəvəti ilə Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin bu yaxınlarda Almaniyada görüşdüyünü qeyd etdi və göstərdiyi dəstəyə görə xarici işlər naziri Annalena Berboka təşəkkürünü çatdırdı.

Çıxışında, həmçinin regional təhlükəsizlik məsələsinə toxunan dövlətimizin başçısı Bakı ilə İrəvan arasında gedən sülh danışıqlarını yüksək qiymətləndirdiyini diqqətə çatdırdı: "Azərbaycan 2020-ci ildə öz suveren ərazisinin böyük hissəsini işğaldan azad edib. Keçən ilin sentyabr ayında isə suverenliyini tam bərpa etdi. Bu gün Azərbaycanın ərazi bütövlüyü tam bərpa edilib. Təbii ki, bu, tarixi nailiyyətdir və onu göstərir ki, Azərbaycan xalqı və dövləti heç vaxt işğalla barışmaq fikrində deyildi".

Cənab Prezident hazırda sülhə nail olmaq üçün çox yaxşı fürsətlərin olduğunu xüsusi olaraq qeyd edib: "Bütün bu işdə bizə kömək etmək istəyən ölkələrə əməkdaşlıq etməyə hazırıq. Ümid edirik ki, çox vaxt keçmədən bu istiqamətdə də müsbət addımlar atılacaq".

### "İrəvan tələsməlidir"

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Ermənistan hakimiyyətinə növbəti mesajını göndərib. O, İrəvanı Ankara ilə münasibətləri normallaşdırılmaqdan ötrü yol xəritəsi hazırlamaq üçün mövcud reallığa diqqət yetirməyə çağırıb: "İndi bölgədə yeni nizam qurulur. Əsassız xəyallardan əl çəkməyin vaxtıdır. İndiki zamanın reallıqlarına əsaslanaraq hərəkət etmək daha yaxşıdır. Ermənistan baş naziri Nikol Paşinyan da bunu başa düşür. İndi reallıq əsasında yeni yol xəritələri yaratmağın məqamı yetişib. Ümid edirəm ki, Ermənistan iqtidarı diasporun onu sürüklədiyi zülmətdən qurtular və parlaq gələcək üçün yeni başlanğıclara rəvac verəcək yolu seçər".

"Anadolu" agentliyinin məlumatına görə, Türkiyə Prezidenti bu sözləri İraq səfərindən qayıdan zaman onu müşayiət edən jurnalistlərə deyib. Ərdoğanın İrəvana növbəti mesajı isə belə olub: "Fürsət pəncərəsi həmişə açıq olmayacaq və bu məqamdan səmərəli istifadə etmək lazımdır".

Bununla Türkiyə lideri rəsmi İrəvana belə bir ismarıc göndərir ki, Ermənistanla ölkəsi arasında münasibətlərin normallaşması və Azərbaycanla sülh müqaviləsinin imzalanması ilə bağlı tələsmək lazımdır. Qardaş ölkənin rəhbərinin dediyi "imkanlar pəncərəsi", çox güman ki, üçtərəfli əməkdaşlığın perspektivləri ilə bağlıdır. Rəcəb Tayyib Ərdoğanın açıqlaması ilə İlham Əliyevin Azərbaycan və Ermənistanın sülh müqaviləsini imzalamağa çox yaxın olduqları barədə bəyanatı üst-üstə düşdü. Bunun heç də təsadüfi olmadığı normal qəbul edilməlidir. Çünki, qardaş ölkələrin liderləri eyni cür düşünürlər. Hər iki bəyanatın Rusiya Prezidenti Vladimir Putinin Azərbaycan Prezidenti ilə Moskvada görüşündən sonra verildiyi də diqqətdən yayınmamalıdır.

Əslində, Türkiyə Prezidenti bu bəyanatı ilə, faktiki olaraq, Ermənistan hökumətinin həm bölgədə, həm də xaricdə yürütməyə çalışdığı siyasi xəttini dəstəkləmiş oldu. Yəni, o, iki ölkə arasında mövcud olmayan ikitərəfli münasibətləri tamamilə sıfırlamağa hazır olduğunu nümayiş etdirdi.

Bütün bu hadisələrin İrəvanın açıq şəkildə Kremlə qarşı çıxdığı dönəmdə baş verməsini təsadüfi saymaq olmaz. İkitərəfli münasibətlərin daha da gərginləşməyə doğru getməsi gec-tez Rusiya hərbi bazalarının Ermənistan ərazisindən çıxarılması ilə nəticələnə bilər. Aydın məsələdir ki, İrəvanın bu yöndə siyasi cəhdləri rəsmi Ankaranın da maraqlarına cavab verir. Bu prizmadan yanaşanda Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Ermənistana diplomatik ehtiyatlılıqla siyasi dəstək verməsi, rasional etibarilə, tamamilə başadüşüləndir.

### "Evimizi sahmana salmalıyıq"

Nikol Paşinyan 2018-ci ildə hakimiyyətə gəlməsinin şərəfinə imzaladığı sərəncamla "Vətəndaş Günü" adında xüsusi və əlamətdar gün təsis edib. Dünən həmin əlamətdar günlə bağlı xalqa müraciət edən Ermənistan baş naziri ölkəsinin üzləşdiyi dönməz reallıqlardan danışıb: "Bu, sizin hər birinizin öz evinizdə təhlükəsiz, ləyaqətlə və xoşbəxt yaşamaq arzusunun yaratdığı bir gündür. Niyə biz inqilabdan sonra belə ağır sınaqlarla üzləşirik? Çünki bu evin qapılarını, pəncərələrini, damını, hasarını səliqəyə salmadan heç kim öz evində təhlükəsiz və xoşbəxt yaşaya bilməz. 2018-ci il inqilabı zamanı biz bilirdik ki, evimiz Ermənistan Respublikasının qapılarını, pəncərələrini, damını və hasarını qaydaya salmaq lazımdır. Əks-təqdirdə inqilaba ehtiyac da olmayacaqdı".

Paşinyanın "Vətəndaş Günü"ndə sərgilədiyi siyasi-filoloji ritorikasının məzmununa və mətnin altına diqqət yetirəndə müəyyən qədər sağlam məntiq və bundan qaynaqlanan ümid şöləsini görmək mümkündür. Təki bu ümid onu arzuladığı real sonluğa aparıb çıxarsın.

Elimizin adətidir. Bulaşmış mənzilinin həm içində, həm də çölündə səliqə-sahman yaratmalı olan ev yiyəsi, adətən, köməyə yaxın qonşularını çağırır. Onlar birlikdə, əl-ələ verib bu işin öhdəsindən gəlirlər. Amma bu yardımı qazanmaqdan ötrü gərək qonşuların-la normal, səmimi münasibətin olsun. Bakı və Ankara evində sanitar təmizliyi yaratmağa ciddi ehtiyac duyan İrəvana özlərinin kömək əllərini uzadıblar. Qalır bu tarixi jesti dəyərləndirmək və ona xeyirxahlıqla uzanan əli sıxmaq.

*İmran BƏDİRXANLI*
*XQ*

# Ermənilərin Zəngəzur cinayətləri

(əvvəli 1-ci səhifədə)

Ermənilərin indi Sünik dediyi Qərbi Zəngəzurun Ermənistana verilməsi Rusiyanın planı olmuşdur. 1920-ci ilin noyabrına qədər isə bu ərazi Azərbaycana aid idi. Azərbaycan türklərinin burada ən min ildir yaşadığı danılmaz həqiqətdir. Ermənistan sovetləşmədən öncə Bakıda 1920-ci il noyabrın 4-də Azərbaycan K(b)P MK Siyasi Bürosunun və RK(b)P Qafqaz bürosunun üzvlərinin keçirilən birgə iclasında (protokol №4, 2-ci bənd) bu məsələ müzakirə edilmişdi. Həmin iclasda belə Azərbaycana məxsus olan bir ərazini onun razılığı olmadan Rusiyanın müqavilə ilə Ermənistana verməsi düzgün hesab edilməmişdi. Bu zaman Ermənistan hələ sovetləşdirilməmişdi. 1918-ci il 4 iyun Batum anlaşması ilə Ermənistanın tanınan 9 min kvadratkilometrlik ərazisinə Zəngəzur torpaqlarının da daxil edilməsi bu iclasdan öncə heç vaxt gündəmdə olmamışdı. Ermənilərin həmin ilin yayında İstanbula göndərdikləri heyətə Ermənistanın bəzi ərazilər hesabına genişləndirilməsi tələbləri ilə çıxış etmələri tapşırılmışdı. Onların Osmanlı dövlət rəhbərləri ilə görüşlərində Qərbi Zəngəzurun Ermənistana verilməsi tələbləri birmənalı şəkildə rədd edilmişdi.

Birinci Ermənistan Respublikasının baş naziri və xarici işlər naziri Aleksandr Hatisyan "Ermənistan Respublikasının doğulması və inkişafı" adlı əsərində bununla bağlı indiyədək məlum olmayan bəzi mühüm məsələləri dilə gətirib. O yazırdı:

"Birinci iclasda Vehib Paşa şəxsən məndə olan tarixi xəritədə Ermənistanın sərhədlərini çəkdi. Bu xəritəni həm Trabzona, həm də daha sonra İstanbula, Gümrü və Avropaya özümüzlə aparırdıq. Vehib Paşa xəritəyə işarə edərək və Türkiyənin səylərini izah edərək dedi:

"Görürsünüzmü, tale Türkiyəni Qərbdən Şərqə sürükləyir. Biz Balkanları tərk etdik, Afrikanı da tərk edəcəyik, amma Şərqdə məskunlaşmaq lazımdır. Qanımız, dinimiz, dilimiz oradadır. Bunun da təbii cazibəsi var. Qardaşlarımız Bakıdadır, Dağıstanda, Türküstandadır, siz isə bizim yolumuzu kəsirsiniz...Qazax və Gəncəyə gedən yolumuzu kəsmək istəyirsiniz, bizim əsas arqumentimiz buradadır, biri Qars-Ahırkələkdir, o biri də Şərur-Naxçıvan-Zəngəzurla gedir." Ermənilərə açıq şəkildə bildirilmişdi ki, Türkiyənin Şərqə açılan yoluna çıxması ağır nəticələr verə bilər. Həmin dövrdə Qərbi Zəngəzura erməni silahlıları ayaq açmışdılar və Andranikin və Njdenin quldur dəstələri bu ərazini Azərbaycan türklərindən təmizləmək "tədbirlərinə" start vermişdilər. Qaregin Njdeyə Birinci Dünya müharibəsinin sonunda Daşnaksutyun partiyası tərəfindən müasir Ermənistanın ərazisində və sonra isə digər ərazilərdə yaşayan azərbaycanlılara qarşı gizli etnik təmizləmə həyata keçirmək həvalə olunmuşdu. O, bu sahədə xüsusi "nailiyyətlərini" qeydə almışdır. Zəngəzura gələndən sonra Njdenin



başçılığı altında həqiqətən Azərbaycan əhalisinə qarşı əsil soyqırımı həyata keçirilirdi. Erməni silahlılarının buraya gəlişindən sonra yüz minlərlə insan Zəngəzurdan qaçmağa məcbur edilərək yollarda həlak olmuşdu. Etiraf etdiyi yazışma və sənədlərdə Njde 32 tatar (Azərbaycan) kəndlərini məhv etməsi ilə öyünür.

Hələ 1918-ci il avqustun əvvəllərində yenə Andranik meydanda idi. O, öz başkəsənləri ilə qəflətən Zəngəzur və Qarabağ torpaqlarında görünmüş və dinc azərbaycanlı əhaliyə qanlı divan tutmağa başlamışdı. Bu münasibətlə Azərbaycan Demokratik Respublikası hökuməti özünün 1918-ci il 15 avqust tarixli 461 №-li rəsmi məktubu ilə Ermənistan hökumətinə müraciət edərək bu rüsvayçılıqlara son qoymağı və Andranikin quldur dəstəsini Azərbaycan ərazisindən geri çəkməyi tələb etmişdi. Ermənistan hökuməti həmin məktuba cavabında riyakarlıqla bildirmişdi ki,"... general Andranik, həm də onun dəstəsi artıq çoxdan erməni qoşunlarının tərkibindən və siyahısından çıxarılmışdır, bundan sonra onlar Ermənistan rəhbərliyinə, onun vəzifəli şəxslərinə tabe olmaqdan imtina etmişlər".

O zamankı erməni hökuməti Njdenin qətllərinə də guya onun Ermənistan Respublikasına tabe olmaması kimi bəhanələr gətirir və mövcud Ermənistan Respublikası ilə heç bir əlaqəsinin olmadığını bildirirdi. Njdenin dəstələri 1919-1920-ci illərdə Azərbaycan ordusu ilə döyüşlərdə iştrak edirdi. Ən gərgin döyüşlər 1920-ci ilin mart ayında qedir. Azərbaycan Sovet Rusiyası tərəfindən işğal edildikdən sonra Njde Sovet ordusunun hərbi birləşmələri ilə də döyüşlər aparırdı.

1920-ci ildə Njde Zəngəzurda "Dağlıq Erməni Respublikası"nın yaradılmasını elan etmiş, Qarabağ və Naxçıvanda yaşayan azərbaycanlı əhalinin də kütləvi qətllərini təşkil etmişdir. Zəngəzurun müsəlman əhalisinə qarşı erməni vəhşilikləri əslində 1919-cu ilin dekabrından etibarən yenidən şiddətlənmişdi. Müsəlmanlar yaşayan Oxçu, Şabadan, Atqız, Pordavdan kəndlərinə qarşı geniş hərbi əməliyyatlar başlanmışdı. Özü də bu vaxt əməliyyatlarda artıq erməni Ararat Respublikasının rəsmi nizami ordusu da iştirak edirdi. Lakin Ararat Respublikası hökuməti riyakarcasına bu işlərlə heç bir əlaqəsinin olmadığını, bu zorakılıqları guya ancaq Andranikin, Njdenin dəstəsi və başqa erməni quldur dəstələri tərəfindən törədildiyini bildirirdi. ADR hökümətinin yaratdığı Fövqəladə Təhqiqat Komissiyasının məruzəsində Zəngəzur qəzasında 115 müsəlman kəndinin ermənilər tərəfindən dağıdıldığı göstərilir. Həmin kəndlərdə 3257 kişi, 2776 qadın və 2196 uşaq öldürülmüş, 1060 kişi, 794 qadın və 485 uşaq yaralanmışdı. Şahidlərin ifadələri əsasında tərtib olunmuş məruzədə ermənilərin törətdikləri cinayətlər haqqında ətraflı məlumat verilmişdir. Vagudi kəndində erməni vandalları 400-dən yuxarı azərbaycanlı əhalinin sığınacaq tapdığı məscidə əvvəlcə əl qumbaraları atmış, sonra isə ona od vuraraq, adamlarla birlikdə yandırmışdılar.

Qaniçən quldurlar həmin kənddən qaçıb, canını qurtarmaq istəyən uşaq və qadınların başlarını qılınc və xəncərlərlə üzmüş, İmişli kəndini qətl-qarət edərkən südəmər uşaqları süngülərə taxaraq göyə qaldırmış, öldürülənlərin meyitlərini tikə-tikə doğramışlar. Meyitlər o qədər eybəcərləşdirilmişdi ki, onları tanımaq mümkün olmurdu. Quldur dəstələri bütün müdafiəsiz müsəlman kəndlərini talan etdikdən sonra hər yeri və hər şeyi oda qalayırdılar. Kəndlərdən hansısa biri müdafiə olunmağa cəhd göstərdikdə mühasirəyə alınır və yerlə-yeksan edilirdi.

Bu hadisələrin iştirakçısı olan erməni bolşevik A.Lalayan yazmışdı: "Türk qadınları və uşaqlarının, qocalar və yeniyetmələrin məhv edilməsində daşnak dəstələri... maksimum "şücaət" göstərdilər. Daşnak dəstələrinin ələ keçirdiyi kəndlər canlı insanlardan "azad olunur" və eybəcərləşdirilmiş meyitlərlə dolu xarabazara çevrilirdi". Erməni vəhşiliyinin miqyasını yalnız bu faktlar deyildir Şahidlərin dediyinə görə, bütün bu cinayətlər bilavasitə Andranikin və Njdenin başçılığı ilə həyata keçirilmişdir.

Zəngəzuru Azərbaycanın tərkibində sayan və bu ərazidə türklərin qarşısına çıxmayacağı öhdəliyini götürən Ermənistan bəhanə gətirirdi ki, guya bu silahlı qüvvələr Ermənistan hökumətinə tabe deyillər. Belə çıxırdı ki, Njde, Andranik və digər quldurbaşıların Ermənistanın milli qoşunları və dövlət orqanları ilə heç bir əlaqəsi yoxmuş və Ermənistan Respublikasının hökuməti onların məsuliyyətsiz hərəkətlərinə guya cavabdeh deyildir. Cinayətlər məhz bu qaniçənlərin adına yazılmalıdır. Elə isə nədən bu quldurlar Ermənistanda qəhrəman hesab olunur? Türk-müsəlman öldürdüklərinə görəmi? Kəndlərimizi xarabazara çevirdiklərinə görəmi? Qərbi Zəngəzurdan bütün azərbaycanlı əhalini qovub çıxardıqlarına görəmi?

**(ardı var)**

*Qafar ÇAXMAQLI,*
*XQ-nin Türkiyə müxbiri*



Sozün zamanı –zamanın sözü

# Prezident İlham Əliyevin gələcək quruculuğu düşüncələri

(əvvəli 1-ci səhifədə)

Prezident İlham Əliyevin nitqlərinin hər biri ağıllı, qadir insan ixtiyarında ikən sözün ən güclü silaha dönə bilməsinin əyani sübutudur.

Onillərdir ki, Prezident İlham Əliyev Azərbaycan insanının gözləri önündədir. Əvvəlcə Milli Məclisin üzvü, Avropa Şurasında Azərbaycanı təmsil edən və o kürsülərdən sözünü deyən deputat kimi, Milli Olimpiya Komitəsinin rəhbəri kimi, daha sonra ölkənin Baş naziri qismində və son 21 ildə də dövlətimizin rəhbəri olaraq.

30 ilə yaxınlaşan bu müddət ərzində İlham Əliyevin nitqləri, ayrı-ayrı çıxışları, müsahibələrinin (hələ heç onların da hamısı yox. Bizim görüb-eşitmədiyimiz və elə görüb-eşitdiklərimizcə, bəzənsə onlardan da həlledici o qədər təkbətək görüşlər, qapalı müzakirələr, xarici ölkələrin liderləri ilə telefon danışıqları olur ki, hamısı sənədləşdirilsə, məzmunları qeydə alınsa da, sözbəsöz kağıza köçmür, geniş kütləyə örtülü qalır) yalnız prezidentlik dövrünün mətnlərini əks etdirən "İnkişaf – məqsədimizdir" adlı çoxcildliyindəki kitabların sayı artıq 130-u aşır.

Prezidentin hər nitqi yolumuzun mənzərəsidir. Yolumuzun dünəninə, bugününə panoramlı nəzərsalma, amma həm də Azərbaycanın, onun liderinin dünyaya göndərdiyi mesajlardır.

Bu dəfə – aprel ayının 23-də Prezident İlham Əliyev 30 ölkədən 64 iştirakçının qarşısında idi. ADA Universitetinin təşkil etdiyi Altıncı Siyasət Forumu altı ay sonra – noyabrda Bakıya dünyanın dörd bucağından on minlərlə qonağı toplayaraq planetimizin iqlim dəyişiklikləri ilə bağlı gələcəyini müzakirə edəcək COP29-a – bu çərçivədə regional təhlükəsizlik, enerji keçidi və yaşıl artımla bağlı Azərbaycanın baxışının təqdim olunmasına, Qarabağda yaşıl və ekoloji cəhətdən təmiz zonaların yaradılması, Azərbaycanda külək və Günəş enerjisi layihələri, Avropa İttifaqına qədər uzanan yaşıl enerji dəhlizlərinin sabahına həsr edilmişdi.

Rusiya paytaxtındakı mühüm görüşlər və tədbirdən sonra Bakıya gecə yarı qayıtmış Prezident İlham Əliyev artıq on saat sonra forumun iştirakçıları qarşısında idi və dövlət başçısının bir-birindən aktual sual-cavablarla (həm də bir sıra hallarda forumun mövzu dairəsindən xeyli kənara çıxan suallar və onlara verilən sanballı şərhlərlə) ötən, 4 saata yaxın sürən bu toplantısı özünəməxsus rekord sayıla bilər. Prezident Əliyev elə görüşün əvvəlindəcə təyyarədən saatlar öncə endiyini söyləmişdi, forumda ölkə rəhbərinə suallar ünvanlayanlar 3 qitənin müxtəlif ölkələrdən olan təcrübəli insanları idilər və hiss edirdim ki, forumun saatları uzandıqca, yəqin ki, yol yorğunluğu amilini nəzərə alaraq konfransın sonlarına doğru nəzakətlə suallarını daha yığcam qurmağa çalışırdılar. Lakin Prezident, onlardan fərqli olaraq, hər sualı tam dolğun cavablandırmayınca dayanmırdı (bu, azmış kimi, arada aparıcı ehtiyatla sual-cavabı yekunlaşdırmaq işarəsi vuranda qayıtdı ki, "iştirakçılar yorulmayıbsa, davam edə bilərik") və həmin forumdakı son cümləsi də bu oldu ki, belə mühüm məsələlərlə bağlı suallar ətrafında hələ daha 4 saat da danışmaq mümkündür.

Mahir qrossmeysterlərin eyni vaxtda bir çox rəqiblə yarışaraq soyuq ağlı, iti məntiqi hifz etməklə yorulmadan axıradək mübarizə aparmasına bənzəyən belə ali siyasət peşəkarlığına unudulmaz Heydər Əliyev yüksək səviyyədə sahib idi.

...ADA gənc yaşına baxmayaraq, artıq ölkənin təhsil və elm həyatında əhəmiyyətli yer tutur, mütəmadi olaraq elə bu qəbil beynəlxalq konfrans və forumların keçirilməsində zəngin təcrübə yığıb. Lakin şübhəsiz ki, ADA-nın bir ali təhsil ocağı olaraq səciyyələndirildiyi ilk amil yaxşı dərsdir.

Prezident İlham Əliyevin aprelin 23-də ADA-da gerçəkləşən "COP29 və Azərbaycan üçün Yaşıl Baxış" forumundakı bütöv bir əsər kimi qiymətləndirilməyə layiq 4 saata yaxın zamana sığan nitqinin də başlıca özəlliyi onun bənzərsiz bir "master klass"– ustad dərsi məzmunu daşıması, yaxında və uzaqdakı ölkələrdə çoxlarının dərs almasına layiq həssas məqamları əhatə etməsi idi.

Elə məclisi başlayarkən Prezident İlham Əliyevin qısa giriş sözündə dilə gətirdiklərində artıq böyük siyasət vardı, foruma qatılanlara söylənsə də, dünyaya göndərilən mesaj idi: "Mən burada çoxlu tanış simalar görürəm və bilirəm ki, forum iştirakçıları artıq Şuşa, Ağdam və Zəngilanda olublar, bu dəfə isə Laçına səfər edəcəklər. Ancaq yeni iştirakçılar da var və əminəm ki, siz səfərinizdən zövq alacaqsınız. Laçın Azərbaycanın ən füsunkar bölgələrindəndir və yaşıl gələcək haqqında danışırıqsa, görəcəksiniz ki, Laçın tamamilə yaşıldır".

10-15 il öncə bu sözləri belə arxayınlıqla dilə gətirə bilmək xoşbəxtliyinə mən və yəqin ki, Azərbaycanın yüz minlərlə vətənpərvəri də həyatının hələ yaşamadığı neçə ilini qurban verməyə hazır idi.

Ancaq o gün Prezidentin, gündəlik məişət gerçəkliyi kimi, bu yığınaqdakılara dediyi həmin sözlər həm də bir daha bütün dünyaya edilən müraciət idi ki, biz qalibik, yenə öz azad yurdlarımızdayıq, orada ev sahibi olaraq Yer üzünün neçə ölkəsindən də qonaqları qəbul edirik və dünyanın harasındasa bu reallıq kimlərisə yandırırsa da, qoy bu gün burada deyilənləri bir daha eşidib daha artıq yasa batsınlar.

Prezidentin nitqini bu nöqtədən başlamasını forum iştirakçılarına bir fikir ötürməsi də saymaq olardı – yəni əsas mövzumuzla yanaşı bu gün çox mətləblərdən danışa bilərik, ancaq unudulmasın ki, Azərbaycandan ötrü ən ümdə məsələ bölgədəki sabitlikdir, Qarabağdır, dayanıqlı sülhdür.

Prezident İlham Əliyev hər yeni suala cavabı ilə yalnız forum iştirakçılarıyla yox, dünyayla da "Biz kimik?", "Azərbaycan beynəlxalq miqyasda hansı üstün dəyərin daşıyıcısıdır?", "Azərbaycanın önəmi getdikcə necə artacaq?" düşüncələrini bölüşürdü.

Gələcəyin mənzərəsini və həmin müstəvidə Azərbaycanın aparıcı yerini indidən görən Prezident İlham Əliyev sabahın həqiqətindən dünyanı bəri başdan bilgiləndirirdi ki,



**Rafael HÜSEYNOV,**
**Milli Məclisin deputatı, akademik**

Qazaxıstan, Özbəkistan bərpaolunan enerji resursları ilə bağlı layihələri gerçəkləşdirdikcə qısa müddətdə elektrik enerjisi profisiti olan ölkələr sırasına daxil olacaq. Amma ixrac marşrutu isə Avropaya yenə də Azərbaycandan gedəcək. Bu gün enerji layihələri məsələsinə canfəşanlıqla siyasəti pərçim etməyə tətiklənmiş uzaqgörməzlərə elə forumdan siqnal yollayırdı ki, ayılın, bu işlər geosiyasət və regional əməkdaşlıqla sıx bağlıdır; görmək istəməyənlərə nümunəsini nişan verirdi ki, baxın, bu gün Cənub Qaz Dəhlizi ilə əhatə olunan ölkələrin bəziləri arasında münasibətlər sən deyən könülaçan olmasa da, məhz müştərək maraqlar bu layihədə onları birləşdirir. Azərbaycanın enerji əməkdaşlığında dünyaya bəxş etdiyi töhfəni Prezident İlham Əliyev özünəxas təmkinli tərzdə bu forum içində söyləsə də, həmin gerçəyin dünyada eşidiləcəyi inamı ilə deyirdi ki, enerji sülhə doğru aparandır, tarixdən bilirik ki, neft müharibəyə, qan tökülməsinə bais olub, biz isə paradiqmanı dəyişirik və hələ ki, buna müvəffəq olmuşuq. Elan edirdi ki, biz qazıntı yanacağından istifadəni dayandırmayacağıq, lakin bununla bərabər diqqətimizi yaşıl gündəliyə də kökləyəcəyik.

...Prezident sadə həqiqətlərdən bəhs edirdi, amma o sadədən-sadə həqiqətləri qabartmaqla dünyanın diqqətini bir daha Azərbaycanla əməkdaşlıqdan yan keçilə bilinməməsinin aksiom, İlahidən gələn cazibə olmasına cəmləyirdi, Şimal–Cənub Nəqliyyat Dəhlizindən danışarkən Azərbaycanın bu qovşaqda yerləşməsini "coğrafi lütf" adlandırırdı. Əlbəttə ki, haqlıdır! Necə yanaşırsan yanaş, coğrafiya ki dəyişən deyil, tutalım, sabah Türkmənistan öz təbii qazının Avropaya çatdırılması üçün Transxəzər qaz kəmərinin çəkilməsi fikrinə düşsə, məhz elə coğrafi bəxtimizin avandlığı ucbatından Azərbaycana müraciət etməli olacaq. Deməli, gün dəyişdikcə vaxt yenə Azərbaycanın xeyrinə işləyəcək, onun geosiyasi əhəmiyyətini artıracaq və heç şübhəsiz, bu da ölkəni daha zəngin edəcək.

Forumda söz gəlib Azərbaycanın dəfələrlə təsdiqini tapmış "strateji səbr"inin də üstünə çıxdı və bu əsnada Prezident Əliyev Ermənistana da, ona havadarlıq edənlərə də daha bir ismarışını göndərdi: "Onları bizə qarşı yönəltməyə çalışanlar böyük səhv edirlər. Onlar sülh razılaşmasını istəmirlərsə, biz bu müqaviləsiz də yaşaya bilərik, amma bu razılaşma olmadan bizimlə yanaşı yaşamaq onlar üçün rahat olacaqmı? Mən belə düşünmürəm. Hesab edirəm ki, beynəlxalq hüquqa əsaslanan şərtləri razılaşdırmaq bizim marağımızdan daha çox onların marağındadır. Onlar şüurla davranmalı və əlçatmaz şeyləri tələb etməməlidirlər. Həm də onlar və onlara dəstək olanların bilməsi vacibdir ki, 30 illik işğala və İkinci Qarabağ müharibəsinin nəticəsinə göz yumulmamalıdır. Heç kim özünü heç bir şey olmamış kimi aparmamalıdır".

Aydın məsələdir – saatlarca sürən, bolluca suallı forumda mövzu səmti tez-tez dəyişməyə məhkumdu. Fəqət fikir mübadilələrinin istiqaməti nə yeyinlikdə dəyişsə də, istər-istəməz, mərkəzdə dayanan yenə Ermənistan–Azərbaycan münasibətləri, mümkün sülh bağlaşması idi. Prezident Əliyevinsə bu mövzuya hər qayıdışında Ermənistana da, dünya erməniçiliyinə də, Ermənistanı şitəndirmək sevdasına düşənlərə də nüvəsində tələb döyünən tövsiyələri vardı. Prezident deyirdi ki, Ermənistandan yetişən xəbərləri eşidirik, onların başına ağıl gəlməsi soraqlarını nəzərə alırıq, bəli, "həqiqi Ermənistanla mifoloji Ermənistan arasında fərq olmalıdır", amma bizimlə sülhə gəlmək istəyirsə, bu ölkə gərək hökmən konstitusiyasında dəyişikliklər etmək haqda qərar verə. Çünki əsas qanununda "Dağlıq Qarabağ"ı Ermənistanın bir hissəsi kimi qeyd edən ölkə Azərbaycanla sülh müqaviləsini hansı üzlə imzalamağa gələ bilər?! Həm də iş təkcə Azərbaycanla bitmir. Ermənistan əsatirdən əsilliyə qayıtmaq, mif sərxoşluğundan ayılmaq diləyirsə, gərək özgə dövlətin – Türkiyənin ərazisində olan Ağrıdağı da öz milli simvolu hesab etməkdən vaz keçə. Prezident çıxış yolunu da göstərirdi: "Onların Ermənistanda çoxlu dağları var, başqasını bəyənib seçə bilərlər".

Bunu da Prezident Əliyev bir daha həm Ermənistana, həm də dünyaya eşitdirirdi ki, Türkiyə və Azərbaycan qlobal miqyasda bir-birinə ən yaxın iki ölkədir, Türkiyə–Azərbaycan birliyi regional təhlükəsizliyin və sabitliyin mühüm amilidir, mövqeyimiz– Türkiyə–Ermənistan yaxınlaşması və Ermənistan–Azərbaycan normallaşmasıdır, ideal vəziyyət bu olar ki, bir gündə iki saziş imzalana – Azərbaycanla Ermənistan arasında sülh və Ermənistanla Türkiyə arasında bütün kommunikasiyaların açılması ilə normallaşma sazişləri. Bununla da onilliklər boyu davam edən nifrətə son qoyular, səhifəni çevirərək normal inkişafa başlamaq imkanı yaranar.

...O gün Azərbaycanın dövlət başçısı dünyaya bu barədə də pərdəsiz-filansız, açıq mətnlə səsləndi ki, biz sadədillikdən uzağıq, Avropa İttifaqına üzv olmağı əsla hədəf götürmürük və niyəsini də ağa ağ, qaraya qara deyərək açıqlayırdı – çünki onların tələb etdikləri hər şeyi etsək belə, bu, ağlabatan deyil, ortada Türkiyənun nümunəsi var.

Daim demokratik dəyərlərdən dəm vuran Qərbə onların bu xislətini də xatırladırdı – qəbul etməmələrinin ilk səbəbi Türkiyənin də, bizim də müsəlman olmağımızdır.

Böyük əksəriyyətinin avropalı təmsilçilər olduğu toplantıda Prezident o tərəfin naqisliklərini ifşa etməkçün danılmaz dəlillər gətirirdi – Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Cozef Borelin ikrahla söylənmiş "Avropa İttifaqı bağdır, qalanı cəngəllikdir" fikrini iqtibas edirdi, Avropa İttifaqının diplomatiyasına cavabdeh olan şəxsin belə düşük və təhqiramiz münasibətini görüncə, Avropa Parlamentinin islamofobiya və korrupsiyanın mərkəzlərindən biri olduğunu yəqin edincə "bura bizlik deyil" düşüncəsini gizlətməyərək ən dürüst seçimin üzərində dayanırdı ki, "niyə bihudə yerə Avropa İttifaqına üzvlük məsələsində israr etməliyik? Gəlin məqbul olan qarşılıqlı əməkdaşlıq mexanizmini işləyək".

...Azərbaycana qarşı bir sıra beynəlxalq təşkilatlarda da, ayrı-ayrı ölkələrdə də, son dövrlərdə yürüdülən arzuolunmaz siyasət, xüsusən 30 ilə yaxın müddətdə, guya, qərəzsiz münsiflərmiş kimi münaqişənin həllinə kömək göstərməli olan riyakarların düyünü özümüz çözəndən, torpaq bütünlüyümüzü və ərazimizin hər yerində suverenliyimizi tam bərpa edəndən sonra buynuz çıxarmaları, sanki, Ermənistanın təcavüzünə son qoymağımıza qızaraq tullanıb-düşmələri, yalyeyən muzdlu quyruqbulayanlarını da üstümüzə qısqırdaraq əvvəlkindən də gur hürməyə sövq etmələrindən insanlarımız xəbərdardır.

Ermənistanın özündəki çalxantılı daxili gedişatdan da az-çox agahıq. Prezident İlham Əliyev növbəti dəfə bəyan edirdi ki, biz nə Ermənistanın daxili işlərinə qarışırıq, nə də onların Cənubi Qafqazdan uzaqda yerləşən başqa ölkələrlə münasibətlərinə, ancaq bilirik, axı, Fransadan, Hindistandan, Yunanıstandan Ermənistan Azərbaycana qarşı necə silahlandırılır. Ona görə də Liderimiz bu platformadan yararlanaraq Ermənistanın özünə də, onu yeni savaşa sürükləyən, bunun üçün açıq və gizli şəkildə tədarüklər görən uzaqdakılara da xəbərdarlıq edirdi ki, kimlərinsə müəyyən tərpənişləri ilə bizə nəyisə sübut etməyə çalışdığını görüb sakitcə gözləyə bilmərik, bizə qarşı ciddi təhlükə görsək, narahatlıqlara uyğun da ciddi tədbirlər görməli olacağıq.

Və bunlara da, onlara da – Ermənistana da, onu forpost kimi işlətmək istəyən, sönən ocağı təzədən alovlandırmağa cəhd edən Fransa və onabənzərlərə də məsləhət görürdü ki, belə etməyin. Anladırdı ki, Ermənistana nə qədər silah göndərilsə də, onların bizə qarşı heç bir şansı yoxdur.

Belə ismarışı bunca açıq şəkildə dünya qarşısında bəyan edərkən Prezident İlham Əliyevin sözünə ağır çəki verən, dinləyənlərdə "deyirsə, məhz o cür də olacaq" qənaətini yaradansa çox da uzaq olmayan dünəndə qalan Qarabağ müharibəsi idi.

Bir daha yada salırdı, burada – ADA Universitetində deyirdi, amma bilirdi ki, səsi dərhal Parisə də, ondan o yanlara da çatacaq: "Cəmi 44 gün adi insanların sadəcə gəzintiyə çıxa bilmədiyi dağlara çıxdıq və biz bunu yüngül silahlarla etdik, onların ordusunu tamamilə məhv etdik. Separatizmə son qoyduğumuz bir neçə saatlıq antiterror əməliyyatı ilə də biz onlara gücümüzü nümayiş etdirdik. Bizim Ermənistana qarşı yenə də pis niyyətimiz yoxdur. Bizim onların ərazisinə heç bir iddiamız yoxdur, amma onlar başa düşməlidirlər ki, birincisi, bu silahlar onlara kömək etməyəcək. İkincisi, bu, təhlükəlidir və mənim vəzifəm onlara, həmçinin onların arxasında duran və onları manipulyasiya edənlərə xəbərdarlıq etməkdir ki, bu, həqiqətən, təhlükəlidir və onlar mənim dediklərimə qulaq asmalıdırlar".

Bunu deyib durmurdu, əlavə edirdi: "Çünki bilirlər ki, sözlərimə qulaq asmalıdırlar!"

El sözüdür ki, "Salavat gücə bağlıdır". Azərbaycan Prezidenti Ermənistana və onun arxasındakı təhrikçi qüvvətlərə belə qətiyyətlə səslənirsə, bunun ardında dayanan indiyədək görülmüş işlər, qazanılmış qələbələrdir.

Xəbərdarlığını Ermənistandan da çox o təhrikçilərə edirdi ki, bu yazıq ölkəni daha da bədbəxt edib qlobal qarşıdurma üçün namizəd kimi istifadə etməyə cəhd göstərməsinlər, dərk etsinlər ki, belə çiy ssenarilər fəlakətə sürükləyir. Ermənistanı indi qızışdıraraq yekə-yekə vəd verənlərin, axıracan onların dallarında duracaqlarını boyun olanların, avropalı sülh müşahidəçiləri adlanan, Azərbaycana qarşı cılız "binokl diplomatiyası"ndan yararlanmaqçün vurnuxanların – el basa-basa Avropadan bura gətirilmiş qaltaq təqaüdçü hərbçilər və polislərin sərhəddə ilk güllə açılınca qaçışacaqlarına əmin olduğunu deyən Prezident Əliyev erməni düyməsini uzaqdan basanlara mühüm bir yadasalma da edirdi ki, indiyəcən o cür hərəkətlərə cavab vermədiyimizə görə bizə minnətdar olmalıdırlar. 5 il əvvəl təkəbbürlə "Qarabağ Ermənistandır" deyənlərin indi suyu süzülə-süzülə "Qarabağ Azərbaycandır!" söyləməsini xatırladan İlham Əliyev fransızların ötürdüyü ölümcül silahlarla yaraqlanan Ermənistanın, ola bilsin, 5 il sonra yenidən dirçələrək köhnə şüara qayıda biləcəyini istisna etməyərək soruşur, həm də eyni anda qərarını elan edirdi: "Biz nə edək? Biz gözləyə bilmərik".

O günkü gün vicdanlı, beynəlxalq hüququn təsbit etmiş olduğu qanunlara qeyd-şərtsiz riayət edən, hətta bir-biri ilə kəskin ziddiyyətlər yaşayan dövlətlərlə də siyasətini "qızıl orta"nı gözləyərək, mizan-tərəzini pozmadan aparan Rəhbərin həm ətrafındakılar və həm də dünya qarşısında aqil, ölçülü-biçili hesabatı idi.

"Mən Azərbaycanın təhlükəsizliyinə, inkişafına və sabitliyinə cavabdehəm. Bunun üçün nə lazımdırsa, prinsiplər əsasında edirəm və biz heç vaxt düzgün, doğru və qanuni hesab etmədiyimizi etmirik. Beynəlxalq hüquq baxımından mükəmməl saymadığımız heç nəyi etmirik. Çünki başqalarının pozmamasını istədiyiniz qaydaları özünüz pozursunuzsa, bu, susuz səhraya aparan yolun, sadəcə, başlanğıcıdır. Biz heç vaxt Azərbaycana potensial təhlükə yarada biləcək heç bir təşəbbüsə qoşulmamışıq, münasibətlərimizdə həmişə ədalətli olmuşuq. Ona görə də heç kim bizdən istəmədiyimiz bir şey gözləmir və bu, artıq əməkdaşlıq formatıdır. Həm də vacib olan odur ki, biz heç vaxt səbəb olmadan heç kimə qarşı heç nə etmirik".

...Forumda Prezident İlham Əliyevin dünyaya çatdırmaq istədikləri Gələcək Quruculuğunun mötəbər yol xəritəsi kimi idi. Dünyanın taleyinə təsir göstərə bilən çürük iddialılara, ədalı qoluzorlulara əsər etsəydi, nə gözəl olardı!

...O gün Prezident İlham Əliyev dünyayla danışırdı, bölgənin və dövlətinin müqəddəratı ilə əlaqədar yeridilən siyasətlərin iç üzünü heç nəyi ört-basdır etmədən, çılpaqlığı ilə açırdı, həm oyunçu ölkələrə, həm də bütün dünyaya üz tutmuşdu ki, əsl gerçəklərdən hali olun! Birmənalı şəkildə söyləyirdi ki, bəzi ölkələr ("bəzi" desə də, söhbətin kimdən getdiyi onsuz da aşkardır) əsassız hücumları ilə Azərbaycana qarşı soyuq müharibəyə başlayıblar: "Dedik ki, yaxşı, biz bunu qəbul edirik və eyni şeyi təkrarlayırıq. Biz də eyni şeyi edirik və qırmızı xətləri keçmirik, sonuncu körpünü yandırmırıq. Biz cavab verəcəyik, amma biz heç vaxt birinci başlamayacağıq, Ermənistanla da münasibətlərdə eyni idi. Biz onlara hücum etmədik, işğal etmədik, qovmadıq, bunu onlar etdilər və cavabını aldılar".

Əziz vətəndaşlarımız! Bunlar sadə sözlər deyil. Dünyanın şahidliyi ilə baş vermiş və Azərbaycanın nəyə qadir olduğunu aləmə sübut etmiş hadisələri misal çəkərək Rəhbərimiz böyük güclərə ötkəm sözünü deyir, hər kəsə, bütün dünyaya çatdırır ki, böyüklüyündən-kiçikliyindən asılı olmayaraq heç kəs bizimlə təhdid dili ilə, yuxarıdan aşağı saymazyana baxaraq, yekəxana iddialarla danışa bilməz, hərənin öz cavabı var və biz necə cavab vermək qüdrətimizi də dünyaya artıq göstərmişik. Yəni ibrət götürün, özünüzü yığışdırın, yekəpərliyinizə bel bağlamayın, Vaxt sizlərin də layiqli cəza saatını gətirər!..

Bu sözləri Prezident İlham Əliyev deyir. Bu mövqe onun dövlətinin, Vətəninin, xaqının özünə güvənən, yenilməz, məğrur mövqeyidir.

İftixar edilməzmi?!

...Aprelin 26-da Prezident İlham Əliyev artıq başqa ölkədə, ayrı auditoriya qarşısında idi, amma yenə də sözü dünyaya idi. Azərbaycanın beynəlxalq aləmdə gələcəkdə daha da artacaq roluna dəlalət edən, dünyanın indikindən də yekdil olmasına və dövlətlərin iş birliyi ilə yaxınlaşmasına hesablanmış neft və qazla zəngin olan ölkələr üçün məsuliyyət platforması yaratmaq niyyətini bəyan edirdi: "Azərbaycan Qərblə Qlobal Cənub arasında körpü rolunu oynamaq fikrindədir, o cümlədən, yaşıl enerjiyə keçidlə və iqlim dəyişikliyi ilə bağlı".

Berlinə "Petersberq İqlim Dialoqu"nda iştirak etməkçün getmiş Azərbaycan Prezidenti Almaniya kansleri ilə yanaşıydı və Azərbaycanı Almaniyaya "vacib tərəfdaş" adlandıran Olaf Şolts danışırdı, 2024-cü ilin bölgədə sülh ili olması arzusunu ifadə edirdi, Azərbaycanla Ermənistan arasında uzunmüddətli və davamlı sülhün həllinin tapılmasında Almaniyanın dəstək göstərməyə hazır olduğunu bildirirdi.

***Bunun əksini deyən və edən, sönmüş münaqişə ocağını təzədən alışdırmaqdan ötrü əlləşən nifaqçı Fransanın simgəsi xoruzdur, Almaniyanın rəmzi qartal.***

***Qartal xəritəli Azərbaycana, ona qarşı məkrlə xoruzlananlarla deyil, elə qartallarla uçuş yaraşar!***

**26 aprel 2024-cü il**

# Fəzilət şəxsiyyətin nurudur

**Bu gün görkəmli alim, akademik Zərifə xanım Əliyevanın anadan olmasından 101 il ötür.**



Tibb elmləri doktoru, professor, Əməkdar elm xadimi, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, Rusiya Tibb Elmləri Akademiyasının akademik M.İ.Averbax adına mükafatının laureatı, müəllim, maarifçi və vətənpərvər xanım Zərifə Əliyeva öz peşə xidmətlərinə və nəcib əməllərinə görə öz xəstələri, həmkarları və tələbələrinin qəlbində unudulmaz iz qoymuşdur. Onların xatirələrinə görə, o, xoşxasiyyətliyi və sadəliyi, təvazökarlığı və müdrikliyi özündə təcəssüm etdirən kamil insan kimi xatırlanır, yaddaşlarında cazibədar ziyalı, istedadlı şəxsiyyət, gözəl həkim və alim kimi yaşamaqdadır.

Özünün yüksək vətəndaşlıq mövqeyi, qayğıkeşliyi və insanlara diqqəti ilə xalqın dərin hörmətini və məhəbbətini qazanmış Zərifə xanım yaradıcı qüvvəsi və tükənməz ilhamı sayəsində insanlar arasında böyük nüfuz qazanmış, onunla ünsiyyətdə olan hər kəsdə dərin məhəbbət və ehtiram hissi yaratmışdır. Zərifə xanım Əliyeva özünün bütün həyatını, qüvvəsini və istedadını öz xalqına xidmətə həsr etmişdir. O, insanlara sağlamlıq və həyat sevincini, çox vaxt isə həyatın özünü qaytarmaq məharətinə, qabiliyyətinə malik idi.

Zərifə xanım on dörd monoqrafiya və yüzlərlə elmi məqalənin, on iki səmərələşdirici təklifin müəllifidir. O keçmiş SSRİ Sülhü Müdafiə Komitəsi üzvü, Azərbaycan Sülhü Müdafiə Komitəsi sədrinin müavini, "Bilik" Cəmiyyəti İdarə Heyətinin və SSRİ Oftalmoloqları Elmi Cəmiyyəti Rəyasət Heyətinin üzvü olmaqla, "Vestnik oftalmoloqii" jurnalının redaksiya heyətinə daxil idi.

O, dünyada ilk dəfə olaraq peşə fəaliyyəti ilə əlaqəli görmə problemlərini öyrənmək üçün sənaye müəssisəsində elmi-tədqiqat laboratoriyası yaratmış, kimya sənayesi işçilərinin iş yerlərində gözə müxtəlif maddələrin təsirini öyrənmişdir. Belə elmi yanaşma ilə Zərifə xanım, faktiki olaraq, yeni elmi istiqamətin – peşə oftalmologiyasının əsasını qoymuşdur. O, insanın görmə orqanının peşə patologiyası probleminə müraciət etmiş, paralel olaraq insan orqanizminə müxtəlif peşə amillərinin biokimyəvi təsir mexanizmini təhlil etməklə zərərli maddələrin digər orqanlara – ağ ciyərlərə, böyrəklərə, qara ciyərə, ürəyə təsirini tədqiq edərək, bu prosesin qanunauyğunluqlarını müəyyənləşdirmişdir.

Fundamental problemlərdən biri peşə ilə əlaqədar zərərli amillərin kiçik dozalarının xroniki təsiri altında orqanizmdə baş verən qeyri-spesifik, aydın olmayan pozuntuların aşkara çıxarılması, xarici mühitin əlverişsiz amillərinin təsiri zamanı görmə sisteminin adaptiv-kompensator mexanizmlərinin öyrənilməsidir. Azərbaycan və sovet oftalmologiyasında yeni səhifənin açılması – görmə orqanının peşə xəstəliklərinin xüsusiyyətlərinin öyrənilməsi və onların profilaktikası və müalicəsində yeni metodların işlənib hazırlanması məhz Zərifə xanımın adı ilə bağlıdır.

Onun "Gözün və görmə-sinir yolunun yaş dəyişiklikləri" kitabı oftalmologiyada yeni istiqamətin – oftalmoloji herontologiyanın başlanğıcı olmuşdur.

Zərifə xanımın problemin həllinə hərtərəfli yanaşması xəstəliklərin gizli mexanizmlərinin aşkar edilməsinə və yeni terapiya metodlarının təklif olunmasına imkan vermişdir. Zərifə Əliyeva gözün qüzehli qişasının dəyişikliklərinin xarakteristikasına görə orqanizmin xəstəliklərinin diaqnostikası ilə bağlı oftalmologiyanın iridologiya kimi maraqlı istiqaməti ilə ilk məşğul olanlardandır. Uzun müddət rəsmi elm tərəfindən qəbul edilməmiş bu perspektiv istiqamət əsasən Zərifə xanımın tədqiqatları sayəsində 1977-ci ildə Ümumittifaq Oftalmoloqlar Cəmiyyəti İdarə Heyətinin plenumunun müzakirəsinə çıxarılmış əsas məsələlərdən biri olmuşdur. Zərifə Əliyevanın "İridologiyanın əsasları" və "İridodiaqnostika" əsərləri məhz bu sahəyə həsr olunmuşdur. Onun iridoloji tədqiqatları əsasında astroloji iridodiaqnostika yaradılmış, insan iridopsixologiyasının xüsusiyyətləri öyrənilmişdir.

Zərifə Əliyevanın elmi, praktik və sanitariya maarifi sahəsindəki fəaliyyəti Azərbaycanda traxomanın kökünün kəsilməsində həlledici rol oynamışdır.

Bundan əlavə, onun çoxsaylı elmi əsərlərində əksini tapan tədqiqatlarının geniş spektri, həmçinin qlaukoma, gözün travmaları, viruslu zədələnmələri, bədxassəli şişləri, göz yaşı yollarının xəstəlikləri kimi sahələri əhatə edir.

Tanrı Zərifə xanıma təkcə ağıl, zəka, sözün geniş mənasında, gözəllik deyil, həm də xarakter bütövlüyü, iradə gücü, mərdlik payı vermişdir. O, bütün gücünü Azərbaycan elmini ən yüksək pilləyə qaldırmaq üçün sərf etmiş və məqsədyönlü şəkildə bu ideyanın həyata keçməsinə çalışmışdır. Tələbələri arasında perspektivli gənc mütəxəssislərin yetişdirilməsinə təşəbbüs göstərərək, öz hörməti və şəxsi əlaqələrindən istifadə etməklə onları nüfuzlu ali tibb məktəblərinə məsləhət görür, ixtisasları üzrə təkmilləşmə məqsədilə ən yaxşı elmi-tədqiqat institutlarına göndərirdi. Zərifə xanımın rəhbərliyi altında çoxsaylı doktorluq və namizədlik dissertasiyaları müdafiə olunmuşdur.

Zərifə Əliyevanın əmək fəaliyyətinin böyük bir hissəsi Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitunun göz xəstəlikləri kafedrasında keçmişdir. Bu institutu yaratmış və ömrünün sonuna qədər orada işləmiş Zərifə xanım atasının – görkəmli alim və dövlət xadimi Əziz Əliyevin adını daşıyan bu institutda əvvəlcə assistent, sonra dosent və professor vəzifələrində işləmiş 1982-ci ildə göz xəstəlikləri kafedrasının müdiri olmuşdur.

Həmin dövrdə Zərifə Əziz qızı həkimlik fəaliyyəti ilə məşğul olur, bir çox cərrahiyyə əməliyyatları aparır, xəstələrə məsləhətlər verirdi. Üstəlik onun fəaliyyəti yalnız öz klinikasında qapanıb qalmır, bütün oftalmologiya təşkilatlarını və şöbələrini əhatə edirdi. O, həmçinin göz xəstəlikləri üzrə təkmilləşdirmə kurslarının dinləyici həkimləri ilə də pedaqoji iş aparırdı.

Zərifə xanım elmi tədqiqatların texnoloji təchizatının əhəmiyyətini dərindən başa düşürdü. Bilirdi ki, oftalmologiya təbabətin başqa sahələri kimi, yüksək dəqiqlikli müasir tibbi avadanlıq tələb edir. Onun qayğısı və diqqəti sayəsində respublikanın oftalmoloji tibb müəssisələri müasir avadanlıq, təkmil texnika ilə təmin və təchiz olunmuşdur.

Həkimləri Təkmilləşdirmə İnstitutunun göz xəstəlikləri kafedrasına rəhbərliyi dövründə, o, klinikaya mövcud olan ən yeni diaqnostika və əməliyyat avadanlıqları gətirmiş, Sovet İttifaqının digər aparıcı klinikalarından mütəxəssislər dəvət etmiş, gərgin elmi-tədqiqat fəaliyyəti ilə yanaşı, gözəl pedaqoq, yeni alimlər nəslinin tərbiyəçisi olaraq təhsilə, tədris prosesinin təşkilinə böyük diqqət yetirmişdir.

Mənə də bu kafedrada dərs demək, əməliyyat etmək, elmlə məşğul olmaq xoşbəxtliyi nəsib olmuşdur. Zərifə xanımın görkəmli təşkilatçılıq qabiliyyəti sayəsində texniki cəhətdən təchiz olunmuş və yüksək elmi-praktiki səviyyəli mütəxəssislərlə təmsil olunmuş kafedra, o cümlədən, dakriologiya problemləri ilə də müvəffəqiyyətlə məşğul olurdu. Mən də həmin kafedranın əməkdaşı kimi özümü bu elmi istiqamətə həsr etmişdim. Bu kafedrada aldığım elmi biliklər və praktik vərdişlərin mənim oftalmocərrah, elmi işçi, müəllim kimi peşə inkişafımda çox mühüm təsiri olmuşdur. Buna görə də mən Zərifə xanımın ruhu qarşısında baş əyirəm.

Zərifə xanımın elmi-pedaqoji fəaliyyətində Moskva mühitinin də həlledici təsiri olmuşdur. O, "Azərbaycanın bir sıra kimya müəssisələri işçilərinin görmə orqanlarının vəziyyəti" mövzusunda yazdığı dissertasiya işini dünyanın ən nüfuzlu oftalmologiya mərkəzlərindən biri olan H. Helmqolts adına Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda müdafiə etmişdir. Zərifə Əziz qızının dissertasiya işi görkəmli mütəxəssislərin yüksək qiymətini almış və oftalmologiyanın bu sahəsində ilk işlərdən biri olmuşdur. 1977-ci ildə Zərifə xanım Əliyevaya tibb elmləri doktoru elmi dərəcəsi verilmişdir.

Danılmaz xidmətlərinə, sanballı elmi-tədqiqat işlərinə görə, professor Zərifə Əziz qızı Əliyeva 1983-cü ildə Azərbaycan Respublikası Elmlər Akademiyasının akademiki seçilmişdir.

Dünya miqyaslı məşhur alimlərlə söhbət zamanı mənə onların Zərifə xanımın öz çıxışları ilə auditoriyanı necə inandırmaq və ruhlandırmaq bacarığı barədə xatirələrini eşitmək həmişə xoş olmuşdur. Zərifə xanım Azərbaycan qadınının əsl simvoludur, Zərifə xanımın adı nüfuzlu peşə cəmiyyətlərində vizit vərəqidir. Onun yüksək vətənpərvərliyi, liderlik qabiliyyəti, öz ətrafına istedadlı həkimləri və alimləri toplamaq bacarığı, bir çox peşəkarların inkişafında oynadığı misilsiz rolu, səxsiyyətinin nur saçan fəziləti hər birimiz üçün dəyərli örnək və nümunədir.



*Sevinc ƏSGƏROVA,*
*Rusiya Təbiətşünaslıq Akademiyasının akademiki, Avropa Plastik və Rekonstruktiv Oftalmocərrahlar Cəmiyyətinin (ESOPRS) həqiqi üzvü, N.İ.Piroqov adına Rusiya Milli-Tədqiqat Tibb Universitetinin professoru, tibb elmləri doktoru, oftalmocərrah*

**Moskva**

## Dünya şöhrətli oftalmoloq ehtiramla yad edildi

**Göyçay rayonundakı Heydər Əliyev Mərkəzində dünya şöhrətli alim, Əməkdar elm xadimi, akademik, Zərifə xanım Əliyevanın doğum günü böyük ehtiramla anılıb.**



Dəyirmi masa ətrafında keçirilən mərasimdə rayon icra hakimiyyəti başçısının müavini Zivər Zeynalova, YAP rayon təşkilatının sədri Sahib Şükürov, Göyçay Rayon Mərkəzi Xəstəxanası Publik Hüquqi Şəxsin həkimləri və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Çıxışlarda bildirilib ki, görkəmli dövlət və elm xadimi Əziz Əliyevin ailəsində dünyaya göz açan Zərifə xanım valideynlərinə layiqli övlad, tanınmış həkim, qayğıkeş insan idi. O, Azərbaycan dövlətinin memarı və qurucusu, bütün mənalı ömrünü Vətənin və xalqının tərəqqisinə həsr etmiş dahi şəxsiyyətin – ümummilli lider Heydər Əliyevin vəfalı ömür-gün yoldaşı, sədaqətli dostu və etibarlı silahdaşı olmuşdur.

Zərifə Əliyeva xatırlananda həm də göz önündə nəcib bir Azərbaycan xanımının obrazının canlandığı vurğulanıb. İftixarla qeyd edilib ki, Zərifə xanımın bir qadın və ana kimi xalqımıza ən böyük xidməti müasir, müstəqil dövlətimizin daha da inkişaf edib çiçəklənməsinə, dünyada layiqli yer tutmasına nail olan möhtərəm Prezidentimiz İlham Əliyevi Azərbaycana bəxş etməsidir.

Natiqlər bildiriblər ki, dünya oftalmologiya elminə böyük töhfələr vermiş Zərifə xanım Əliyevanın zəngin elmi irsi, apardığı tədqiqatlar, qazandığı nailiyyətlər, yaratdığı fundamental əsərlər Azərbaycan tibb elminin parlaq səhifələrini təşkil edir. Görkəmli alimin keçdiyi şərəfli ömür yolu hər bir azərbaycanlı, hər bir alim və həkim üçün həyat və mənəviyyat dərsi, kamillik və müdriklik məktəbidir.

Sonda Zərifə xanım Əliyevaya həsr edilmiş videoçarx nümayiş edilib, məktəblilər şeirlər söyləyiblər.

*İlqar HƏSƏNOV,*
*XQ-nin bölgə müxbiri*

## Akademik Zərifə Əliyevanın xatirəsi anılıb

**Abşeron rayonunda görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın 101 illiyinə həsr olunan tədbir keçirilib.**




Abşeron RİH başçısı Abdin Fərzəliyev bildirib ki, Zərifə xanım Əliyeva Azərbaycan qadınının parlaq simasıdır. Respublikamızda səhiyyənin inkişafında və bir çox göz xəstəliklərinin müalicəsində Zərifə xanım Əliyevanın böyük əzmi və fəaliyyətinin olduğunu vurğulayan A.Fərzəliyev vurğulayıb ki, məhz onun sayəsində o dövr üçün aktual olan bir çox tibbi problemlər tamamilə həll olunub.

Millət vəkilləri Aydın Hüseynov, İlham Məmmədov Zərifə xanım Əliyevanın Azərbaycan qadınına nümunə ola biləcək sədaqətli silahdaş, gözəl ana, böyük oftalmoloq-alim olduğu, xeyirxahlığa xidmət etməsi və gənc alimlərin yetişməsində qayğısı barədə danışıblar.

Daha sonra Abşeron Rayon Mərkəzi Xəstəxanasının direktoru Azər İsmayılov, həmin Xəstəxananın əməkdaşı, Vətən müharibəsi şəhidi baş leytenant İlqar Vəliyevin həyat yoldaşı Təhminə Vəliyeva çıxış edərək bildiriblər ki, Zərifə xanım Əliyevanın Azərbaycan səhiyyəsinin inkişafında və bir çox göz xəstəliklərinin uğurlu müalicəsində böyük əzmi və fəaliyyəti vardır.

Sonda xalq artistləri İlqar Muradov və Samir Cəfərovun, muğam müsabiqəsi mükafatçısı Leyla Rəhimovanın iştirakı ilə bədii hissə təqdim olunub.

**XQ**

# İnvestisiya Şirkəti qeyri-neft sektorunu davamlı və əhatəli himayə edir

(əvvəli 1-ci səhifədə)

Prezident İlham Əliyevin rəhbərliyi ilə son illərdə ölkəmizdə iqtisadiyyatın davamlı və rəqabətqabiliyyətli inkişafı istiqamətində çoxşaxəli iqtisadi islahatlar həyata keçirilib, iqtisadiyyatın diversifikasiyası, dövlət-sahibkar münasibətlərinin inkişafı, biznes və investisiya mühitinin yaxşılaşdırılması, qeyri-neft sektorunun stimullaşdırılması daim diqqət mərkəzində saxlanılıb.

Qeyri-neft sahəsinin inkişafı, yerli və xarici investisiyaların ölkəmizə cəlb olunması, müasir texnologiya və biliklərin əldə edilməsi vasitəsilə ölkə iqtisadiyyatının modernləşdirilməsi və rəqabətədavamlılığının artırılması məqsədilə yaradılan AİŞ də bu istiqamətdə öz töhfəsini verib, qurum strateji xəttinə uyğun olaraq, müddətli investisiya qoyuluşu həyata keçirib. Bununla yanaşı, şirkət digər kommersiya təşkilatlarının nizamnamə kapitalındakı iştirak payını (səhmlərini) alıb, həmçinin kapital paylara və səhmlərə bərabər tutulan digər investisiya alətlərindən yararlanıb.

İqtisadiyyat Nazirliyinin yaydığı məlumatda bildirilir ki, 2020-ci ildən etibarən sözügedən şirkətdə aparılan restrukturizasiya, habelə beynəlxalq təcrübənin mənimsənilməsi, müasir idarəetmə institutunun yaradılması, kadr potensialının təkmilləşdirilməsi nəticəsində yüksək göstəricilər əldə edilib, investisiya və risk siyasəti təkmilləşdirilərək müasir fəaliyyət standartlarına uyğunlaşdırılıb.

AİŞ portfel şirkətləri üçün 3 illik strateji inkişaf planı hazırlayaraq onların fəaliyyətinin idarəsi üçün yeni nəzarət mexanizmləri tətbiq edib və sahibkarların daha səmərəli iş modeli qurmalarına və korporativ idarəetmə standartlarından yararlanmalarına dəstək göstərib. Şirkətin 2020-2022-ci illərdə audit olunun maliyyə hesabatlarına əsasən, qurum həmin dövr üzrə fəaliyyətini 23,7 milyon manat xalis mənfəətlə tamamlayıb və cari ilin əvvəlində ümumi investisiya portfeli 325 milyon manat təşkil edib.

İdxaldan asılılığın azaldılması, yerli istehsala dəstək, eləcə də istehsal olunacaq məhsulların istehlak bazarında sərfəli şərtlərlə əldə edilməsi məqsədilə 2020-2023-cü illər ərzində AİŞ tərəfindən yerli və xarici tərəfdaşlarla birgə əczaçılıq, qida emalı, logistika, alternativ enerji, dağ-mədənçilik və s. sahələr üzrə bir sıra layihələr həyata keçirilib. Məsələn, ölkəmizdə əczaçılıq sahəsinin inkişaf etdirilməsi üçün AİŞ və "Diamed Development Group" MMC arasında infuzion məhlulların (su tərkibli dərman) istehsalı zavodunun tikilməsinə dair investisiya müqaviləsi imzalanıb və 2023-cü il avqustun 15-də dövlət başçısı İlham Əliyev tərəfindən müəssisənin açılışı həyata keçirilib. Zavodda 51 nəfər daimi işlə təmin edilib. Yaxud, Azərbaycanda müstəqillik dönəminin tam istehsal prosesi olan ilk dərman zavodunun tikintisi və fəaliyyəti məqsədilə Türkiyənin "Gen İlaç ve Sağlık Ürünleri Sanayi ve Ticaret A.Ş" şirkəti ilə AİŞ arasında müqavilə imzalanıb və hazırda zavodun tikintisi istiqamətində hazırlıq işləri tamamlanıb. Burada 50 nəfərin daimi işlə təmin edilməsi nəzərdə tutulub.

İçki istehsalı üçün xammal olan səməni arpasının emalı layihəsi üzrə İmişli rayonunda AİŞ, "AzərŞəkər" MMC və "Azərsun Kənd Təsərrüfatı Malları" MMC-nin birgə investisiyası ilə reallaşdırılacaq müəssisənin təməli qoyulub. Bundan əlavə, "AzərŞəkər" MMC ilə əməkdaşlığın davamı olaraq ölkəmizdə becərilən buğdadan daha yüksək dəyərə malik məhsulların alınması üçün buğdanın dərin emalı müəssisəsinin yaradılması istiqamətində işlər davam etdirilib.



AİŞ Balakən rayonunda yerləşən, müasir texniki avadanlıqlarla təchiz olunan, nəzdində yuyulma, soyulma, soyutma və qablaşdırma sexləri fəaliyyət göstərən quru və yarımquru meyvələrin istehsalı üzrə fəaliyyət göstərən "Balxurma" və "Balacans" şirkətlərinə sərmayə yatıraraq, bu qurumların istehsal etdiyi məhsulların regional bazarlara çıxışını asanlaşdırıb.

Bir müddət əvvəl AİŞ ixrac daşımalarını optimallaşdırmaq, habelə yerli istehsal mallarını sərfəli vasitələrlə dünya bazarına çıxarmaq məqsədilə beynəlxalq logistika və daşıma sahəsində fəaliyyət göstərən "Login International" şirkətinə sərmayə qoyub. Layihə, həmçinin beynəlxalq logistika sahəsində yerli sahibkarların rəqabət qabiliyyətini artırmaq məqsədi daşıyıb.

Avropa ölkələrinin qabaqcıl texnologiyalarına əsaslanan, Cənubi Qafqazda ilk alüminium içki qutularının istehsalı və doldurulması üzrə zavodun Azərbaycanda inşası məqsədilə AİŞ Macarıstanın tanınmış "HELL Energy" Şirkətlər Qrupu ilə "Quality Pack Caspian" MMC-ni təsis edib.

Müəssisə fəaliyyətə başladıqdan sonra 280 nəfərin daimi iş yeri ilə təmin edilməsi gözlənilir. Hazırda layihələndirmə işləri yekunlaşdırılır və yaxın zamanda Ələt Azad İqtisadi Zonasında yerləşən zavodun tikinti işlərinə başlanılması nəzərdə tutulur.

İsrailin "OurCrowd" vençur şirkəti ilə əməkdaşlıq çərçivəsində AİŞ ilk dəfə "3D" soyuq çap texnologiyasından istifadə etməklə polipropilen və polietilendən sənaye məhsullarının hazırlanması üzrə ixtisaslaşan "Largix" və elektrik avtomobillərdə etibarlı təhlükəsizlik həllərini gerçəkləşdirən kibertəhlükəsizlik platformasının inkişafında ixtisaslaşan "C2A Security" texnoloji startap layihələrinə investisiya yatırıb.

Yuxarıda sadalananlarla bərabər, Yevlax Pilot Aqroparkın ərazisində ən son texnologiya və müasir proseslərdən istifadə etməklə yerli damazlıq yumurta istehsalı zavodunun tikintisi məqsədilə AİŞ və İsrailin "AgriGo LTD" şirkəti arasında səhmdarlar müqaviləsi imzalanaraq cari ilin əvvəlində müəssisənin tikintisinə başlanılıb.

Yeri gəlmişkən, 2020-2023-cü illər ərzində AİŞ-ə 200-dən çox investisiya layihəsinə dair müraciət daxil olub, təhlillər nəticəsində 15 layihə ilə əlaqədar adıçəkilən qurumun Müşahidə Şurası tərəfindən investisiya qoyulmasına dair qərar qəbul edilib. AİŞ-də hər layihə üzrə analitik təhlillər aparılıb, bazar araşdırması həyata keçirilib.

İqtisadiyyat Nazirliyinin məlumatında bildirilir ki, qabaqcıl texnologiyaların, avadanlıqların və nou-haunun xaricdən ölkəyə gətirilməsini təmin etmək, bu əsasda texnoloji strukturu yeniləmək, sənaye istehsalını canlandırmaq və artırmaq baxımından birbaşa xarici investisiyalar əhəmiyyətli rola malikdir. Bu cür investisiyaların cəlb edilməsi AİŞ-in prioritetlərindəndir.

Hazırda şirkətin iştirak payı olan 15 layihədən 9-u xarici investisiya yatıran tərəfdaşlarla həyata keçirilir. Bu layihələrin icrası nəticəsində Azərbaycana cəlb edilən birbaşa xarici investisiya məbləği, ümumilikdə, 410 milyon manat təşkil edir və bununla 1600-dən çox yeni iş yerinin yaradılması nəzərdə tutulur.

**V.BAYRAMOV**
**XQ**



## "Zərifə Əliyeva" bərəsinin 2 ildə 332-ci səfəri

**"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin (ASCO) "RoPax" tipli "Zərifə Əliyeva" gəmi-bərəsi istismarda olduğu iki il ərzində 332 səfər həyata keçirib. Bu barədə ASCO-dan məlumat verilib. Bildirilib ki, həmin səfərlər çərçivəsində gəmi-bərə ilə 305 vaqon, 11 min 780 ədəd yük maşını, 1742 ədəd minik maşını, eləcə də 11 min 350 nəfər sərnişin daşınıb.**

Xatırladaq ki, ASCO-nun sifarişi ilə Bakı Gəmiqayırma Zavodunda inşa olunan gəmi-bərə 2022-ci il aprel 28-də Prezident İlham Əliyevin iştirakı ilə istismara verilib. Layihəsi "RoPax" tipli "Azərbaycan" gəmi-bərəsi ilə oxşar olan unikal üzən vasitə ilə eyni vaxtda 100 sərnişin və ya 56 vaqon və ya 50 yük avtomobili/TIR daşımaq mümkündür.

## Neft sektoru büdcəyə 4,5 milyard manat ödəyib

**Cari ilin birinci rübündə neft-qaz sektorundan dövlət büdcəsinə 4 milyard 562,6 milyon manat daxil olub. Bu da proqnozla müqayisədə 216,7 milyon manat və ya 5 faiz, əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə isə 702,6 milyon manat və ya 18,2 faiz çoxdur.**




Maliyyə Nazirliyinin məlumatına görə, 2024-cü ilin yanvar-mart aylarında dövlət büdcəsinin gəlirlərində neft-qaz sektoru üzrə daxilolmaların 30 faizi və ya 1 milyard 367,3 milyon manatı vergi orqanlarının xətti ilə daxilolmalar, 70 faizi və ya 3 milyard 195,3 milyon manatı Azərbaycan Respublikasının Dövlət Neft Fondundan dövlət büdcəsinə transfert təşkil edib.

Vergi orqanlarının xətti ilə dövlət büdcəsinə mədaxil olmuş neft-qaz gəlirlərinin 48,8 faizi və ya 667,9 milyon manatı "Şahdəniz" yatağı üzrə mənfəət vergisinin, 34 faizi və ya 464,8 milyon manatı Dövlət Neft Şirkətinin ödədiyi müvafiq vergilərin, 17,2 faizi və ya 234,6 milyon manatı isə ABƏŞ-in mənfəət vergisinin payına düşüb.

**XQ**

# COP29-un aqrar hədəfləri

**"COP29-un Azərbaycanda aqrar və ekoloji siyasətlərin qabaqcıl beynəlxalq təcrübələrə, texnoloji mübadilə və innovasiyalara uyğunlaşdırılmasında mühüm rolu olacaq. Bu istiqamətdə innovativ yanaşmaların və alətlərin istifadəsi ətraf mühitin qorunması ilə yanaşı, kənd təsərrüfatının davamlılığına, ekoloji təmiz ərzaqla təminatına, habelə kənd yerlərində rifahın artmasına töhfə verəcək".**
**Bu və digər məsələlər barədə dünən Yevlaxda "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində "İqlim dəyişikliyinə adaptasiya edən torpaq və resurs qoruyucu yeni texnologiyaların nümayişi" mövzusunda keçirilən respublika müşavirəsində ətraflı bəhs olunub.**

Kənd Təsərrüfatı Nazirliyi, "Azərşəkər" MMC-nin birgə təşkilatçılığı və "Gilan Pivot" MMC-nin tərəfdaşlığı ilə keçirilən müşavirədə nazirliyin rəhbərliyi, müvafiq dövlət qurumlarının, iri fermer təsərrüfatlarının və aqroparkların, təchizatçı şirkətlərin nümayəndələri və fermerlər iştirak ediblər. Tədbirin keçirilməsində əsas məqsəd son dövrlərdə dünyada baş verən qlobal istiləşmənin kənd təsərrüfatına mənfi təsirlərinin azaldılması baxımından iqlim dəyişikliyinə adaptasiya edən nəmlik qoruyucu texnologiyaların və innovativ yeniliklərin ölkə ərazisində geniş tətbiq edilməsi, ətraf mühitin qorunması, quraqlıqdan əziyyət çəkən bölgələrdə fəaliyyət göstərən fermerlərin bilik və bacarıqlarının artırılması, həmçinin iri fermer təsərrüfatları və aqroparklar tərəfindən bu sahədə əldə edilmiş təcrübələrin bölüşdürülməsindən ibarət olub.

Kənd təsərrüfatı nazirinin müavini Sarvan Cəfərov çıxış edərək bildirib ki, son illər Azərbaycanda dövlətin qeyri-neft sektoruna göstərdiyi yüksək qayğı nəticəsində iqtisadiyyatın aparıcı sahələrindən olan aqrar sektorda keyfiyyətcə yeni inkişaf mərhələsinə keçid üçün əsaslı zəmin yaranıb, ölkənin ərzaq təhlükəsizliyinin etibarlı təmin edilməsi prosesində mühüm addımlar atılıb. Qeyd olunub ki, Azərbaycanda kənd təsərrüfatı məhsullarının istehsalının səmərəliliyinin artırılması və sahənin inkişafı istiqamətində atılan addımlar aqrar sektorun inkişafına səbəb olub. Onun sözlərinə görə, dünyada torpaqların şoranlaşmasının, su və torpaq resurslarının azalmasının kənd təsərrüfatına ciddi təsir göstərməsi səbəbindən yaranmış çətinliklərin aradan qaldırılmasında müasir texnologiyaların tətbiqi xüsusi önəm kəsb edir.

Ölkədə kənd təsərrüfatı sahəsində innovasiyaların tətbiqi ilə bağlı çoxsaylı təcrübələrin yarandığını vurğulayan nazir müavini bildirib ki, ötən müddətdə Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində olan elmi-tədqiqat institutları tərəfindən təcrübə xarakterli, özəl şirkətlər isə kommersiya məqsədli "ağıllı istixana" və "ağıllı bağ"lar qurulub, torpaq və su sensorları, "ağıllı" suvarma sistemləri, aqrodronlar, aqrorobotlar, "dəqiq" əkin texnologiyaları tətbiq edilib. Onun dediyinə görə, kənd təsərrüfatında innovativ texnologiyaların tətbiqi aqrar sektor haqqında təsəvvürlərin dəyişməsinə səbəb olur və onu daha çox gəlirli, səmərəli bir sahəyə çevirir. "Bu gün müasir təsərrüfatlar rəqəmsal texnologiyalarla böyük mənfəətlər əldə edirlər. Bu texnologiyalar kənd təsərrüfatı məhsul istehsalçılarına dəqiq əkinçiliyin həyata keçirilməsinə, sudan və gübrədən daha səmərəli istifadə etməyə, rəqabətqabiliyyətli məhsulun istehsalına, eləcə də ətraf mühitə mənfi təsirin aradan qaldırılmasına imkan verir", – deyə o əlavə edib.

Diqqətə çatdırılıb ki, son illər Prezident İlham Əliyevin kənd təsərrüfatı məhsulları istehsalının səmərəliliyinin artırılması, məhsul istehsalçılarına dövlət dəstəyinin göstərilməsi ilə bağlı imzaladığı sərəncam və verdiyi tapşırıqlar bu sektorda istehsal göstəricilərinin davamlı olaraq yüksəldilməsini stimullaşdırmaqla innovativ texnologiyaların tətbiqi imkanlarını genişləndirib.

"Azərşəkər" MMC-nin İdarə Heyətinin sədri Anar Mehdiyev "Mzuri" texnologiyasının üstünlükləri barədə məlumat verib. "Mzuri"nin üstün cəhətinin 4 prosesi (dərin yumşaltma, dərinlik boyu gübrə emalı, müxtəlif çeşidli toxumların dəqiq səpini və bərkidici çarxlarla toxumların basdırılması) eyni vaxtda yerinə yetirməsindən ibarət olduğunu vurğulayan A. Mehdiyev deyib ki, bu texnikanın istifadəsindən məqsəd suya və yanacağa qənaət, torpağın münbit qatının qorunub saxlanılması və havaya buraxılan zərərli qazların təsirinin aradan qaldırılmasıdır.




"Gilan Pivot" MMC-nin baş direktoru Ruslan Ələskərov isə çıxışında kənd təsərrüfatı sahəsində "Dragon-Line" texnologiyasının tətbiq edilməsinin əhəmiyyətindən söhbət açıb. Qeyd olunub ki, "Dragon-Line" pivot və damcılı suvarma sisteminin sintezi olan yeni nəsil hibrid suvarma sistemidir. Bu suvarma sistemindən istifadə suya və elektrik enerjisinə 20-50 faizə qədər qənaət edir, torpağın kipləşməsini, qaysaqlanmasını və suyun səthi axınlarını azaldır, ani temperatur dəyişikliklərində bitki şokunun qarşısını alır.

Müşavirədə kənd təsərrüfatı sahəsində tətbiq olunan innovativ texnologiyalar, texnikalar, müasir suvarma sistemləri, orqanik gübrələr və biopreparatlar nümayiş etdirilib, tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

**M.QULİYEV**
**XQ**

Dövlət Mükafatına namizədlər

# Müdafiə qüdrətimizi artırmağa xidmət edən elmi əsər

**Böyük Zəfərlə başa çatan 44 günlük Vətən müharibəsi və 23 saat 44 dəqiqəlik lokal antiterror əməliyyatları ilə ərazi bütövlüyünü və suverenliyini tam təmin edən ölkəmiz inkişafın yeni mərhələsinə qədəm qoyub. Bu mərhələ üçün artıq yeni ideyalar, yeni amallar formalaşmaqdadır.**

Dövlətimizin başçısı cənab İlham Əliyev istər yerli televiziya kanallarına verdiyi genişhəcmli müsahibədə, istərsə də növbədənkənar prezident seçkilərin qalibi kimi andiçmə mərasimində açıq şəkildə bəyan etdi ki, daha keçmişdə ilişib qalmaq olmaz, təxirəsalınmadan yeni dönəmin yeni inkişaf hədəflərini müəyyənləşdirməliyik. Təbii ki, yeni hədəfimiz, yeni məqsədimiz, ilk növbədə, respublikamızın iqtisadi inkişafının sürətləndirilməsini və milli müdafiə qüdrətinin daha da artırılmasını özündə ehtiva edəcək. Bu isə özü-özlüyündə yerli istehsal sahələrin genişləndirilməsi ilə ölkə iqtisadiyyatının, xüsusilə müdafiə təyinatlı məhsulların idxal asılılığından tamamilə aradan qaldırılmasını təşviq etmiş olur.

Dövlətimizin müdafiə qüdrətinin artırılması da, ilk növbədə, ayrı-ayrı strateji məhsullar üzrə yerli istehsal sahələrinin yaradılmasını zəruri edir. Bu vacib problemin öz həllini tapması dəqiq və təbiət elmlər üzrə alimlərimiz və müvafiq elmi-tədqiqat institutlarının üzərinə böyük məsuliyyət və çoxsaylı vəzifələr qoyur. Başqa sözlə, elm adamlarımızın əldə etdiyi mühüm elmi nəticələrin tətbiq olunması işlərinə önəm verməklə ölkəmizin müdafiə qüdrətinin artırılmasına daha çox töhfə vermiş olarıq.

Bu amili nəzərə alan Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin akademik Əli Quliyev adına Aşqarlar Kimyası İnstitutunun tətbiqyönlü fəaliyyətinin əsas istiqamətini sürtkü materialları və aşqarların yaradılması, onların tətbiqi əsaslarının işlənməsi təşkil edir. Azərbaycan Respublikasının Elm, texnika, memarlıq, mədəniyyət və ədəbiyyat üzrə Dövlət Mükafatları Komissiyası tərəfindən 2024-cü il üçün elan olunan Dövlət Mükafatı Müsabiqəsinə müəllifləri akademik Vaqif Fərzəliyev, professorlar Həqiqət Cavadova, Əfsun Sucayev və dosentlər Vasif Abbasovla Səxavət Rüstəmov olan Aşqarlar Kimyası İnstitutunun Təcrübə-Sənaye zavodu ilə birlikdə təqdim etdiyi "Xüsusi təyinatlı sürtkü yağlarının yaradılması və istehsalının təşkili" adlı kompleks elmi-texniki işi yuxarıda qeyd etdiyimiz məqsədyönlü fəaliyyətin məntiqi nəticəsi kimi dəyərləndirmək olar. İşlə yaxından tanışlıqdan aydın olur ki, bu respublika və dünya əhəmiyyətli iş başlıca olaraq ölkəmizin müdafiə qüdrətinin yüksəldilməsi və strateji materiallar üzrə xarici ölkələrdən asılılığın azaldılması məqsədilə hərbi texnika üçün yüksək keyfiyyətli, rəqabətə davamlı xüsusi təyinatlı sürtkü yağlarının yaradılması və istehsalının təşkilinə həsr olunmuşdur.



Məlumat üçün qeyd edək ki, SSRİ dövründə sürtkü yağları və onlara aşqarlar sahəsində üç elmi mərkəzdən biri, müstəqillik dövründə isə yeganə elmi mərkəz olan Aşqarlar Kimyası İnstitutu tərəfindən hələ o vaxtlar bir sıra xüsusi təyinatlı sürtkü yağları yaradılmış və istehsalı da təşkil olunmuşdur. Bu yağlardan biri də Ukraynanın Xarkov şəhərində yerləşən zavodda istehsal olunan xüsusi texnikada – tankda istifadə edilən xüsusi təyinatlı dizel mühərriki üçün yaradılmış yağ olub. Bu motor yağının istismar xassələri həmin zavod tərəfindən yaradılmış yeni nəsil yüksək gücləndirilmiş dizel mühərrikinin tələblərinə tam cavab vermədiyi üçün yeni xüsusi təyinatlı motor yağının yaradılması tələb olunurdu. Bununla əlaqədar 2019-2021-ci illərdə həmin zavodla əməkdaşlıq çərçivəsində Aşqarlar Kimyası İnstitutu tərəfindən yüksək istismar xassələrinə malik yeni xüsusi təyinatlı motor yağı yaradılmış və müasir mühərriklərdə sınaqlardan uğurla keçmişdir.

Qeyd olunan sınaqların müsbət nəticələrinə əsasən, yaradılmış yeni motor yağı Azərbaycan Respublikası Müdafiə Nazirliyinin sərəncamında olan tankların mühərriklərində praktiki sınaqlardan uğurla keçmiş və sınaq komissiyası bu yağın tank mühərriklərində istifadəsini məqsədəuyğun hesab etmişdir.

Bu istiqamətdə nümunəvi fəaliyyətini davam etdirən Aşqarlar Kimyası İnstitutu alimləri daha bir uğura imza atırlar. Onlar tərəfindən yaradılmış digər – bütün mövsümlərdə işləyən xüsusi təyinatlı motor yağı Azərbaycan Respublikası Müdafiə Nazirliyində ən son markalı tanklarda praktiki sınaqdan uğurla keçmiş və sınaq komissiyası bu yağın istifadəsini tam məqsədəuyğun hesab etmişdir.

Yaradılmış bütün bu xüsusi təyinatlı motor yağlarının istehsalı Təcrübə-Sənaye Zavodu MMC-də təşkil edilmiş, istehsalı və istehlakını təmin edən bütün normativ-texniki sənədlər işlənilmişdir.

Yaradılmış motor yağlarının istismar xassələrinə görə üstünlüklərə malik yeni analoqları yaradılmışdır. Yaradılmış xüsusi təyinatlı motor yağlarının 3-ü "məxfi" qriflə Azərbaycan patenti ilə müdafiə olunmuşdur, 1 ixtira isə Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin tabeliyində olan Əmtəə Nişanları və Patent üzrə Ekspertiza Mərkəzinidə baxılmaq üzrədir.

Dövlət Mükafatına təqdim olunan kompleks elmi-texniki işin müəllifləri də öz sahələrində sözünü demiş, elmi nailiyyətlər qazanmış mütəxəssislərdir. Layihənin rəhbəri aşqarlar və sürtkü yağları sahəsində dünya şöhrətli, beynəlxalq miqyasda tanınmış alim akademik Vaqif Fərzəliyev Aşqarlar Kimyası İnstitutunda yerinə yetirilən bütün elmi tədqiqat işlərinə rəhbərlik edən, xüsusi təyinatlı sürtkü yağlarının yaradılması, tədqiqi, sınaqlardan keçirilməsi, istehsalın təşkili, əlaqəli təşkilatlarla, o cümlədən xarici təşkilatlarla danışıqların aparılması, alınan nəticələrin müzakirəsinə bilavasitə rəhbərlik edib. Eyni zamanda yaradılacaq xüsusi təyinatlı sürtkü yağlarına qoyulan tələbləri nəzərə alaraq onların tərkibinə daxil ediləcək baza yağlarının və müvafiq aşqarların seçilməsinin elmi cəhətdən əsaslandırılması, işin yerinə yetirilməsində gündəmə gələn bir sıra məsələlərin elmi araşdırılması və işin düzgün istiqamətləndirilməsinə daima rəhbərlik edib.

Digər müəlliflər də–professorlar Həqiqət Cavadova və Əfsun Sucayev aşqarlar kimyası məktəbinin yetirmələri kimi müxtəlif təyinatlı, o cümlədən xüsusi təyinatlı sürtkü yağlarının yaradılması və istehsalata tətbiqində böyük təcrübəyə malik tanınmış alimlər olmaqla, Dövlət mükafatına təqdim olunmuş elmi işin yerinə yetirilməsində əvvəldən axıra kimi bilavasitə iştirak etmişlər.

Dövlət Mükafatına təqdim olunan kompleks elmi-texniki işdə AMEA Təcrübə Sənaye-Zavodunu təmsil edən alimlər – Vasif Abbasov və Səxavət Rüstəmov isə xüsusi təynatlı yağların elmi cəhətdən işlənilmiş və müvafiq sınaqlara əsasən tələb olunan keyfiyyətə cavab verən tərkibə uyğun istehsal texnologiyasının yaradılmasında, istehsalın təşkilində, müxtəlif sınaqlar üçün tələb olunan partiyaların "Texniki Şərt"lərə uyğun istehsalında həm rəhbər kimi, həm də icraçı kimi bilavasitə iştirak etmişdirlər.

Təqdirəlayiq hal ondan ibarətdir ki, Ukrayna istehsalı olan T-80 markalı tankların vaxtilə bir sıra xarici ölkələrə ixracı və hazırda həmin ölkələrin müdafiəsində istifadə olunması ilə əlaqədar, İnstitut alimləri tərəfinindən yaradılmış xüsusi təyinatlı motor yağı Pakistan, Banqladeş, Tayland və Mərakeşə ixrac olunacaq. Buradan belə nəticəyə gəlmək olar ki, Dövlət Mükafatına təqdim olunan kompleks elmi-tekniki iş təkcə ölkəmizin strateji məhsullara olan tələbatının ödənilməsi və müdafiə qüdrətinin yüksəldilməsinə deyil, eyni zamanda ixrac ediləcək bir çox ölkələrin də iqtisadi inkişafına və müdafiə qüdrətinin yüksəldilməsinə müəyyən töhfə verəcək.

Hazırda Azərbaycan işğal altında olan öz torpaqlarını döyüş meydanında azad etməklə Ermənistana tam qalib gəlib. Ancaq beynəlxalq güclərin dəstəyilə Ermənistanın silahlandırılması prosesi həyata keçirilir. Regionun iki ölkəsi arasında sülh danışıqları aparılsa da sərhədlərin delimitasiya və demarkasiyası prosesi məqsədli şəkildə yubadılır. Eyni zamanda Ermənistanda baş qaldıran seperatçı və revanşist qüvvələr zaman-zaman qisas alacaqlarını dilə gətirirlər. Həm də nəzərə alsaq ki, Cənubi Qafqaz tarixən beynəlxalq güc mərkəzlərin çirkin planlarının hazırlanıb münaqişə ocağına çevrildiyi yerdir, o zaman qarşıda yenidən hansısa silahlı münaqişənin olmayacağına heç kim zəmanət verə bilməz. Belə olan halda düşmənlərimizin beynəlxalq havadarları tərəfindən ölkəmizə qarşı iqtisadi sanksiyaların tətbiqi, o cümlədən strateji məhsul kimi silah və ya xüsusi təyinatlı yağların idxalına müəyyən qadağalar olunması mümkündür. Belə bir arzuolunmayan qərarlar veriləndə ölkəmizdə yuxarıda qeyd olunan müvafiq strateji məhsulların daxili imkanlarla istehsalı həm daxili tələbat ödəyəcək, idxal asılılığını aradan qaldıracaq, həm də ixrac olunaraq, ölkəmizin iqtisadi inkişafına töhfə verəcək. Nəzərə alsaq ki, sovet dövründə Aşqarlar Kimyası İnstitutu nəinki Azərbaycanın, SSRİ-nin sürtkü yağlarına olan tələbatının 20 faizini ödəyib, onda belə bir zərurət yaranarsa, əmin olmaq olar ki, İnstitut alimləri bu vəzifənin öhdəsindən tam gələ biləcək.

Beləliklə, Dövlət Mükafatına təqdim edilən kompleks elmi-texniki iş birmənalı olaraq həm fundamental-nəzəri, həm də tətbiqi işdir. Bu da o deməkdir ki, iş adıçəkilən mükafatın verilməsi üçün müəyyənləşdirilmiş əsas tələblərə tam cavab verən, elm və texnikanın inkişafına mühüm töhfələr verə biləcək fundamental və tətbiqi elmi araşdırmanın nəticəsi olmaqla, ölkəmizin iqtisadi inkişafı və müdafiə qüdrətinin artırılması hədəflərini özündə əks etdirir.

Bir sözlə, Aşqarlar Kimyası İnstitutu və Təcrübə-Sənaye zavodu MMC tərəfindən xüsusi təyinatlı motor yağının yaradılması sahəsində uğurla görülmüş işlərin nəticəsi kimi, "Xüsusi təyinatlı sürtkü yağlarının yaradılması və istehsalının təşkili" adlı kompleks elmi-texniki iş Azərbaycan Respublikasının texnika üzrə Dövlət Mükafatını almağa layiqdir.

*Misir MƏRDANOV,*
*Elm və Təhsil Nazirliyi Riyaziyyat və Mexanika İnstitutunun baş direktoru, AMEA-nın müxbir üzvü*

# Yaşıl velosiped yolları küçələrimizi "yaşıl" gələcəyə aparır

**Prezident İlham Əliyev tərəfindən 2018-ci ilin dekabrında imzalanan yol hərəkətinin təhlükəsizliyi haqda Dövlət Proqramına əsasən, ölkədə yol hərəkətinin təhlükəsiz vəziyyətə gətirilməsi, burada ətraf mühitin yaxşılaşdırılması, avtomobillərdən atılan zəhərli qazların miqdarının azaldılması, bir sözlə, respublika üzrə hərəkətin nizamlaşdırılması nəzərdə tutulub. Həmin sənəddə, eyni zamanda, avtomobil yollarında, küçə-yol şəbəkəsində velosiped zolaqlarının və duracaqlarının yaradılması, ekoloji təmiz nəqliyyat vasitələrinin istismarının stimullaşdırılması məsələləri də yer alıb.**

Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi (AYNA) tərəfindən cari ilin əvvəlindən etibarən Bakı şəhərində velosiped yollarının salınması istiqamətində hazırlanan layihənin icrasına başlanılıb. Layihənin ilkin mərhələsi Bakı şəhərinin əsasən mərkəzi hissələrini –Azərbaycan, Bülbül prospektlərini, İstiqlaliyyət, Mirzəağa Əliyev, Fikrət Əmirov küçələrini və Bulvar ərazisini əhatə edib.

Mərhələli şəkildə digər küçələrdə də bu tip velosiped zolaqlarının salınması planlaşdırılıb. Artıq bir müddətdir ki, müvafiq nişanlanma işlərinə start verilib. Növbəti mərhələdə yol nişanları, eyni zamanda, avtomobillərlə yarana biləcək münaqişəli nöqtələrin aradan qaldırılması üçün təhlükəsizlik sədlərinin quraşdırılmasına başlanılıb. Qeyd edək ki, 2027-ci ilədək 63 kilometr velosiped yolunun təşkili nəzərdə tutulub.

Hazırda Bakının 8 Noyabr prospektində hərəkət zolaqlarının sayı eyni saxlanılmaqla velosiped zolaqları salınır, ərazidə işıqlandırma səviyyəsinin yaxşılaşdırılması məqsədilə tədbirlər görülür. İşlər prospektin Yusif Səfərov küçəsinin Xəqani Rüstəmov küçəsi ilə kəsişməsinədək olan hissəsində aparılır. Ümumilikdə, prospekt boyunca 10 kilometrədək velosiped yollarının salınması nəzərdə tutulur. Sözügedən velosiped yolları "bufer zona"lar vasitəsilə yolun nəqliyyat vasitələri üçün nəzərdə tutulmuş hissəsindən ayrılır. Bundan başqa, prospekt boyunca mövcud piyada səkiləri bərpa olunur, kənarlarına yeni səki daşları düzülür.

Bakıda velosiped yolları layihəsi çərçivəsində yol kəsişmələrinə velosipedlərin hərəkətinin üstün olmasını ifadə edən, nəqliyyat vasitələri tərəfindən zolaqla hərəkət edən velosipedçi və skuterçilərə yol verilməsini şərtləndirən yaşıl rəngli boya çəkilib.

Velosipedçilərin hərəkət zamanı həmin yaşıl rəngli zolaqdan çıxması "Yol hərəkəti haqqında" qanunun tələblərininin pozulması, onların cərimələnməsi ilə nəticələnir. Velosiped zolağının tələbi avtobus zolağı kimi müvafiq yol nişanı ilə təchiz olunmaqla müəyyənləşdirilir. Bu isə həmin tələbə riayət etmək üçün qanuni məsuliyyət formalaşdırır. Başqa sözlə, velosipedçi öz zolağı olan yerdə başqa zolaqla hərəkət etdiyi halda ona cərimə tətbiq oluur. Bu "Yol hərəkəti haqqında" qanunun müvafiq maddəsində də öz ifadəsini tapır.

Ekspertlər qeyd edirlər ki, velosiped zolağına digər yol-hərəkət iştirakçılarının daxil olmaması üçün mühafizə olunur. Belə ki, həmin zolaq mühafizə ediməyibsə belə, orada maşın saxlamaq və ya təyinata uyğun gəlməyən şəxslərin daxil olması yolverilməzdir. Əgər bu, baş verərsə, yaranan vəziyyət dayanma-durma tələbinin və ya nişanın tələbinin pozulması kimi qiymətləndirilir. Velosiped zolağının olması ilə bağlı nişan qoyulubsa, təyinatı üzrə olmayan nəqliyyat vasitələrinin həmin əraziyə girişi qeyri-qanunidir.

Ekspertlər bildirirlər ki, skuter və velosipedlər üçün zolağın salınması normal addımdır. Çünki dünya təcrübəsində də avtobus, velosiped zolaqları var. Yeri gəlmişkən, inkişaf etmiş ölkələrdə belə düşünülür ki, şəhərin velosiped yolları varsa, deməli, həmin ərazidə ətraf mühitin, infrastrukturun və mədəniyyətin inkişafına xüsusi diqqət yetirilir. Üstəlik tıxacların çox olduğu meqapolislərdə velosiped yolları sakinlərə hərəkət azadlığı verir. Avropanın əksər ölkələrində velosipeddən geniş istifadə edilir, belə zolaqlara çox böyük önəm verilir. Paytaxtımızda da bu cür yolların salınması zəruri sayılır. Ona görə ki, velosiped zolaqlarının yaradılmadığı yollarda digər nəqliyyat vasitələrinin xətti ilə hərəkət edən velosipedçinin qəza təhlükəsi ilə üzləşməsinə daha çox rast gəlinir.

Araşdırmalara görə, dünyada istehlak edilən enerjinin və kükürd qazı tullantısının 20-25 faizi nəqliyyat sektorunun payına düşür. Yuxarıda qeyd etdiyimiz kimi, ətraf mühitin qorunması baxımından velosiped yollarının əhəmiyyəti böyükdür. Bakı şəhərində də velosiped zolaqlarının olması həm paytaxtın infrastruktu, həm də sakinlərin rahatlığı baxımından mühüm addım kimi dəyərləndirilir.

Təbii ki, velosiped və skuterlər üçün çəkilən zolaq müəyyən qədər sıxlığa səbəb olur və hərəkəti çətinləşdirir. Ancaq bununla bağlı tədbirlər də görülür. Zolağa girənlər cərimələnir. Digər tərəfdən, hökumt ictimai nəqliyyat növlərini artırmaq barədə məyyən layihələrin icrasını planlaşdırır.

Hazırda Bakı şəhərində velosiped nəqliyyatının təşviqi, bununla bağlı infrastrukturun qurulması istiqamətində davamlı tədbirlər həyata keçirilir. AYNA-nın velosiped nəqliyyatının inkişafına dair hazırladığı və şəhər mərkəzini, eləcə də ətraf əraziləri əhatə edən tədbirlər planı uğurla icra edilir. Beləliklə, paytaxtımızın velosiped yol şəbəkəsi sürətlə formalaşdırılır.

Yeri gəlmişkən, velosiped nəqliyyatının sağlam həyatın formalaşdırılması, həmçinin şəhərin ekoloji mühitinə faydalılığını nəzərə alaraq, AYNA ətraf mühitin mühafizəsi naminə beynəlxalq dialoq ictimai birliyi (IDEA) ilə bu istiqamətdə sıx əməkdaşlıq edir.

İndiyədək şəhərin mərkəzi küçə və prospektlərində, eləcə də Bulvar ərazisində velosiped yolunun inşası istiqamətində genişmiqyaslı iş görülüb. Sözügedən struktur mövcud norma və standartlara uyğun qurulub. Belə ki, velosiped infrastrukturunun iki istiqamətdə qurulması diqqətdə saxlanılıb. Birincisi, yol infrastrukturunun imkan verdiyi ərazilərdə təhlükəsizlik nəzərə alınmaqla və daha az vaxt sərf edilməklə müvafiq nişan və üfüqi nişanlama xətləri çəkilib. İkincisi isə velosiped yolu tikinti-quraşdırma işləri aparılmaqla gerçəkləşdirilib.

Qeyd edək ki, velosiped zolaqlarının və yollarının layihələndirilməsi ilk olaraq şəhərin mərkəzi hissəsində əsas maraq nöqtələrini birləşdirən marşrut xətləri üzrə nəzərdə tutulub. Daha sonra bu marşrutlar əlaqələndirilərək daha böyük velosiped yolları şəbəkəsinin təşkili planlaşdırılıb.

Bakıda ilk dəfə işıqforlarda velosiped bölmələrinin quraşdırılmasına başlanılıb. AYNA-nın məlumatına görə, məqsəd fərdi mobillik vasitələrinin təşviqi və istifadəçilərin təhlükəsizliyini artırmaqdır.Hazırda paytaxtın bəzi mərkəzi küçə və prospektlərində bu istiqamətdə texniki işlər həyata keçirilir.

***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***



## Ekspert rəyi



**Ərşad HÜSEYNOV,**
**nəqliyyat üzrə ekspert**

Ölkəmizdə, xüsusən də paytaxt Bakıda mikromobillik vasitələrinin real nəqliyyata çevrilməsi istiqamətində ciddi işlər görməyə ehtiyac var. Mikromobillik vasitələri dedikdə, əsasən velosipedlər və skuterlər, eləcə də müasir tələblərə, təhlükəsizlik qaydalarına cavab verən, fərdi qaydada istifadə edilə bilən digər ikitəkərli nəqliyyat vasitələri nəzərdə tutulur. Hesab edirəm ki, bu nəqliyyat vasitələrinin populyarlaşdırılması üçün çox işlər görmək lazımdır.

Bu işləri isə 4 istiqamətə bölmək olar. Həmin istiqamətlərdən birincisi mikromobillik vasitələrinin, velosipedlərin yaşayış məntəqələrinin küçələri ilə hərəkət etməsi, parklanması üçün infrastrukturun yaradılmasıdır. Dediyim infrastruktura isə velosiped zolaqları, velosiped yolları və parklanma yerləri kimi üç mühüm element daxildir. Yeri gəlmişkən, velosiped yolları ilə velosiped zolaqları fərqli anlayışlardır. Velosiped yolu avtomobil yolundan təcrid olunur, fiziki olaraq ondan ayrılır. Velosiped zolağı isə avtomobil yoluna bitişikdir, sadəcə olaraq xüsusi işarələnmiş xətlə avtomobillərin hərəkət zolaqlarından fərqləndirilir. Yəni, infrastrukturla bağlı işlər, əsasən, bundan ibarətdir.

İkinci istiqamətlə bağlı onu deyə bilərəm ki, ölkəmizdə velosipedin nəqliyyata çevrilməsi üçün ictimai şüurda, ictimai yanaşmada olan maneə aradan qaldırılmalıdır. Həmin maneəyə misal olaraq deyim ki, hazırda insanlarımızın düşüncəsində belə bir fikir hakimdir: "Mən hara, velosiped hara"? Belə yanaşma isə müəyyən ictimai statusa malik şəxslərdə daha aydın nəzərə çarpır. Düşünürəm ki, bunu aradan qaldırmaq istiqamətində bəzi nümunələr əsasında müəyyən işlər görülməlidir. Məsələn, insanlara, xüsusən də ictimaiyyət arasında tanınan şəxslərə təlqin etmək olar ki, velosiped sürmək daha məqsədəuyğundur, dünyanın hər yerində bu nəqliyyat vasitəsindən hamı istifadə edir.

Üçüncü istiqmət ölkəmizdə velosiped parkının yaradılması ilə bağlıdır. Bu zaman ölkəyə keyfiyyətli, müasir texniki təchizatı olan, yolda təhlükəsiz hərəkət üçün yararlı olan velosipedlər gətirilməlidir. Daxildə də bunun istehsalını təşkil etmək olar. İstehsalla bağlı çətinliklər olduğu təqdirdə bunu idxal da etmək olar. Yəni müasir velosiped parkı yaradılsa, istənilən adam onu götürüb yolda təhlükəsiz hərəkət edə bilər. Yeri gəlmişkən, uşaq oyuncağı və ya idman vasitəsindən fərqli olaraq nəqliyyat vasitəsi kimi istifadə edilən velosipedlər tam təhlükəsiz, həm də təchizatı və keyfiyyətli yüksək olmalıdır ki, ondan istifadə edən adamı yolda qoymasın, texniki nasazlıq səbəbindən qəzaya uğramasın.

Dördüncü istiqmət isə kifayət qədər çətin görünür. Bunun üçün velosiped idarə edənlərə intizamla, qayda-qanun çərçivəsində, yol hərəkəti qaydalarına, işıqforun, nişanın və xəttin tələblərinə riayət etməklə hərəkət etməsini öyrətmək lazımdır. Eyni zamanda, digər hərəkət iştirakçıları, məsələn piyadalar da, avtomobil sürücüləri də velosipedlə yanaşı hərəkət etməlidirlər. Bunu da cəmiyyətə aşılamaq vacibdir. Sadaladığım bu dörd istiqaməti çərçivəsində bütün işlər paralel həyata keçirilməlidir. Bütün bunlarla yanaşı, 2018-ci ildə qəbul olunmuş "Yol hərəkətinin təhlükəsizliyinə dair Dövlət Proqramı"nın reallaşdırılması, ölkəmizdə tıxacların aradan qaldırılması, sağlam həyat tərzinin təbliği, "yaşıl" texnologiyalara, "yaşıl" yanaşmalara keçid üçün velosipeddən istifadənin təşviq olunması, genişləndirilməsi və populyarlaşdırılması istiqamətində işlər görülməlidir.

Həmin işlərdən ən vacibi küçələrdə velosiped zolaqlarının yaradılması ilə bağlıdır. Velosiped yolları və velosiped zolaqları o vaxt səmərə verər ki, şəbəkələşmiş olsun. Yəni, bu yol və zolaqlarla şəhərin bu başından o başınadək rahat getmək imkanı yaradılsın. Artıq bu istiqamətdə lazımi işlər görülür. Təbii ki, bu işlər hamı tərəfindən eyni cür qarşılanmır. Ümumiyyətlə, görülən işlərlə paralel olaraq, həm də ictimai nəqliyyat inkişaf etdirilməlidir. Yeri gəlmişkən, dünya təcrübəsinə nəzər salsaq, görərik ki, hər hansı bir şəhərdə normal, müasir infrastruktur yaratmaq, tıxacları azaltmaq, eləcə də əhali mobilliyini yaxşılaşdırmaq üçün bir nömrəli hədəf kimi ictimai nəqliyyatın inkişaf etdirilməsi əsas götürülür. Çünki ictimai nəqliyyat: metro, avtobus, tramvay və s. inkişaf etdiriləndə insanlar fərdi avtomobillərindən və taksilərdən az istifadə edirlər. Belə olduqda küçələrin yenidən bölüşdürülməsi üçün yaxşı imkan yaranır. Bəs, yenidən bölüşdürülmə nədir? Gördüyümüz kimi, hazırda küçə və prospektlərimizdə velosiped yolları, velosiped zolaqları yaradılır. Hündürmərtəbəli binaları isə söküb yerində velosiped zolaqları salmaq, praktiki olaraq, mümkün deyil. Həm də səmərəli sayılmır. Məhz bu səbəbdən də mövcud yolların yenidən bölüşdürülməsi məqsədəuyğun hesab olunur. Yenidən bölüşdürülmə isə qeyd etdiyim sxem əsasında aparıldıqda ictimai nəqliyyat yenilənir, müasirləşir, təkmilləşir və insanlar üçün əlçatan olur. Həm də ictimai nəqliyyat qrafik əsasında işləsə, əhali ondan istifadə etməyə daha çox üstünlük verər. Üstəlik də, velosiped zolaqları kifayət qədər olsa, insanlar istədikləri vaxt avtobusla və ya velosipedlə hərəkət edə bilərlər.

Amma çox təəssüf ki, hazırda bizdə ictimai nəqliyyat yerində sayır, hətta tənəzzülə doğru gedir. Əhali mobilliyinin təmin olunmasında əsas həlledici rolu fərdi avtomobillər və taksilər oynayır. Ona görə də velosiped zolaqları və ya yolları yaradılanda bəziləri deyir ki, qoymayın, yolumuzu əlimizdən aldılar, yolumuzu kəsdilər. Bax, bu işlər paralel getsə, hər şey gözəl olar. Zolaq çəkilməklə bərabər, ictimai nəqliyyatın populyarlaşdırılmasına da nail olmaq lazımdır ki, görülən işlər öz səmərəsini versin. Cəmiyyət də bunu çox anlayışla qarşılasın. Görsün ki, hər şey gözəldir. Belə olsa, narazılıq edənlər də fikirlərini dəyişməyə başlayacaqlar.

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 231** **Bakı şəhəri, 25 aprel 2024-cü il**

***"Dəmiryol nəqliyyatı təyinatlı torpaqların sərhədlərinin kağız üzərində və elektron formada (ArcGİS proqramında mdb formatda) aktual qrafik təsviri"nin təsdiq edilməsi haqqında***

"Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 20 iyul tarixli 383 nömrəli Sərəncamında dəyişikliklər edilməsi və Səhmdar Cəmiyyətinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər barədə" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 18 sentyabr tarixli 622 nömrəli Fərmanının 2.6-1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Dəmiryol nəqliyyatı təyinatlı torpaqların sərhədlərinin kağız üzərində və elektron formada (ArcGİS proqramında mdb formatda) aktual qrafik təsviri" təsdiq edilsin (əlavə olunur).

**2.** Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti bu Qərarın 1-ci hissəsində nəzərdə tutulmuş dəmiryol nəqliyyatı təyinatlı torpaqların sərhədləri (dəmir yolunun təhkim zolağı və xüsusi mühafizə zonasının da hüdudları, döngə nöqtələri və onların koordinatları göstərilməklə) barədə məlumatları dövlət torpaq kadastrına daxil etsin və həmin torpaqlar üzərində hüquqların daşınmaz əmlakın dövlət reyestrində qeydiyyata alınmasını təmin etsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Mərkəzi icra hakimiyyəti orqanlarının və digər idarəetmə qurumlarının rəhbərləri tərəfindən 2024-cü ilin may ayında şəhər və rayonlarda keçiriləcək vətəndaşların qəbulu cədvəli

| S/n | Qəbulu keçirən mərkəzi icra hakimiyyəti orqanı və idarəetmə qurumunun rəhbəri | Qəbulun keçirildiyi şəhər, rayon | Əhatə olunan şəhər və rayonlar | Qəbulun keçirildiyi gün |
|---|---|---|---|---|
| 1. | **Baş prokuror** Kamran Əliyev | Tərtər | Tərtər, Ağdam, Bərdə, Goranboy, Xocalı | 03 |
| 2. | **Qida Təhlükəsizliyi Agentliyinin sədri** Qoşqar Təhməzli | Ucar | Ucar, Kürdəmir, İmişli, Saatlı, Sabirabad, Zərdab | 03 |
| 3. | **Mədəniyyət naziri** Adil Kərimli | Quba | Quba, Qusar, Xaçmaz, Şabran, Siyəzən | 06 |
| 4. | **Gənclər və idman naziri** Fərid Qayıbov | Naxçıvan | Naxçıvan, Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz, Şərur | 07 |
| 5. | **Baş prokuror** Kamran Əliyev | Göyçay | Göyçay, Kürdəmir, İsmayıllı, Qəbələ | 14 |
| 6. | **Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri** Ramin Məmmədov | Yevlax | Yevlax, Mingəçevir, Bərdə, Ağdaş | 14 |
| 7. | **Daxili işlər naziri** Vilayət Eyvazov | Yardımlı | Yardımlı, Lənkəran, Astara, Lerik, Masallı | 15 |
| 8. | **Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi** Mürsəl İbrahimov | Masallı | Masallı, Lənkəran, Astara, Lerik, Cəlilabad, Yardımlı | 15 |
| 9. | **Ədliyyə naziri** Fərid Əhmədov | Tovuz | Tovuz, Şəmkir, Gədəbəy | 17 |
| 10. | **Elm və təhsil naziri** Emin Əmrullayev | Masallı | Masallı, Lənkəran, Astara, Lerik, Cəlilabad, Yardımlı | 17 |
| 11. | **Fövqəladə hallar naziri** Kəmaləddin Heydərov | Naxçıvan | Naxçıvan, Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz, Şərur | 17 |
| 12. | **Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri** Zaur Mikayılov | Ağsu | Ağsu, İsmayıllı | 17 |
| 13. | **"Azəriqaz" İstehsalat Birliyinin baş direktoru** Azər Məmmədov | **Füzuli** (Horadiz şəhəri) | Füzuli, Beyləqan, Xocavənd | 17 |
| 14. | **Rəqəmsal inkişaf və nəqliyyat naziri** Rəşad Nəbiyev | Şəki | Şəki, Oğuz, Qax, Zaqatala, Balakən | 18 |
| 15. | **Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri** Ramin Məmmədov | Şamaxı | Şamaxı, Ağsu, İsmayıllı, Qobustan | 23 |
| 16. | **Dövlət Gömrük Komitəsinin sədri** Şahin Bağırov | Ağcabədi | Ağcabədi, Ağdam, Beyləqan, Bərdə, Zərdab, Xocavənd | 23 |
| 17. | **Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri** Anar Quliyev | Qazax | Qazax, Ağstafa, Tovuz, Şəmkir, Gədəbəy | 23 |
| 18. | **Energetika naziri** Pərviz Şahbazov | Ağcabədi | Ağcabədi, Beyləqan, Füzuli, Ağdam, Bərdə, Zərdab, Xocavənd | 24 |
| 19. | **İqtisadiyyat naziri** Mikayıl Cabbarov | Ağsu | Ağsu, İsmayıllı | 24 |
| 20. | **Kənd təsərrüfatı naziri** Məcnun Məmmədov | Yevlax | Yevlax, Mingəçevir | 24 |
| 21. | **Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin sədri** Saleh Məmmədov | **Ağdam** (Quzanlı qəsəbəsi) | Ağdam, Ağcabədi, Laçın | 24 |
| 22. | **İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin sədri** Zaur Əliyev | Göyçay | Göyçay, Ağdaş, Ucar | 24 |
| 23. | **"Azəristiliktəchizat" ASC-nin sədrinin vəzifəsini müvəqqəti icra edən** İlham Mirzəliyev | Ağstafa | Ağstafa, Qazax, Tovuz | 24 |
| 24. | **Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri** Rövşən Rzayev | Kürdəmir | Kürdəmir, Ucar, Zərdab | 27 |
| 25. | **Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri** Bahar Muradova | Qobustan | Qobustan, Şamaxı | 29 |
| 26. | **"Azərişıq" ASC-nin sədri** Vüqar Əhmədov | Şəki | Şəki, Qax | 29 |
| 27. | **Əmək və əhalinin sosial müdafiəsi naziri** Sahil Babayev | Gədəbəy | Gədəbəy, Şəmkir | 31 |

Vətəndaşların qəbulu müəyyən edilmiş günlərdə saat 10:00-da başlayır.

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 226** **Bakı şəhəri, 24 aprel 2024-cü il**

***"Azərbaycan Dövlət Aqrar Universiteti" publik hüquqi şəxsin nəzdində "Gəncə Dövlət Aqrar Kolleci" publik hüquqi şəxsin yaradılması haqqında***

"Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 97-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 3 fevral tarixli 759 nömrəli Fərmanının 2.5.2-ci yarımbəndinə uyğun olaraq, Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin təklifinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində fəaliyyət göstərən "Azərbaycan Dövlət Aqrar Universiteti" publik hüquqi şəxsin nəzdində "Gəncə Dövlət Aqrar Kolleci" publik hüquqi şəxs yaradılsın.

**2.** Bu Qərarın 1-ci hissəsi ilə yaradılan publik hüquqi şəxsin təsisçisinin səlahiyyətlərinin həyata keçirilməsi aşağıdakılara həvalə edilsin:

2.1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə publik hüquqi şəxsin yenidən təşkili və ləğv edilməsi;

2.2. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyinə bu Qərarın 2.1-ci bəndində qeyd edilənlər istisna olmaqla, "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikası Qanununun 8.2-ci maddəsi ilə publik hüquqi şəxsin təsisçisinin səlahiyyətlərinə aid edilmiş digər məsələlərin həll edilməsi.

**3.** Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi:

3.1. Gəncə Dövlət Aqrar Kollecinin dövlət qeydiyyatına alınması üçün "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada tədbirlər görsün;

3.2. bu Qərardan irəli gələn digər məsələləri həll etsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 227** **Bakı şəhəri, 24 aprel 2024-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Uşaqların dövlət və bələdiyyə tərəfindən yaradılan ailə tipli kiçik qrup evlərinə qəbulu, qrup evlərini tərk etməsi, qrup evlərində xidmətin təşkili, həmçinin qrup evlərində uşaqların təminatı və yaşayış şəraitinə dair Qaydalar"ın təsdiq edilməsi haqqında" 2021-ci il 26 aprel tarixli 111 nömrəli və "Uşaqların dövlət və bələdiyyə tərəfindən yaradılan uşaq evləri sosial xidmət müəssisələrinə qəbulu, həmin müəssisələri tərk etməsi, uşaq evlərində xidmətin təşkili, həmçinin uşaq evlərində uşaqların təminatı və yaşayış şəraitinə dair Qaydalar"ın təsdiq edilməsi haqqında" 2021-ci il 26 aprel tarixli 112 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 26 aprel tarixli 111 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 4, maddə 414 (Cild I); 2024, № 1, maddə 110) ilə təsdiq edilmiş "Uşaqların dövlət və bələdiyyə tərəfindən yaradılan ailə tipli kiçik qrup evlərinə qəbulu, qrup evlərini tərk etməsi, qrup evlərində xidmətin təşkili, həmçinin qrup evlərində uşaqların təminatı və yaşayış şəraitinə dair Qaydalar"ın 2.3.10-cu yarımbəndi aşağıdakı redaksiyada verilsin:

"2.3.10. aktiv hava-damcı yolu ilə keçən və ya dəri-zöhrəvi yoluxucu xəstəliklərin olmaması, habelə təhlükəli yoluxucu xəstəliklər və psixi sağlamlıq vəziyyəti barədə məlumat göstərilməklə, uşağın sağlamlığı haqqında tibbi arayış.".

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 26 aprel tarixli 112 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 4, maddə 415 (Cild I); 2024, № 1, maddələr 75, 110) ilə təsdiq edilmiş "Uşaqların dövlət və bələdiyyə tərəfindən yaradılan uşaq evləri sosial xidmət müəssisələrinə qəbulu, həmin müəssisələri tərk etməsi, uşaq evlərində xidmətin təşkili, həmçinin uşaq evlərində uşaqların təminatı və yaşayış şəraitinə dair Qaydalar"ın 2.3.10-cu yarımbəndi aşağıdakı redaksiyada verilsin:

"2.3.10. aktiv hava-damcı yolu ilə keçən və ya dəri-zöhrəvi yoluxucu xəstəliklərin olmaması, habelə təhlükəli yoluxucu xəstəliklər və psixi sağlamlıq vəziyyəti barədə məlumat göstərilməklə, uşağın sağlamlığı haqqında tibbi arayış.".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 230** **Bakı şəhəri, 24 aprel 2024-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 15 iyul tarixli 308 nömrəli Qərarı ilə təsdiq edilmiş "İlkin mediasiya sessiyası zamanı mediasiya xidmətinin göstərilməsinə görə haqqın və digər xərclərin məbləği"ndə və 2019-cu il 5 sentyabr tarixli 385 nömrəli Qərarı ilə təsdiq edilmiş "Mediasiya prosesinin həyata keçirilməsi Qaydası"nda dəyişiklik edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Mediasiya haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 26 dekabr tarixli 1079-VIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 15 iyul tarixli 308 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 7, maddə 1331 (Cild I) ilə təsdiq edilmiş "İlkin mediasiya sessiyası zamanı mediasiya xidmətinin göstərilməsinə görə haqqın və digər xərclərin məbləği"nin cədvəlinin 3-cü hissəsi ləğv edilsin.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 5 sentyabr tarixli 385 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 9, maddə 1539 (Cild I) ilə təsdiq edilmiş "Mediasiya prosesinin həyata keçirilməsi Qaydası"nın 7.2-ci bəndindən "kommersiya mübahisələri, həmçinin" sözləri çıxarılsın.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 229** **Bakı şəhəri, 24 aprel 2024-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 6 noyabr tarixli 177 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dövlət müəssisə və təşkilatlarının, habelə nizamnamə kapitalında dövlətin payı olan müəssisələrin balansında olan yararsız hala düşmüş, həmçinin oğurlanmış və ya naməlum şəraitdə itmiş əsas vəsaitlərin (fondların) silinməsi və bu vəsaitlərin söküntüsündən əldə edilən material qiymətlilərinin satışı üzrə Qaydalar"da dəyişiklik edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 6 noyabr tarixli 177 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 11, maddə 965 (Cild I) ilə təsdiq edilmiş "Dövlət müəssisə və təşkilatlarının, habelə nizamnamə kapitalında dövlətin payı olan müəssisələrin balansında olan yararsız hala düşmüş, həmçinin oğurlanmış və ya naməlum şəraitdə itmiş əsas vəsaitlərin (fondların) silinməsi və bu vəsaitlərin söküntüsündən əldə edilən material qiymətlilərinin satışı üzrə Qaydalar"da aşağıdakı dəyişikliklər edilsin:

**1.** 2.5-ci bəndin birinci cümləsində "25,0 milyon" sözləri "5000" rəqəmləri ilə əvəz edilsin və həmin bəndin ikinci cümləsində "Əmlak Məsələləri Dövlət Komitəsinin" sözləri "İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin (bundan sonra – Xidmət)" sözləri ilə əvəz edilsin.

**2.** 2.6-cı bənddə "25,0 milyon" sözləri "5000" rəqəmləri ilə və həmin bənddə "Əmlak Məsələləri Dövlət Komitəsindən" sözləri "Xidmətdən" sözü ilə əvəz edilsin.

**3.** 2.7-ci bənddə "avtomobil nəqliyyatı" sözləri "daşınmaz dövlət əmlakı və nəqliyyat" sözləri ilə, həmin bənddə və 2.8-ci bəndin birinci abzasında ismin müvafiq hallarında "Əmlak Məsələləri Dövlət Komitəsi" sözləri ismin müvafiq hallarında "Xidmət" sözü ilə əvəz edilsin.

**4.** 2.9-cu bəndin birinci abzasında "gündən gec olmayaraq" sözləri "gün müddətində, əlavə araşdırma tələb edilən hallarda isə 15 gün müddətinə uzadılmaqla" sözləri ilə və həmin bəndin birinci və ikinci abzaslarında "Əmlak Məsələləri Dövlət Komitəsi" sözləri "Xidmət" sözü ilə əvəz edilsin.

**5.** Aşağıdakı məzmunda 2.9-1-ci bənd əlavə edilsin:

"2.9-1. Təqdim edilmiş sənəd və məlumatların ilkin təhlili zamanı balansdan silinməsi nəzərdə tutulan əsas vəsaitlərin istismara və digər sahələrdə istifadəyə yararlılığı müəyyən edildiyi halda, həmin əsas vəsaitlərin (fondların) səmərəli istifadə imkanlarının araşdırılması məqsədilə bu Qaydanın 2.9-cu bəndi ilə müəyyən edilmiş müddət ərzində yerində baxış keçirilir və baxış aktı tərtib edilir. Balansdan silinməsi nəzərdə tutulan əsas vəsaitlərə (fondlara) baxış keçirilməsi üçün zəruri şərait yaradılması balanssaxlayıcı tərəfindən təmin edilir.

Xidmətin rəsmi qaydada müsbət rəyi alınanadək silinməyə təqdim edilmiş əsas vəsaitlərin mövcud vəziyyətinin qorunub saxlanılmasına görə balanssaxlayıcı mülki məsuliyyət daşıyır.

Balansdan silinməsi nəzərdə tutulan daşınmaz dövlət əmlakının vəziyyətinin qənaətbəxş və səmərəli istifadə imkanlarının olduğu müəyyən edilərsə, balanssaxlayıcı və Xidmət tərəfindən həmin daşınmaz dövlət əmlaklarının səmərəli istifadəsinin təmin edilməsi istiqamətində Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 6 iyun tarixli 586 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında dövlət əmlakının idarə edilməsinin təkmilləşdirilməsi üzrə Dövlət Proqramı"na uyğun olaraq zəruri tədbirlər görülür.

Balansdan silinməsi nəzərdə tutulan daşınar dövlət əmlakının (o cümlədən nəqliyyat vasitələrinin və ya onların hissələrinin) tərtib edilmiş baxış aktına əsasən istifadəyə və ya satışa yararlı olması müəyyən edilərsə, həmin əmlakın açıq hərrac yolu ilə satışı həyata keçirilir.".

**6.** 2.11-ci bənd aşağıdakı redaksiyada verilsin:

"2.11. Azərbaycan Respublikasının Prezidenti tərəfindən müəyyən edilmiş hallar istisna olmaqla, xüsusi əhəmiyyətli əsas vəsaitlərin (fondların) silinməsi barədə Xidmət tərəfindən rəy Azərbaycan Respublikasının Nazirlər Kabineti ilə razılaşdırılmaqla verilir.

Xüsusi əhəmiyyətli əsas vəsaitlərin (fondların) silinməsinin razılaşdırılması məqsədilə zəruri sənəd və məlumatlar Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim edilir.".

**7.** 2.14-cü bənddə "Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsinin" sözləri "Xidmətin" sözü ilə əvəz edilsin.

**8.** Aşağıdakı məzmunda 3.5-ci bənd əlavə edilsin:

"3.5. Əsas vəsaitlərin (fondların) söküntüsündən əldə edilən mal-materialların və metal qırıntılarının satışından sonra 10 (on) iş günü müddətində təsdiqedici sənəd və məlumatlar balanssaxlayıcı və ya baş idarəetmə orqanı tərəfindən Xidmətə təqdim edilir.".

**9.** Həmin Qaydalara 1 nömrəli əlavədə "ƏMLAKIN (QİYMƏTLİLƏRİN) LƏĞVİ AKTI" cədvəlinə "Məbləği" sütunundan sonra "Qalıq balans dəyəri" sütunu əlavə edilsin və həmin əlavənin "Qeyd" hissəsinin ikinci abzasında "25 milyon manatadək (25 milyon manatdan yuxarı olduğu halda Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsinin müvafiq rəyi əsasında)" sözləri "5000 manatadək (5000 manatdan yuxarı olduğu halda Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin müvafiq rəyi əsasında)" sözləri ilə əvəz edilsin.

**10.** Həmin Qaydalara 2 nömrəli əlavədə "AVTOMOBİL NƏQLİYYATI VASİTƏLƏRİNİN LƏĞVİ AKTI"nın adında "AVTOMOBİL NƏQLİYYATI" sözləri "NƏQLİYYAT" sözü ilə, mətnində "avtomobil nəqliyyatı" və "avtonəqliyyat" sözləri "nəqliyyat" sözü ilə əvəz edilsin və həmin əlavənin "Qeyd" hissəsinin ikinci abzasında "Əmlak Məsələləri Dövlət Komitəsinin" sözləri "İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin" sözləri ilə əvəz edilsin.

**11.** Həmin Qaydalara 3 nömrəli əlavənin "Qeyd" hissəsinin ikinci abzasında "Əmlak Məsələləri Dövlət Komitəsinin" sözləri "İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# "Kəlağayı festivalı"nın əlvan rəngləri





**Xətai Rayon İcra Hakimiyyətinin dəstəyi, "Mirvarid Dilbazi Poeziya Məclisi"nin təşəbbüsü və təşkilatçılığı ilə "Sazlı-sözlü kəlağayı günləri" layihəsi çərçivəsində "Kəlağayı festivalı" keçirilib.**

Paytaxtın Ukrayna dairəsindəki Heydər Əliyev parkında düzənlənən festivalda əvvəlcə sərgi ilə tanışlıq oldu. Xətai Rayon İcra Hakimiyyətinin başçısı Rafiq Quluyev, YAP Xətai rayon təşkilatının sədri Vüqar Rəhimzadə, şeir-sənət adamları, şəhid ailələrinin üzvləri, rayon ictimaiyyətinin nümayəndələri sərgidə nümayiş etdirilən möcüzəli qadın baş örtüklərinə – qədim kəlağayı sənət nümunələrinə maraqla baxdılar.

Onu da qeyd edək ki, ekspozisiyada göz oxşayan "Bəstə-nigar", "Gəlinlik", "Qızılı", "Mixəyi", "Noxudu", "Yaşıl-qara", "Zeytun", "Bənövşəyi", "Ağzəmin-zanbağı", "Ağzəmin-qızılı" kimi gözoxşayan nümunələr elə Xətai rayonu ərazisində yerləşən "Kəlağayı muzeyi"ndə qorunan eksponatlardır. Həmin muzeyi "Mirvarid Dilbazi Poeziya Məclisi"nin sədri, saz-söz sənətinə bağlı şair Güllü Eldar Tomarlı öz evində yaradıb. Sərgidə Şamaxı, Şəki və İsmayıllıda istehsal olunan müasir kəlağayılar da həm nümayiş etdirilir, həm də satılırdı. Bahar mehində "qımışan" ipək örpəklər göz-könül oxşayırdı. Rəsm əsərləri, əl işləri isə sərgiyə əlavə rəng qatırdı.

Şərq motivləri əsasında basma üsulu ilə bəzənib haşiyələnən, gözəl butaları ilə diqqət çəkən ipək kəlağayıların dünyaca şöhrətli olması fərəh doğurur. Düz 10 il əvvəl Heydər Əliyev Fondunun rəhbəri Mehriban Əliyevanın xidmətləri sayəsində Azərbaycan kəlağayısı UNESCO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına daxil edilib. Beləcə, göz-könül oxşayan bu baş örtüyü xalqımıza məxsus milli-mənəvi dəyər kimi beynəlxalq səviyyədə təsdiqlənib.

Sərgi ilə tanışlıqdan yetərincə duyğulanan seyrçilər sonra parkdakı amfiteatra toplaşdılar. Orada festivalın rəsmi açılışı oldu. "Mirvarid Dilbazi Poeziya Məclisi" İctimai Birliyin sədri, saz-söz sənətinə bağlı şair Güllü Eldar Tomarlı milli varlıq nişanəsi olan kəlağayının tarixi və bugünü barədə danışdı, yubiley münasibətilə gerçəkləşdirilən layihə barədə məlumat verdi. Azərbaycanın ali təhsil ocaqlarında, ümumtəhsil məktəblərində, müxtəlif bölgələrdə silsilə yubiley tədbirlərinin keçirildiyini bildirdi. Festivalın baş tutmasında rolu olan qurumlara minnətdarlığını çatdırdı.

Xətai Rayon İcra Hakimiyyətinin şöbə müdiri Pənah İmanov qədim el sənətlərinə, əsrlərin sınağından üzüağ çıxıb gələn digər milli-mənəvi dəyərlərimizə dövlət qayğısından, "Kəlağayı festivalı"nın milli irsin tanıdılmasında önəmli rolundan bəhs etdi və ona uğurlar arzuladı. Digər natiqlər də festivalla bağlı fikirlərini bölüşdülər, bu kimi tədbirlərin milli irsin təbliğində, tariximizin tanıdılmasında, gənc nəslin tərbiyəsində mühüm əhəmiyyəti olduğunu qeyd etdilər.




Bədii hissədə tanınmış müğənnilər, aşıqlar, şairlər çıxış etdilər. Əlvan konsert proqramı hamını valeh etdi. Xanımların baş tacı, həya, ismət nişanəsi olan kəlağayı haqqında bilgiləri zənginləşdirən festival əsl el bayramı səviyyəsində keçdi.

Silsilə tədbirlər ilin sonuna qədər davam edəcək və yekun olaraq, noyabrın 26-da Azərbaycanda möhtəşəm "Kəlağayı Günü" keçiriləcək.

***Əli NƏCƏFXANLI,***
***Elşən AĞALAR (foto)***
***XQ***

# "Halay" nəğməli könülləri haraylayır



**Masallının məşhur "Halay" etnik folklor ansamblının bu il 65 yaşı tamam olur. İlk gündən bölgənin folklor örnəklərini təbliğ etməsi, Azərbaycan və talış dillərində şən mahnıları, milli geyimdə şux rəqsləri ilə hamını heyran qoyan "Halay" gur bulaq kimi çağlamaqdadır.**

Mahmudavar kəndinin gənc sakini Ümbülbanu Cəbiyeva gözəl səsi və rəqsləri ilə tanınıb. Fəal özfəaliyyətçi olduğu üçün hələ 20 yaşında ikən kənd klubuna müdir təyin edilib. Bakıda görüşdüyü məşhur opera aktrisası, SSRİ Xalq artisti Şövkət Məmmədova ona məsləhət görüb ki, talış qızlarını başına toplayıb folklor kollektivini yaratsın. O da kəndə qayıdan kimi Xanımgül Kərimovanı, Həbibə Nağıyevanı və digər rəfiqələrini dilə tutaraq, aşkarda oxuyub-oynamağa razı salıb. Özfəaliyyət sahəsində müəyyən təcrübəsi olan anası Ağabacı xanımın səhnə tərtibatı və əməli köməyi ilə qrup formalaşıb. Masallı qızları ilk dəfə Bakıda keçirilən festivalda uğurlu çıxışlarına görə mükafat alıblar. Kollektiv 1959-cu ildə ansambl kimi rəsmən təsdiq olunub, status qazanıb. Get-gedə şöhrətlənən kollektiv illər ərzində xalq incilərini toplayaraq onlara təzə nəfəs verib, özünəməxsus şəkildə təqdim edib.

"Halay" dəfələrlə Rəşid Behbudov, Müslüm Maqomayev, Zeynəb Xanlarova və digər korifey sənətkarlarla eyni səhnəni bölüşüb. Nəsillər dəyişsə də, ansamblın qədim bayatı, nəğmə və rəqslərə sevgisi zərrəcə dəyişməyib.

...Yenə də "Halay"a baxırıq. Folklor şedevrlərini, koloritli musiqi parçalarını sərgiləyir. Gəlin köçürməmişdən qabaq ifa edilən "Masallı toyu", "Lo-lo", "Sonalar" əsl el şənliyi təəssüratı yaradır. "A yordu-yordu" etnoqrafik musiqili səhnəciyində tərəflər üzbəüz dayanıb deyişirlər. Bu deyişmə, bir növ, yumorlu təsir bağışlayır. Axırda yorulan tərəf uduzmuş hesab olunur. "Ay ləli, yar" "Talışo mey", "Kinəli", "Yallı", "Səməni" olduqca dinamik ifalardır. Biri ortada dayanıb başlıq oxuyur, sağında, solunda duranlarsa başlığı təkrarlayaraq onu sanki müşayiət edirlər. Qızlar oxuyub-oynadıqca ecazkar ifalarının səsi-sorağı dağlarda əks-səda yaradır.



Ümbülbanu Cəbiyevadan sonra ansambla onun qızı – Masallı Mədəniyyət Mərkəzinin Mahmudavar Folklor Evinin direktoru Natəvan Əliyeva rəhbərlik edir. Natəvan xanım əlindən gələni edir ki, kollektiv ənənələri layiqincə yaşatsın. Bütün el bayramlarında "Halay" öz kəndlərində, Ərkivan qəsəbəsində, qonşu rayonlarda çıxışlar edir və özünün "alov" dilimləri ilə ətrafına toplaşanların ürəyini isidir, gözünü işıqlandırır.

– Anam bu sənəti anasından öyrənib, mən də ondan, – deyə söhbət edir. – Ənənəni yaşatdığımıza görə xoşbəxtik. Qızlarımız sağ olsunlar, əl-ələ verib el şənliklərinə oynaq ruh qatırlar, konsertlərdə, festivallarda şux, qıvraq ifaları ilə ovqat yaradırlar. Ötən ay Azərbaycanın elə televiziya kanalı olmadı ki, bizi Novruz proqramlarına dəvət etməsin. Masallıda, Lənkəranda da uğurlu çıxışlar elədik.

Kollektivin mükafatlar kolleksiyası zəngindir. "Halay" Masallını dünyaya tanıdıb. "Qızıl Buta", "Qızıl Balta" beynəlxalq mükafatları, medallar, diplomlarla təltif olunub. Rusiya, Ukrayna, Belarus, İraq, Gürcüstan, Macarıstan və digər ölkələrdə "Halay" dəfələrlə konsertlər verib. Haqqında filmlər çəkilmiş, kitablar yazılmış kollektivin Türkiyənin 15 şəhərində yaddaqalan çıxışları olub. Bir yaz Novruz ərəfəsində qardaş ölkəyə qastrol səfərinə yollanan ansambl üzvləri özləri ilə bayram atributu olan səməni, şəkərbura, paxlava, noğul və başqa sovqatlar da götürüblərmiş. Konsertlərin birində Türkiyənin ovaxtkı baş naziri, hazırkı Prezidenti Rəcəb Tayyib Ərdoğan "Halay"ın üzvləri ilə görüşüb onları təbrik edib. Onlar da öz növbələrində baş nazirə yaz simvolu olan yaşıl səməni veriblər...

"Halay"ın hazırda 18 üzvü var. Yarısı veteranlardır, yarısı da gənclər. Onlarla tanış oluruq. Veteranlar Ağabəyim Hacıyeva, Gülzar Nağıyeva, Təranə Hacıyeva, Məhbubə Nuriyeva, Mehparə Qulamova kollektivin səfərlərini, rəsmi tədbirlərdə ifalarını xatırlayırlar. Gənclərdən Fəridə Babayeva, Rufanə Fərəcova, Gülər və Şəbnəm İsgəndərovalar həm də qohum-əqrabadırlar.

– Bu sənətin layiqli davamçısı olmağımızla fəxr edirik, – deyə biri bildirir.

Digəri rəfiqəsinin sözünə qüvvət olaraq əlavə edir:

– Düz 10 il əvvəl Masallıda Prezident İlham Əliyevin qarşısında uğurla çıxış etməyimizi fəxrlə xatırlayıram. Əvvəlcə çox həyəcanlı idik, amma bu, tez keçdi. Axırda dövlət başçısı bizimlə səmimi söhbət də elədi.

– Şuşada, Cıdır düzündə V Beynəlxalq "Xarıbülbül" festivalındakı çıxışımız da möhtəşəm olub, – deyə başqa bir ifaçı söhbətə qatılır. – Azadlığına qovuşmuş Qarabağda konsertdə çıxış eləmək böyük səadət idi. Bu günləri bizə yaşadanlar var olsunlar!

Sonra qızlar səhnəyə, yeni bir kompozisiyanın məşqinə çağrılırlar. Bunun qarşıdakı sənət yarışmalarına hazırlıq mənasına gəldiyini düşünüb, uğurlar diləyir və sağollaşırıq.

İnanırıq ki, multikultural dəyərlərə dövlət səviyyəsində diqqət göstərilməsindən məmnun olan "Halay"ın səhnələrdə hələ çox harayını, sorağını eşidəcək və fəxr edəcəyik.

***Ə.DOSTƏLİ***
***XQ***

**Böyük türk ailəmiz**

# Bakıda tarixə dönən qardaş qırğız günləri

**Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Azərbaycan Dövlət Akademik Musiqili Teatrında Qırğız Mədəniyyəti Günlərinin təntənəli bağlanış mərasimi olub. Tədbirdə rəsmi şəxslər, hər iki ölkənin mədəniyyət və incəsənət xadimləri, ictimaiyyət nümayəndələri və digər qonaqlar iştirak ediblər.**



Mərasimdə çıxış edən Qırğız Respublikasının mədəniyyət, informasiya, idman və gənclər siyasəti naziri Altınbek Maksutov Qırğız Mədəniyyət Günlərinin 2 dövlət arasında mədəni əlaqələr baxımından daha da inkişaf etməsində böyük rolu olduğunu vurğuladı. Bugünkü əməkdaşlığın gələcəyə nikbin baxmağa şərait yaratdığını bildirən nazir dedi: "Mədəni müxtəlifliyimizi nümayiş etdirmək üçün həm Azərbaycan, həm də Qırğızıstanın çoxşaxəli imkanları var. Müasir Qırğız və Azərbaycan mədəni əlaqələri xalqlarımızı daha da yaxınlaşdıracaq".

Sonra Altınbek Maksutov yazıçı-tərcüməçi, Azərbaycan Dövlət Tərcümə Mərkəzinin Dünya ədəbiyyatı şöbəsinin müdiri Nəriman Əbdülrəhmanlını medalla təltif etdi.

Azərbaycanın Mədəniyyət nazirinin müavini Murad Hüseynov jurnalistlərə açıqlamasında diqqətə çatdırdı ki, bir neçə gün ərzində qırğız qardaşlarımız ölkəmizdə zəngin mədəniyyət örnəklərini yüksək səviyyədə təqdim etdilər. İki dövlət arasında qurulan münasibətlər müsbət tendensiyada inkişaf edəcək.

Tədbirdə qonaq ölkənin incəsənət ustaları geniş konsert proqramı ilə çıxış edərək tamaşaçıların zövqünü oxşadılar. İfaçıların nümayiş etdirdiyi musiqi və rəqs nömrələri maraqla qarşılandı.

Xatırladaq ki, qardaş ölkənin Prezidenti Sadır Japarovun ölkəmizə rəsmi səfəri ilə eyni vaxta düşən Qırğız Mədəniyyət Günlərinin proqramı zəngin olub.



Paytaxtımızın mərkəzi prospektlərindən birində dünya şöhrətli böyük qırğız yazıçısı Çingiz Aytmatovun abidəsi açılıb, Nizami Kino Mərkəzində "Qırğız kino Günləri" keçirilib, dekorativ-tətbiqi və təsviri sənət ustalarının əsərlərindən ibarət sərgi, geyim kolleksiyası və milli mətbəx nümunələri nümayiş etdirilib, Azərbaycan Milli Kitabxanasında isə "Azərbaycan – Qırğızıstan mədəni humanitar dostluq əlaqələri" mövzusunda "dəyirmi masa" keçirilib.

Nəhayət qeyd edək ki, Qırğızıstan paytaxtı Bişkekdə də Azərbaycan Mədəniyyəti Günlərinin keçirilməsi nəzədə tutulub və hazırlıq işlərinə başlanıb.

***XQ***

**Qılman İlkin – 110**

# Tağıyev məktəbindən çıxmış yazıçı

**Ədəbiyyatımızın inkişafına sanballı töhfələr vermiş Qılman İlkinin qələmindən çıxan çox sayda hekayə, povest və romanlarda tarixilik, vətənpərvərlik və tərbiyəvi mövzular aparıcı yer tutur. Bu əsərlər yaxın keçmişimizdə baş verən hadisələrlə və müasirlərimizin həyatından alınan bədii lövhələrlə zəngindir.**

Qılman İlkinin "Qalada üsyan", "Hədiyyə", "Dağlı məhəlləsi", "Dəniz qapısı", "Madam Qədri", "Bakı və bakılılar" kimi əsərləri, qədim Bakının tarixi yerləri və görkəmli şəxsiyyətləri haqqında silsilə xatirələri oxucular tərəfindən həmişə maraqla qarşılanıb. Yazıçının Qarabağ müharibəsindən bəhs edən publisistik məqalələri gənclərimizin vətənpərvərlik ruhunda tərbiyə olunması üçün mühüm əhəmiyyət kəsb edir.



Tələbəlik illərindən bədii yaradıcılığa ciddi maraq göstərən Qılman Musayevin (İlkin təxəllüsünü sonra götürüb) ilk qələm təcrübələri ədəbiyyata istedadlı bir gəncin gəldiyindən soraq verib. Hekayələrində mövzuya doğma münasibəti ilə seçilən müəllifin yazıçı dili gözəl, təhkiyə üsulu sadə və səmimidir.

On beş il əvvəl dünyasını dəyişmiş yazıçının ədəbi irsi "Seçilmiş əsərləri" adı altında toplanaraq oxuculara ərməğan edilib. Qılman İlkinin "Sən Bakını tanıyırsanmı?", "Tovuz lələyi" kitabları da kütləvi tirajla nəşr olunub. Onun "Qalada üsyan" romanı əsasında "Azərbaycanfilm"də "Yenilməz batalyon" filmi çəkilib. O, eyni zamanda, "Kölgələr sürünür" filminin ssenari müəllifidir.

Qılman İlkinin səhnə üçün yazdığı "Cərrahlar", "Tayqa nağılı", "Əsgər müharibədən qayıdırdı", "Geriyə yol yoxdur", "Çətin döngələr", "Baba və nəvə", "Həyat sınaqları", "Qarışqa şıllaq atdı" pyesləri də populyarlıq qazanıb və dəfələrlə tamaşaya qoyulub. Ümumilikdə yaradıcılığı boyu Qılman İlkinin 50-dən çox kitabı çap olunub.

Qılman İikin (Qılman Musayev) 1914-cü il aprelin 28-də Bakının Mərdəkan kəndində çoxuşaqlı ailədə anadan olub. İlk təhsilini Hacı Zeynalabdin Tağıyevin Mərdəkanda açdığı Bağbançılıq məktəbində alıb. Burada ona Feyzulla Qasımzadə və Cəfər Rəmzi kimi görkəmli şəxsiyyətlər dərs deyib. Tağıyevin məktəbini bitirdikdən sonra "Rüşdiyyə" məktəbi adlanan 18 nömrəli orta məktəbdə təhsilini davam etdirib, ardınca pedaqoji texnikumda, Azərbaycan Pedaqoji İnstitutunda oxuyub. Kənd məktəbində müəllim işləyib və həmin dövrlərdə baş verən əhvalatları "Ömrün oğlan çağları" povestində qələmə alıb. "Gənc işçi" qəzeti redaksiyasında ədəbi işçi kimi çalışıb və həmin qəzetdə vaxtaşırı əsərləri dərc olunub.

O, 1938-ci ildən "Uşaqgəncnəşr"də məsləhətçi kimi işə qəbul edilib və orada baş redaktor, direktor vəzifələrinə qədər yüksəlib. Azərbaycan Dövlət Universitetində müəllim işlədiyi vaxt İkinci Dünya müharibəsi başlanıb və yazıçı da səfərbərliyə alınıb. Müharibə illərində Qafqaz cəbhəsində və İranda hərbi qəzetlərdə müxbir işləyib. Təbrizdə nəşr olunan "Vətən yolunda" adlı əsgər qəzetinin redaksiyasında çalışıb. Müharibədən sonra yenidən Azərbaycan Dövlət Universitetinə qayıdıb. Ədəbi prosesdə yaxından iştirak edib. Jurnal redaktoru, nəşriyyat rəhbəri kimi də səmərəli fəaliyyət göstərib.

Yazıçının əsərləri bir sıra xalqların dillərinə tərcümə olunub və ölkəmizin hüdudlarından kənarda da yayılıb. Eyni zamanda, onun tərcüməçilik fəaliyyəti də məhsuldar olub.

Qılman İlkinin müasir Azərbaycan ədəbiyyatı və mətbuatının inkişafında səmərəli xidmətləri yüksək qiymətləndirilib. O, "Əməkdar incəsənət xadimi" və "Xalq yazıçısı" fəxri adlarına layiq görülüb. 6 noyabr 2009-cu ildə Bakıda vəfat edən görkəmli nasir II Fəxri xiyabanda uyuyur. Ruhu şad olsun!

***Həzi HƏSƏNLİ***
***şair-publisist***

Teatr

**O, "Viy" və "Müfəttiş" (N.Qoqol), musiqisi S.Ələsgərova, librettosu Şixəli Gurbanova məxsus "Milyonçunun dilənçi oğlu" musiqili komediyası, "Xanuma" (A.Saqareli), "Müsyo Jordan və Dərviş Məstəli Şah" (M.F.Axundzadə), "Şah və Şair, yaxud Səni sevənlər hamı burdadır..." (Kamal Abdulla) kimi əsərlərə səhnə həyatı verib. Bunlardan savayı, müqavilə ilə bir neçə xarici ölkənin teatrında rejissor işləyib. Azərbaycan Dövlət Yuğ Teatrının baş rejissoru Mikayıl Mikayılov "XQ"nin suallarını cavablandırır.**

# Səhnə həyatı gözəlləşdirməyin bədii modelini yaradır

## *Teatrlarımız çətinlikləri sənətə sevgi və peşəkarlıqla aşır*



***– Mikayıl müəllim, 17 il Yuğ Dövlət Teatrında həm rejissor, həm də aktyor kimi fəaliyyət göstərmisiniz. 2022-ci ildə isə baş rejissor təyin edildiniz. Buna qədər özünüzə "mən baş rejissor olsaydım nələri edərdim?" sualını vermişdinizmi?***

– Yuğ Teatrı mənə evim qədər doğmadır. 1990-cı illərin əvvəllərində anam Sonaxanım Mikayılova bu teatrda çalışırdı və mən bütün tamaşaların məşqlərində iştirak edirdim. Yəni, deyə bilərəm ki, teatrın divarları arasında böyümüşəm. Hərdən Vaqif İbrahimoğlunun "dərslər"ində də otururdum. Bəlkə o vaxt Vaqif müəllimin ağlına da gəlməzdi ki, bu dəcəl uşaq nə vaxtsa onun yaratdığı teatrın baş rejissoru olacaq. Mənə zınqrov vermişdi, məşqarası antraktlarda səhnənin ortasından keçib zınqrovu çalırdım. Tale elə gətirdi ki, indi onun sənət missiyasını davam etdirirəm. Heç ağlıma da gəlməzdi… Təyinatım da gözlənilməz oldu. Yuğ Teatrında yetərincə yaradıcı potensial var, Vaqif İbrahimoğlunun yetirmələri çoxdur. Mən daha çox müstəqil rejissor kimi fəaliyyət göstərirdim, Azərbaycandan başqa xarici ölkələrə tamaşa qurmağa dəvət olunurdum.

İndi teatr çətin dönəmini yaşayır, 8 ildir binasız qalmışıq. Bu səbəbdən yaradıcı proses istədiyimiz kimi getmir, çətinliklər var. Yüksək potensiala malik kollektiv bacardığını deyil, mövcud şəraitdə mümkün olanı edir. Buna baxmayaraq, teatr yaşayır, yaradıcı iş davam edir, yeni layihələrə hazırlaşırıq. Bu yaxınlarda keçiriləcək dramaturgiya festivalının təşkilatçılarından biriyik. Vaqif İbrahimoğlu Yuğ Teatrını yaradıcı platformaya çevirmişdi, həmin ənənə davam edir. Gənclərin bu teatrda özlərini sınamaları üçün imkan yaradılır. Planlarımız çoxdur. Teatrımızın bina probleminin həlli yönündə iş gedir.

***– Dediniz ki, teatra daha çox bağlısınız, amma kino rejissorluğu fakültəsini bitirmisinz…***

– Açığı, teatr və kino həyatımda eyni məna kəsb edir. Teatrda artıq müəyyən təcrübə keçmişdim, kinonu da öyrənmək üçün məhz o fakültəni seçdim. Xoreoqrafiya məktəbini də bitirmişəm, ilk iş yerim Pantomim Teatrı olub. Teatr, kino və xoreoqrafiya hər üçü mənim sahəmdir. Kinorejissor kimi dörd qısametrajlı bədii film çəkmişəm. "Xarqo" filmi Əhmədiyyə Cəbrayılovdan bəhs edir. Aprel döyüşləri ilə bağlı filmim də var.

***– Siz həm də Rusiya, Qazaxıstan və Gürcüstan teatrlarında müqavilə ilə tamaşalar hazırlamısınız. Gəlin o teatrları Azərbaycan səhnəsi ilə müqayisə edək…***

– Oxşarlıq da var, xırda fərqlər də. Elə ciddi fərq yoxdur. Ən böyük oxşarlıq bizdə də, orada da intriqaların eyniliyidir. Bir məsələ var ki, Avropa teatrında bir tamaşanı bir aya ərsəyə gətirə bilərsən. Yəni, buna şərait, imkan var. Bizdə isə bu sürətlə işləmək çətindir. Yenə Qazaxıstana dəvət olunmuşam. Bu, orada hazırlayacağım altıncı tamaşam olacaq.

***– 6 il əvvəl Vladimir Klimin "Medeya. Sekvensiya 001" əsərini səhnələşdirmisiniz. Apokrifik janrda olan tamaşada ananız, Əməkdar artist Sonaxanım Mikayılova da rol alıb. Oğulla ana necə dil tapdı?***

– Çox maraqlı idi. Niyə bu əsərə müraciət etdim? Çünki bu əsər post-dramatik üslubda yazılıb, Yuğ Teatrının poetikasına yaxın dildədir. Həm də Medeyanı oynamaq anamın arzusu idi. Əsər bu cümlə ilə başlayır "Ömür boyu Medeyanı oynamaq arzusunda olmuşam". Pyesi oxuyanda anamın arzusu və o cümlə məni bu tamaşanı qoymağa sövq etdi. Qəribədir ki, əsər "Yenə Medeyanı oynaya bilmədim" cümləsi ilə bitir.

Tamaşada iki əsas obraz var, əhvalat da onların ətrafında baş veirir. İkinci obrazı Əməkdar artist Gülzar Qurbanova canlandırır. Məşqlər teatrda qurtarmırdı, bəzən evdə də davam edirdi. Ana-bala müzakirələr aparırdıq. Bir də gördün anamla fikirlərimiz haçalandı, evdəkilər də istər-istəməz işin içində olurdular. Yenə Sona xanımın iştirakı ilə yeni tamaşa üzərində işləyirik. Türk dramaturqu Toyqun Orbayın "21:15 qatarı" əsərini tamaşaya hazırlayıram. İki heyətlə işləyirik. Birinci heyətdə Xalq artisti Məmmədsəfa Qasımov, Əməkdar artistlər Gülzar Qurbanova, Sonaxanım Mikayılova və Fərhad İsrafilov oynayacaqlar. İkinci heyət gənclərdən ibarətdir. Məşqləri bir yerdə edirik, sənətkarlarla məşq prosesi gənclər üçün məktəbdir. Bu əsər Azərbaycan teatrlarının səhnəsində fərqli quruluşlarda oynanılıb. Bizim öz yanaşmamız, rakursumuz ayrıdır. Paralel olaraq bir rumin əsəri üzərində də işləyirik.

***– Vaqif İbrahimoğlunun yetirməsi olmağın hansı özəllikləri var?***

– Əlbəttə, kömək edir, çünki sənin keçdiyin məktəb var. Hər bir teatr kimi, yaradıcı insanın da ustadı, məktəbi olmalıdır. Özülsüz bina olmaz. Ayrı-ayrı məktəblərdə yetişə bilərik, amma hamımız Azərbaycan teatrının tərkib hissəsiyik. Mənim üçün Azərbaycan teatrı anlayışı var. Bəlkə də indi bizim teatr aləmində nə baş verdiyini tam anlamırıq. Amma gələcəkdə teatrşünaslar bunları yazacaqlar. Yuğ Teatrının yaranması, yeni və fərqli estetikada fəaliyyət göstərməsi mədəniyyətimizin tarixidir. Azərbaycanda bu teatrın timsalında ilk dəfə post-dramatik üslubda sənət ocağı yarandı. Bu ocağın odu bu gün də yanır. Bu təkcə Yuğ Teatrına yox, Azərbaycan teatrına məxsusdur. Həmin ocağın təməlində İslam mədəniyyəti, Türk mifologiyası dayanır. Bu teatr estetikası Azərbaycan türkünün beyninin məhsuludur. Yəni, bu sərvət hökmən qorunmalıdır. Stanislavski, Qratovski teatr sistemləri haqqında kitablar yazıblar. Biz də istəyirik Vaqif İbrahimoğlunun teatr sistemi barədə bir kitab ərsəyə gətirək və onu dünyaya yayaq. Ümid edirəm ki, ustadın yubileyi ərəfəsində o kitab işıq üzü görəcək.

***– Bir il əvvəl Teatr Forumunda qaldırılan problemlər öz həllini tapırmı?***

– Əsas odur ki, proses gedir, problemlərin həlli yolları axtarılır, teatrlar arasında dialoq baş tutur. Bizim, həqiqətən də, dialoqa ehtiyacımız var. Əsas istədiyimiz bu idi. Nəticəni gözləyirik. Bu gedişlə tezliklə müsbət nəticələr də olar.

***– Hazırda hansı tamaşa üzərində işləyirsiniz?***

– Yuğ Teatrında 2 tamaşanı mən hazırlayıram, digər rejissorlarımız da yeni tamaşalar üzərində çalışırlar. Universitetdə dərs deyirəm, tələbələrlə də tamaşalar qoyuruq. Qazaxıstanın 2 şəhərində tamaşa hazırlayacağam. Qarşıda yaradıcı işlərimiz çoxdur. İnşallah, tamaşaçıları sevindirəcəyik.

***Söhbətləşdi:***
***Ramilə QURBANLI***
***XQ***

# Hidayət Heydərov 4-cü Avropa qızılını qazandı

## *Onun növbəti hədəfi Olimpiya çempionluğudur*

**Paris Yay Olimpiya Oyunları ərəfəsində Azərbaycan cüdoçuları daha bir mühüm yarışda qüvvələrini sınayıblar. Qitənin ən güclülərinin mübarizə apardığı turnirdə istedadlı tatami ustası Hidayət Heydərov (73 kq) qızıl medal qazanmaqla, həm də tarixi nəticəyə imza atıb. Belə ki, o cüdo tarixinə dördqat Avropa çempionu olan yeganə idmançı kimi düşüb.**





Dünya çempionatının üçqat bürünc mükafatçısı ötən il Fransada təşkil edilən qitə yarışında 3-cü çempionluğunu bayram etmişdi. Həmin il idmançımız Tokioda Dünya Turu seriyasının ən çətin yarışı sayılan "Böyük dəbilqə" turnirində qızıl medal qazanmaqla da tarixi nailiyyətə imza atmışdı. Belə ki, bu idman növünün vətəni Yaponiyada ilk dəfə Azərbaycan komandasının üzvü fərxi kürsünün ən yüksək mərtəbəsinə qalxmağı bacarmışdı. 2023-cü ildə tatami ustası Türkiyədə keçirilən "Böyük dəbilqə"də də rəqib tanımayıb. Həmçinin, bu il Bakıda keçirilən "Böyük dəbilqə" turnirində Hidayət Heydərovun qızıl medal qazanması uğurlu nəticələrinin davamlı olmasının göstəricisidir.

Hidayət Heydərov qazandığı qələbə ilə bağlı danışarkən bu tarixi nəticənin son olmadığını deyib. O, növbəti yarışlarda – dünya çempionatı və Paris Yay Olimpiya Oyunlarında çempionluğu hədəflədiyini vurğulayıb. Avropa çempionatında həlledici qarşılaşmasından danışan idmançı deyib:

–Finala fərqli hazırlaşmışdım. İlk görüşlərdə çox fənd işlətdiyimə görə, yorulmuşdum. Buna baxmayaraq xarakter nümayiş etdirdim və qələbə qazandım. Düşünürəm ki, yarışda əsas qələbə ruhudur.

Qeyd edək ki, qitə yarışında Hidayət Heydərov ikinci mərhələdən mübarizəyə qoşulub. İlk görüşdə İndrit Kalhacı (Albaniya) məğlub edən cüdoçumuz növbəti mərhələdə – səkkizdəbir finalda portuqaliyalı Otari Kvantidzenin də öhdəsindən uğurla gəlib. Üçüncü qarşılaşmasında neytral idmançı statusunda çıxış edən Ruslan Qoluvaçov, yarımfinalda moldovalı Adil Osmanov üzərində qələbə qazanıb. Dördüncü çempionluq uğrunda neytral statuslu atlet Danil Lavrentyevlə görüşdə qalib əlavə vaxtda müəyyənləşib. D. Lavrentyevin 3-cü cərimə xalını alması Hidayətin çempionluğu ilə nəticələnib.

Azərbaycan Cüdo Federasiyasının baş katibi Rəşad Rəsullu qəzetimizə açıqlamasında H.Heydərovun dördqat Avropa çempionu titulunu qazanmasının cüdo tariximizdə bir ilk olduğu üçün xüsusi əhəmiyyət daşıdığını bildirdi:

–Hidayət yarışdan sonra açıqlamasında da bildirdi ki, qazanacağı tarixi nəticələr hələ qabaqdadır. Əminik ki, Avropa çempionluğu Hidayəti daha böyük hədəflərə çatmağa həvəsləndirəcək. Hidayət topladığı xallara görə öz çəkisində dünya reytinqində birincidir. Bu, onun olduğu hazırkı formasını, ustalığını göstərir. O güclü potensiala malikdir. Mütəxəssislərin də qeyd etdiyi kimi, hazırda karyerasının pik formasına çatıb. İndi əsas məqsəd onun Olimpiya Oyunlarına ən yüksək idman formasında qatılmasıdır.

Baş katib olimpiadaya hazırlıqla bağlı da fikirlərini bölüşüb:

– Avropa çempionatından sonra mayın 19-24-də Abu-Dabidə dünya çempionatı olacaq. Bu nüfuzlu yarışa hazırlıqla bağlı Bakıda təlim-məşq toplanışı olacaq. Dünya çempionatından sonra komanda Qubada ümumi fiziki hazırlıqla bağlı təlim-məşqə qatılacaq. Daha sonra Xorvatiya və İspaniyada beynəlxalq təlim-məşq toplanışı ilə Olimpiadaya hazırlığı davam etdirəcəyik. Bakıda sonuncu təlim-məşq toplanışından sonra Paris Olimpiadasına yola düşəcəyik.

Qeyd edək ki, Avropa çempionatında Azərbaycan komandası uğurla çıxış edib. Belə ki, Hidayət Heydərovla yanaşı, Elcan Hacıyev (90 kq) də fəxri kürsünün ən yüksək pilləsində yer alıb. Yığmamızın digər üzvü Balabəy Ağayev (60 kq) isə yalnız finalda uduzaraq gümüş medala sahib çıxıb. Bununla da 2 qızıl, bir gümüş medalla Azərbaycan ümumi hesabda ikinci yeri tutub.

***Leyla QURBANOVA***
***XQ***

# Muğamın Dədə Süleyman ifası

**"You Tube"dakı onun ecazkar səsini dinləyirəm. Xanəndə Süleyman Abdullayev öz gözəl və bənzərsiz səsi ilə Süleyman Rüstəmin məşhur "Mənə qalsa" qəzəlini "Şur" üstündə oxuyur:**



*"Heçdir deyərəm sevgisiz*
*insan mənə qalsa,*
*Cansızlara da bəxş edərəm can,*
*mənə qalsa..."*

Sözlər mənalı və ifaçının səsi məlahətlidir. Həm səs, həm də sözlər başdan-başa sehr və möcüzədir!

Xanəndə isə şirin zəngulələr edərək öz gözəl avazı ilə davam edir:

*Məclisdə qızıldan baha söz*
*söyləməsən sus,*
*Boş sözlərə vermərəm imkan,*
*mənə qalsa!*

Bu an Əhsən Dadaşovun tarının şahanə səsi eşidilir. Tarın sədaları xanəndəni daha da cuşa gətirir:

*Ay, illərlə vuruşdum uğrunda vüsalın,*
*Heç qoymaram hicran çəkə*
*canan, mənə qalsa*

Sonra isə, bəlkə də, yüz dəfə dinlədiyim qəzəlin şah beytinin növbəsi çatır:

*Sahil boyu bağ sallam*
*əlimlə Arazım üçün*
*Ollam iki sahildə də*
*bağban mənə qalsa*

Həmin an gözlərim önündə doğma Araz çayı, onun gur suları üzərində XI-XIII əsrlərdə inşa edilən tarixi Xudafərin körpüləri canlanır. İkiyə bölünən məmləkətin həsrət ağrısı ürəyimi sızladır....

Bu lentin bir müddət əvvəl Beynəlxalq Muğam Mərkəzində Əməkdar artist Süleyman Abdullayevin anadan olmasının 85 illk yubileyinə həsr olunan konsertdə də səsləndiriləcəyinə ümid edirdim. Bu gözəl məclisdə məhz bu lent səsləndirilməsə də, bundan pəjmürdə olmadım. Çünki Dədə Süleymanın ifasında digər bir neçə muğam və təsnifi bir dənə də olsun boş yer olmayan salonda hamı ilə bərabər dərin məmnunluq hissilə dinlədim.

Sonra gənc və orta nəsil istedadlı muğam ifaçıları Səbuhi İbayev, Qoçu Əsgərov, Eldəniz Məmmədov, Ehtiram Hüseynov, Mirələm Mirələmov, Kamilə Nəbiyeva və başqaları Süleyman Abdullayevin repertuarından bir çox sevilən mahnı və təsniflərə yeni nəfəs qataraq ifa etdilər. Çıxışların da hər biri layiqincə alqış qazandı.

Tanınmış muğamşünas, professor Fərahim Sadıqov yubiley gecəsində çıxış edərək dedi ki, Azərbaycan xalqı Süleyman Abdullayev sənətinə sevgi və məhəbbətini heç vaxt əsirgəməyib. Professor belə bir məqamı da vurğuladı ki, müğənni mahnı mətnlərini son dərəcə aydın tələffüz edirdi ki, dinləyicilər bundan məmnun qalırdılar.

Fasilədə yubilyara həsr olunan "Səsin sorağında" kitabının müəllifi, publisist Vaqif Rüstəmov ilə görüşdüm. Yeri gəlmişkən, sonrakı günlərdə kitabı böyük maraqla oxuyub müəllifə təşəkkür etməyi özümə borc biləcəkdim.

Fasilə zamanı müğənninin sevimli qızı Aygün xanımın bu sözləri hamını təsirləndirdi:

–Nə yaxşı ki, atam Qarabağ azad edilənədək yaşadı. Yoxsa dünyadan Qarabağ həsrəti ilə köçəcəkdi...

Ətrafdakılardan kimsə dilləndi:

–Dədə Süleyman musiqi beşiyi Qarabağın təkrarsız səs sahibi olan müğənnilərindən idi. Allah rəhmət eləsin!

***M.HACIXANLI***
***XQ***

# Azərbaycan kitabları Daşkənd sərgisində

**Özbəkistanda hər il təşkil edilən ənənəvi "Kitab həftəsi" tədbirləri çərçivəsində Daşkənd şəhərindəki "Turan" kitabxanasında Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin (AMM) təşkilatçılığı ilə Azərbaycan kitabları sərgisi keçirilib.**

Kitabxananın əməkdaşı Dilfuza Dursimatova Özbəkistanda keçirilən ənənəvi kitab həftəsi haqqında məlumat verərək bu münasibətlə "Turan" kitabxanasının silsilə tədbirlər təşkil etdiyini və bu tədbirlərin bir günü Azərbaycan kitablarına həsr olunduğunu qeyd edib.

AMM direktorunun müavini Nadir Əlimirzəyev bu təşəbbüsün çox yaxşı ənənə olduğunu vurğulayıb. İki qardaş ölkə arasında mövcud əlaqələrdən söz açan N. Əlimirzəyev indiyədək Mədəniyyət Mərkəzi tərəfindən 100-dən çox kitabın çap edildiyini bildirərək bu nəşrlərin Özbəkistanın müxtəlif kitabxanalarına hədiyyə edildiyini vurğulayıb.

Daha sonra çıxış edən Daşkənd şəhər Şayxantohur rayonu Mədəniyyət Mərkəzinin direktoru Abdulqayim Akbarov Özbəkistanla Azərbaycan xalqları arasında mövcud olan qədim və sıx ədəbi-mədəni əlaqələrdən söz açaraq günümüzdə bu əlaqələrin yüksələn xətt üzrə inkişaf etdiyini söyləyib.

AMM-nin əməkdaşı, filologiya üzrə fəlsəfə doktoru Kərimulla Məmmədzadə kitabın bəşər tarixində mədəniyyətin ən vacib bir hissəsi olduğunu qeyd edib. Dahi Azərbaycan şairi Məhəmməd Füzulinin 530 illiyinin qeyd edilməsi haqqında Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncam imzaladığını diqqətə çatdıran K.Məmmədzadə bu münasibətlə şairin əsərlərindən ibarət ikicildliyin özbək dilində nəşrə hazırlandığını bildirib.

Şairə-jurnalist Nazira Aripova Özbəkistanda Azərbaycan ədəbiyyatının çox sevildiyini bildirib, sərgilənən kitablar arasında sevilən əsərlərin də yer aldığını vurğulayıb.

Sonda tanınmış Azərbaycan şairi Xan qızı Xurşidbanu Natəvanın AMM tərəfindən özbək dilində çap olunan "Günəşə çatar başım" adlı kitabı haqqında da məlumat verilib.

***Qulu KƏNGƏRLİ,***
***XQ-nin müxbiri***
**Daşkənd**

Beynəlxalq həyat

# ABŞ Rusiyanın heyfini Çindən almağa hazırdır

**Dövlət katibi Antoni Blinken ABŞ-ın Rusiyaya ikili təyinatlı malların tədarükünü dayandırmayacağı təqdirdə Çinə qarşı məhdudlaşdırıcı tədbirlər görməyə hazır olduğunu açıqlayıb. O qeyd edib ki, bu mövzu Pekində Çin sədri Si Cinpin və xarici işlər naziri Van İ ilə danışıqlarda müzakirə olunub.**



"Bugünkü müzakirələr zamanı mən ÇXR-in Rusiyanın Ukraynaya qarşı təcavüzünü gücləndirən komponentlərin tədarükü ilə bağlı ciddi narahatlığımızı təkrarladım. Əgər Çin tərəfdən heç bir tədbir görülməsə, biz hərəkətə keçməyə tam hazırıq", - deyə cənab Blinken mətbuat konfransında bildirib. O xatırladıb ki, ABŞ bundan əvvəl də Çin şirkətlərinə qarşı sanksiyalar tətbiq edib. Konfrans ABŞ Dövlət Departamentinin "YouTube" kanalında yayımlanıb.

ABŞ dövlət katibinin sözlərinə görə, Çin Rusiyanın müdafiə sənayesi kompleksinin yaradılması üçün istifadə etdiyi dəzgahlar və mikroelektronika, eləcə də digər ikili təyinatlı malların ən böyük tədarükçüsüdür. O hesab edir ki, Çin Rusiyaya yardımı davam etdirərkən Qərb ölkələri ilə yaxşı münasibətlərə can ata bilməz.

Antoni Blinkenin Çinə səfəri ərəfəsində "The Wall Street Journal" məqalə dərc edib və burada xüsusilə qeyd olunub ki, Rusiya-Ukrayna hərbi münaqişəsinin başlanmasından sonra Çin Rusiya Federasiyasına elektron sxemlərin, təyyarə hissələrinin, maşın və maşın alətlərinin əsas təchizatçısına çevrilib. Çin bankları Rusiyaya kommersiya ixracatında əsas vasitəçilər kimi göstərilib. Nəşrin mənbələri ABŞ-ın onlara qarşı sanksiyalar tətbiq etməyə hazırlaşdığını iddia edib.

Çin Xarici İşlər Nazirliyi nəşri şərh edərkən bildirib ki, Çin digər ölkələrlə bərabərlik və qarşılıqlı fayda əsasında normal ticarət-iqtisadi fəaliyyət göstərmək hüququna malikdir. Cənab Blinkenlə görüşündə Van İ ABŞ-ı Çinin suverenliyi və təhlükəsizliyi ilə bağlı qırmızı xətləri keçməkdən çəkindirib.

***S.ELAY***
***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 86 (30490) 28 aprel 2024-cü il, bazar

# Azərbaycanlı sənətçi beynəlxalq İstanbul konfransında




**Tanınmış müsiqi ifaçısı, Əməkdar artist, Milli Konservatoriyanın dosenti Gülüstan Əliyeva İstanbulda Ümumdünya Səs Gününə həsr olunmuş konfransda ölkəmizi təmsil edib.**

Beynəlxalq sənət məclisində soydaşımız "Operada klassik vokalın milli ifaçılıq üslubu ilə sintezi" mövzusunda məruzə ilə çıxış edib. Azərbaycan musiqiçisi səs sahəsindəki nailiyyətlər barədə panel müzakirələrində, seminarlar, tematik sessiyalarda və poster təqdimatlarında da fəal iştirak edib.

Gülüstan Əliyeva səfərdən sonra XQ-yə bildirdi ki, ötən əsrin sonlarından hər il keçirilməyə başlanan Ümumdünya Səs Günü insan səsi fenomeninə və onun roluna həsr olunur. Məqsəd təbiətdə nadir hadisə olan insan səsini, səlis nitqi və musiqi ifaçılığını qorumaq, onunla bağlı sağlam həyat tərzini təşviq etməkdir.

Təbiət – ümumi yuvamız

# Daha tək deyiləm

*(yaşantı)*

**Boz dovşan, bülbül, qumru və bir də mən kənddə eyni həyətdə yaşayırıq. Heç birimizin bu həyətə qeydiyyatı yoxdur. Ancaq, mənə görə, əsas qeydiyyat elə ev tikib, yuva qurmaq və birgəyaşayış qaydalarına hörmət etmək, yəni tolerant olmaqdır. Digər tərəfdən, biz öz aramızda, belə demək olarsa, təbiət və cəmiyyət qanunları arasında ortaq yaşayış sərhədləri müəyyənləşdirmişik, qoşulmamaq hərəkatını dəstəkləyirik.**

Dovşanın yuvası həyətdəki yoncalıqdadı. Amma o, axşamlar çox vaxt gəlib eyvanın qarşısında, yaxşı işıqlanan yerdə çömbəlir. Görünür, o, tənhalıqdan qorxur. Bu dəqiqələrdə mən də eyvana çıxıb köhnə kresloda oturur, qonşumun hərəkətlərini izləyirəm. O, məndən qorxmur. Yəqin bilir ki, mən həmsöhbət olmaq üçün ona yaxın gəlirəm. Dovşan ora-bura göz yetirdikdən sonra gözlərini yumur, amma qulaqları "lakator" kimi daim hərəkətdə olur və gələn səsləri qəbul edir. Onun balaları olub-olmadığını hələ müəyyənləşdirə bilməmişəm. Olsaydı yəqin ki, yoncalıqda görünər, ya da analarının arxasınca düşüb qapıyadək gələrdilər. Bəlkə buradan əvvəl haradasa qurda-quşa yem olublar və buna görə dovşan bu həyətə pənah gətirib. Məncə belədi, çünki dovşanın baxışlarında adamı üzən nigarançılıq və kədər qarışıq bir əhval var. Nədən nigarandı, nəyin xiffətini edir, aydınlığı ilə başa düşə bilmirəm. Onun bu halı mənə də təsir edir, istəyirəm bu suallara cavab tapım, ancaq dil baryeri imkan vermir.

Arabir özüm də bilmədən evin dəmir qapısını bərk örtürəm. O zaman dovşan gözlərini açıb mənalı-mənalı mənə tərəf baxır və sonra çıxıb gedir. Onun baxışları sanki deyir: "Sənə nə olub, nə hay-küy salmısan, imkan ver yataq dəə! Nə qədər ki, sən Bakıda idin, buralarda tam sakitlik idi. Mən keyfimdən bu həyəti seçməmişəm. İnsanlar belədi, hansı ilə yanaşı yaşamaq, qulaq yoldaşı olmaq istəyirsən, bir oyun çıxarır..."

Dovşanın bu sözlərindən incimirəm, əksinə utanıram. Qorxuram ki, o, həyətdən çıxıb gedər və mən bunu özümə bağışlaya bilmərəm...

Qumru quşu yuvasını eyvanın ən hündür, o qədər də diqqət çəkməyən yerində tikib. O gün diqqətlə baxıb gördüm ki, yuvanı hörmək üçün istifadə etdiyi kəndirlər mənim sarıyıb mismara keçirdiyim iplərdi. Neçə kəsib, nə vaxt aparıb, xəbərim olmayıb. Mən hospitaldan çıxıb kəndə qayıdan günü qumru özünü narahat aparırdı. Məncə, o, fikirləşir ki, burada yuva qurduğuna, eyvanı çirkləndirdiyinə görə acığım tutacaq və yuvasını dağıdacam. Ancaq mən yeni qonşumun evimə təşrif gətirdiyinə görə sevinc hissi keçirdim.



Məgər bu gen, işıqlı dünyada qumrunun istədiyi yerdə kiçicik yuva qurmağa, bala çıxarmağa haqqı yoxdur? Bir də, mənə görə, dünyada ən böyük günahlardan biri başqasının yuvasını dağıtmaqdır. Fikir vermişəm, qumru gün ərzində bir-iki dəfə yuvanı tərk edir. Yəqin aclıq ona güc gəlir və əldən düşməmək üçün cücü ovlamağa gedir. Quşun yorulmadan, usanmadan saatlarla yumurtaları üstündə oturmasına baxanda yadıma bizi aylarla bətnində qanı-canı ilə qidalandıran, gəzdirən analarımızın fədakarlığı düşür. Hələ dünyaya gətirdikdən sonra illərlə isti nəfəsi ilə bizi böyüdən və duaları ilə yolumuzu işıqlandıran analarımızın bircə saatının, bircə yuxusuz gecəsinin haqqını qaytara bilirikmi? Əsla!

Ana qumru bu anlarda mənim üçün daha əziz olur, istəyirəm ona deyim ki, nə yaxşı bu eyvanda yuva qurmusan və evimi şərəfləndirmisən...

Həyətdə iki qocaman söyüd ağacı var. O söyüdlər məndən ötrü təkcə ağac deyil, xatirə yumağı kimidir. Günəşli günlərdə o söyüdlərin altında qoyulmuş taxta oturacaqda əyləşib dincəlir, bu fani dünyanın gəlir-gedərini "hesablayır", vara-vurd eləyir, ömür kitabımı vərəqləyirəm. O dəqiqələrdə söyüdlərin budaqları arasından süzülən Günəş işığı ruhuma çilənir, içimi işıqlandırır və çox mətləbləri yadıma salır. Onu da deyim ki, bu ağacları böyük qardaşım burada yurd salanda, ev binə eyləyəndə torpağa basdırıb və təbiri-caizsə, biz o söyüdlərlə birgə boy atmışıq...

Ötən il qardaşım dedi ki, bəlkə bu söyüdləri kəsib, odun eyləyək. Razı olmadım. Bir müddət sonra söyüdlərin qurumuş budaqlarını kəsdim və ağaclar sanki cavanlaşdılar. İndi söyüdlər daha gözəl görünürlər, elə bil mənim kimi hospitaldan təzəcə çıxıblar. (Məlumat üçün nəzərinizə çatdırım ki, işıqlarımız yandı. Ona görə sevinirəm ki, lampa və şam işığında oturub telefonda, kor hinduşka dən dənləyən kimi yazı yazmaq çətin işdi...)

Hə, hospitaldan gələndən sonra həyətdə xeyli işləmişəm. Hətta söyüdləri də yenidən budamışam. Elə bu işə təzəcə başlamışdım ki, gördüm ətrafda bülbül yamanca fəryad edir. Qəflətən gözüm cavan budaqlardan birində toxunmuş yuvaya sataşdı. Yuva elə hörülüb ki, sanki, torbadı. Deməli, bülbül hərəkətləri və narahatlığı ilə mənə demək istəyirmiş ki, ehtiyatlı ol, bilməzsən, yuvam olan budağı da kəsərsən... Əllərim soyudu. Daha işləyə bilmədim və oturacaqda əyləşdim. Az sonra bülbülün cəh-cəhi həyəti bürüdü...

Bax, beləcə, mənim ən yaxın qonşularım haqda sizə söyləyəcəklərim bunlar idi. Deməli, bu həyətdə daha tək yaşamıram. Bundan sonra evimdən ayrılıb harasa gedəndə həyət boş qalmayacaq, dostlarımın isti nəfəsi həyəti qoruyacaq və mən onlar üçün darıxıb tezliklə doğma yuvama dönəcəyəm...

***Səməd MƏLİKZADƏ***

# Uşaqların "yaşıl" dünyası

**2024-cü il ölkəmizdə "Yaşıl dünya naminə həmrəylik ili" elan edilib. Ana təbiətin mühafizəsi ilə əlaqədar hər yerdə olduğu kimi, təhsil müəssisələrində də müvafiq işlər aparılır.**

Məktəblilərin ekoloji biliyini artırmaq, bu sahədə onların mədəniyyət səviyyəsini yüksəltmək məqsədilə Bakı şəhəri M.Səhriyar adına 193 saylı məktəbdə "Yaşıl dünya naminə–2024" adlı toplantı keçirilib.

Tədbirdə çıxış edənlər bəşəriyyəti narahat edən ekoloji problemlər, iqlim dəyişiklikləri, onların ətraf mühitə mənfi təsiri və bu problemlərin həll edilməsində təbiətə qayğının vacibliyi haqqında danışıblar.

Məktəbdə şagirdlərin əl işləri – rəsmlər, maketlər sərgilənib, təbiətə həsr edilən mahnılar səsləndirilib.

***Zülfiyyə ZİYA***
***XQ***



İdman

## Olimpiya məşəli Fransaya aparılır

**Paris Yay Olimpiya Oyunlarının məşəli Yunanıstanda tarixi abidə kimi tanınan 120 illik üçdirəkli "Le Belem" yelkənli gəmisi ilə bu ölkədən Fransaya yola salınıb.**



Məşəl mayın 8-də Marselə çatdırılacaq. Marselin köhnə limanında keçiriləcək qarşılanma mərasiminə təxminən 150 min adamın qatılacağı gözlənilir. Tədbir çərçivəsində eramızdan əvvəl 600-cü illərdə Kiçik Asiyadan olan yunanlar - fokilər tərəfindən salınan şəhərin özündə yelkənli qayıq yarışları keçiriləcək.

Fransa ərazisindən keçən məşəl estafeti 68 gün davam edəcək. Estafet iyulun 26-da Oyunların açılış mərasimində məşəlin alovlanması ilə başa çatacaq.

## Taekvondoçularımız 6 mükafat qazanıblar

**Yeniyetmə taekvondoçularımız Estoniyanın paytaxtı Tallində keçirilən Prezident Kubokunun ilk günündə uğurla çıxış edərək 6 medal qazanıblar.**

Yığmanın aktivinə qızıl medalı Novruz Əliyev (45 kq) qazandırıb. Yalnız finalda məğlub olan Anar Abdullazadə (37 kq) və Çingiz Həsənov (53 kq) gümüş medala layiq görülüblər. Gülay Əliyeva (44 kq), Gülnar Rəsulzadə (47 kq) və Sərxan Talıbzadə (65 kq) isə bürünc mükafat alıblar.

Prezident Kuboku yarışı aprelin 28-dək davam edəcək.

***L.SABİRQIZI***
***XQ***

Hava

# Bu gün də yağmursuz və dumanlı



**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən aprelin 28-də Bakıda və Abşeron yarımadasında hava yağmursuz keçəcək. Mülayim cənub küləyi əsəcək.**

Gecə 14-18°, gündüz 26-31° isti olacaq. Atmosfer təzyiqi normadan yüksək 765 mm civə sütunu, nisbi rütubət gecə 60-70, gündüz 30-40 faiz olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi dağlıq ərazilərdə arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 12-17°, gündüz 27-32°, dağlarda gecə 7-12°, gündüz 18-23° isti olacaq.

***Q.QASIMOV***
***XQ***

Sağlamlıq

## "Xiyar" demə, "xeyir" de!

**Yaz aylarında "az qala" hər yeməyin yanında süfrəyə gətirilən xiyar sağlamlıq üçün çox faydalı bir tərəvəzdir. Onun qabığı da əsl vitamin mənbəyi, lif qaynağıdır.**



Xiyarın yaşıl qabığında olan lif, vitaminlər və antioksidantlar sağlamlığa faydalı təsir göstərir. Mütəxəssislərin fikrincə, xiyar qabığının ən mühüm faydası immunitet sistemini gücləndirməsidir.

Həzm prosesini asanlaşdıran xiyar və qabığı müntəzəm qəbul edildikdə mədə problemlərini aradan qaldırır. Xiyarın tərkibindəki bol su həzmi dəstəkləyir və bədənin maye balansını qoruyur. Buna görə də, xiyarı qabıqlı yemək tövsiyə olunur.

Bir çox insanı maraqlandıran əsas məsələ xiyar qabığının dəriyə təsiridir. Qabıqdakı silisium mineralı saç və dırnaqları gücləndirməyə kömək edir, antioksidantlar qırışları azaldır, dərini sağlam və gənc göstərir.

Xiyardan faydalanmaq üçün qabıqlarını qaynadıb çay kimi də içmək olar. Qabıqlar arıqlamağı asanlaşdırır.

***Z.HÜSEYNLİ***
***XQ***

## ALLAH RƏHMƏT ELƏSİN

Asif Əsgərov Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Katibliyi rəisinin müavini Mehdi Dadaşova anası

**ELMİRA SÜLEYMANOVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

İsa İsayev, Akif İbrahimov və Oruc İmaniyev yaxın dostları

**CAVANŞİR XƏLİLOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Əməkdar jurnalist Vaqif Musayev akademik Yaqub Mahmudova həyat yoldaşı

**ALMAS XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3882
SİFARİŞ 829
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Vaqif BAYRAMOV

Çapa imzalanmışdır 00:00